**Azərbaycan Tibb Universiteti**

# Azərbaycan Tibb Universitetinin
# İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında
# HESABAT

**Hesabat Azərbaycan Tibb Universitetinin**
**Elmi Şurasının**
**(gün/ay/il) tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix ______________**

**İmza ______________**
**(müəssisənin rəhbəri)**

**M.Y**

______________

**2023**

## Mündəricat


**I. Giriş**..........................................................................................................3
1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar..................................................3
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki...........................................4
3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair.......................................................................9

**II. Təhsil müəssisəsinin özünütəhlili..............................................................15**
4. Özünütəhlil qiymətləndirilməsinin icmalı........................................................15
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri....................................................120
6. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər..........................................123

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər.........................................125**

## I. Giriş

### 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Azərbaycan Tibb Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Azərbaycan Respublikası Təhsil Nazirliyi 19 dekabr 2017-ci il tarixli, 446 nömrəli əmri ilə 22 dekabr 2017-ci ildə, 5 il müddətinə verilmişdir |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | XXX |
| Təhsil müəssisəsinin rəhbəri | Professor, tibb üzrə elmlər doktoru Gəray Gəraybəyli |
| Fakültələrin sayı | 6 (Altı) |
| Kafedraların sayı | 60 (Altmış) |
| Bakalavriat (əsas (baza ali) tibb təhsili pilləsi üzrə ixtisasların sayı | 8 (Səkkiz) |
| Rezidentura pilləsi üzrə ixtisasların sayı | 60 (Altmış) |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas: 4 (Dörd)<br>İxtisaslaşma: 9 (Doqquz) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 3 (Üç) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 6996<br>Rezidentura: 620<br>Magistratura: 90<br>Doktorantura:77<br>Elmlər doktorluğu proqramı üzrə: 34 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 1166 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 294 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | www.amu.edu.az<br>admin@amu.edu.az<br>(+99412) 597-38-98 |
| Müəssisənin hüquqi ünvanı | Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi 14, AZ1022 |

| | |
|---|---|
| Müəssisənin faktiki ünvanı | Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi 14, AZ1022 |

**2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki**

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Komissiyadakı funksiyası | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|---|
| 1 | Prof. Sabir Əliyev | **Sədr** | Tədirs işləri üzrə prorektor | seliyev3@amu.edu.az |
| 2 | Aygün Babayeva | **Sədr müavini Keyfiyyət təminatı istiqaməti üzrə işçi qrupun rəhbəri** | İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri | aygun.babayeva@amu.edu.az |
| 3 | Dos. Məmmədova Fəxriyə | **Katib** | II Uşaq xəstəlikləri kafedrasının dosenti | fmemmedova1@amu.edu.az |
| 4 | Təranə Əhmədova | **İşçi qrupun üzvü** | Səhiyyə Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini | t.ahmadova@health.gov.az |
| 5 | Firdovsi Məmmədov | **İşçi qrupun üzvü** | “Zəfəran Hospital” klinikasının direktoru | firdovsi.mammadov@zeferan.az |
| 6 | Səbinə Əliyeva | **İşçi qrupun üzvü** | “Happy Dent” klinikasının direktoru | sabinastom@rambler.ru |
| 7 | Afaq Əhmədpaşayeva | **İşçi qrupun üzvü** | “MAYMED-AVİS” MMC-nin insan resursları şöbəsinin müdiri | afaq.ahmadpasayeva@maysaglik.com |
| 8 | Aytən Sultanova | **İşçi qrupun üzvü** | “Məlhəm Hospital” baş həkimi | hr@melhemhospital.com |
| 9 | Dos. Zülfüqar Musabəyov | **İdarəetmə sistemi istiqaməti üzrə işçi qrupun rəhbəri** | Tərbiyə işləri üzrə prorektor | z.musabeyov@amu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 10 | Prof. Rauf Bəylərov | **Elmi - Tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri** | Elmi işlər üzrə prorektor | rauf.baylarov@amu.edu.az |
| 11 | Dos. Orxan İsayev | **Strateji inkişaf istiqaməti üzrə işçi qrupun rəhbəri Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri** | Beynəlxalq əlaqələr üzrə prorektor | isayev.orkhan@amu.edu.az |
| 12 | Tağı Əhmədov | **İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri** | İnzibati-təsərrüfat işləri üzrə prorektor | tagi.ahmadov@amu.edu.az |
| 13 | Dos. Nigar Mehdiyeva | **İşçi qrupun üzvü** | Onkoloji Klinikanın direktorunun müəlicə işlər üzrə müavini | nmehdiyeva@amu.edu.az |
| 14 | Mahir Səfərov | **İşçi qrupun üzvü** | Tədris Stomatoloji Klinikasının direktoru | msafarov@amu.edu.az |
| 15 | Dos. Mücahit Avcil | **İşçi qrupun üzvü** | Tədris Cərrahiyyə Klinikasının direktoru | - |
| 16 | Fərid Eyvazov | **İşçi qrupun üzvü** | Tədris Terapevtik Klinikasının direktoru | feyvazov@amu.edu.az |
| 17 | Dos. Cahangir Qasımov | **İşçi qrupun üzvü** | Həmkarlar itifaqının komitəsinin sədri | cqasimov@amu.edu.az |
| 18 | Dos. Kamandar Yaqubov | **İşçi qrupun üzvü** | Tədris departamentinin rəhbəri | education@amu.edu.az kyaqubov@amu.edu.az |
| 19 | Prof. Nazim Pənahov | **İşçi qrupun üzvü** | Elmi katib | elmi_katib@amu.edu.az npenahov@amu.edu.az |
| 20 | Dos. Elşad Novruzov | **İşçi qrupun üzvü** | I Müalicə - profilaktika fakültəsinin dekanı | enovruzov@amu.edu.az |
| 21 | Dos. İsrail Məhərrəmbəyli | **İşçi qrupun üzvü** | II Müalicə - profilaktika fakültəsinin dekanı | imaharrambayli@amu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 22 | Dos. Səid Əhmədov | **İşçi qrupun üzvü** | Stomatologiya fakültəsinin dekanı | sehmedov@amu.edu.az |
| 23 | Dos. Fərəh Mədətli | **İşçi qrupun üzvü** | Əczaçılıq fakültəsinin dekanı | fmedetli@amu.edu.az |
| 24 | Dos. Qalina Qaniyeva | **İşçi qrupun üzvü** | İctimai səhiyyə fakültəsinin dekan vəzifəsini müvəqəti icra edən | qgeniyeva@amu.edu.az |
| 25 | Natiq Bayramov | **İşçi qrupun üzvü** | Əcnəbi təhsilalanlarla iş üzrə dekan | nbayramov@amu.edu.az |
| 26 | Prof. Rizvan Məmmədov | **İşçi qrupun üzvü** | Doktorantura və dissertantura şöbəsinin müdiri | rmammadov@amu.edu.az |
| 27 | T.x.polk. Çingiz Əlləzov | **İşçi qrupun üzvü** | Hərbi tibb fakültəsinin rəisi | htf@amu.edu.az |
| 28 | Prof. Məlahət Sultanova | **İşçi qrupun üzvü** | Rezidentura və magistratura şöbəsinin müdiri | msultanova@amu.edu.az |
| 29 | Raifə Aslanova | **İşçi qrupun üzvü** | Kadrlar şöbəsinin müdiri | kadrlar@amu.edu.az |
| 30 | Kəmalə Məmmədova | **İşçi qrupun üzvü** | Hüquqşünas | k.memmedova@amu.edu.az |
| 31 | Ilqar Mehrabov | **İşçi qrupun üzvü** | Mərkəzləşdirilmiş mühasibatlığın baş mühasibi | ilqarmehrabov@amu.edu.az |
| 32 | Elçin Əlizadə | **İşçi qrupun üzvü** | Təsərrüfat və təchizat şöbəsinin müdiri | elchin.alizade@amu.edu.az |
| 33 | Rəfael Abduləlimov | **İşçi qrupun üzvü** | Plan-iqtisadiyyat şöbəsinin müdiri | rabdulelimov@amu.edu.az |
| 34 | Dos. Müşfiq Orucov, | **İşçi qrupun üzvü** | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | morucov@amu.edu.az |
| 35 | Qoşqar İsmayılov | **İşçi qrupun üzvü** | Tələbə həmkarlar İttifaqı komitəsinin sədri | q.ismayilov@amu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 36 | Dos. Sevinc Məhərrəmova | **İşçi qrupun üzvü** | II Müalicə - profilaktika fakültəsinin dekan müavini | smaharramova@amu.edu.az |
| 37 | Günel Aslanova | **İşçi qrupun üzvü** | Mətbuat xidmətinin rəhbəri | gunel.aslanova@amu.edu.az press@amu.edu.az |
| 38 | Şəfəq Qasımova | **İşçi qrupun üzvü** | Baş mühasibin müavini | s.qasimova@amu.edu.az |
| 39 | Zəhra Mahmudova | **İşçi qrupun üzvü** | Təhsilalanlarla iş şöbəsinin mudiri, Tədris departamentinin | z.mahmudova@amu.edu.az |
| 40 | Rəna Salmanova | **İşçi qrupun üzvü** | Təhsilverenlerlə iş şöbəsinin mudiri, Tədris departamentinin | rsalmanova@amu.edu.az |
| 41 | Şəfəq Cəbrayilova | **İşçi qrupun üzvü** | Məzunlarla iş şöbəsinin mudiri, Tədris departamentinin | scebrayilova@amu.edu.az |
| 42 | Zaur Qazıyev | **İşçi qrupun üzvü** | Təmir – tikinti üzrə texniki nəzarətçi | zqaziyev@amu.edu.az |
| 43 | Rəna İsgəndərova | **İşçi qrupun üzvü** | Elmi tibbi tədqiqatların əlaqələndirilməsi şöbəsinin müdiri | r.isgenderova@amu.edu.az |
| 44 | Sevinc Muxtarova | **İşçi qrupun üzvü** | Elmi tibbi məlumat, patent, innovasiya və qrantlar qrupunun elmi – tibbi koordinatoru | smuxtarova@amu.edu.az |
| 45 | Lamiyə Qaracayeva | **İşçi qrupun üzvü** | Kadrlar şöbəsinin müfəttişi | lqaracayeva@amu.edu.az |
| 46 | Pünhan Sultanov | **İşçi qrupun üzvü** | İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinin sistem üzrə inzibatçısı | psultanov@amu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| 47 | Nigar Rəsulova | **İşçi qrupun üzvü** | Əsaslı kitabxananın böyük redaktoru | nresulova@amu.edu.az |
| 48 | Rüfət Əzimli | **İşçi qrupun üzvü** | 120A1b, 3-cü kurs, tələbə-dekanı, Müalicə-profilaktika fakültəsi 1 üzrə | rufat.azimli@student.amu.edu.az |
| 49 | Xəlil Yusuf | **İşçi qrupun üzvü** | 218 A 3 a, 5-ci kurs, tələbə-dekanı, Müalicə-profilaktika fakültəsi 2 üzrə | yusuf.xelil@student.amu.edu.az |
| 50 | Şahverdi Mirzəyev | **İşçi qrupun üzvü** | 420A 1b, 3kurs, tələbə-dekanı, Stomatologiya fakültəsi üzrə | sahverdi.mirzayev@student.amu.edu.az |
| 51 | Aysun Rəhimova | **İşçi qrupun üzvü** | 320-F2A, 3 kurs, tələbə-dekanı, İctimai Səhiyyə Fakültəsi üzrə | aysun.rahimova@student.amu.edu.az |
| 52 | Rəhimli Nuranə | **İşçi qrupun üzvü** | 520-R1a, 3 kurs, tələbə-dekanı, Əczaçılıq Fakültəsi üzrə | nurana.rahimli@student.amu.edu.az |
| 53 | Sultanzadə Əli | **İşçi qrupun üzvü** | 618A2b, 5kurs, tələbə-dekanı, Hərbi Tibb Fakültəsi üzrə | eli.sultanzade@student.amu.edu.az |
| 54 | Küşvər Seyidova | **İşçi qrupun üzvü** | 4 kurs rezident, Üz-çənə cərrahiyəsi ixtisası üzrə | kseyidova@postgrad.amu.edu.az |
| 55 | Emil Məmmədov | **İşçi qrupun üzvü** | 2 kurs maqistratura, Səhiyyə menecmenti ixtisası üzrə | emil.mammadov@student.amu.edu.az |

**Təşkilat komissiyasının fəaliyyət qrafiki**

| № | Komissiyanın üzvü | Fəaliyyət | Fəaliyyət qrafiki |
|---|---|---|---|
| 1 | Prof. Sabir Əliyev | **Ümumi rəhbərlik** | 10.05.2023-7.08.2023 |
| 2 | Aygün Babayeva | **Hesabatın hazırlanmasında koordinasiya işləri**<br>**Keyfiyyət təminatı istiqaməti üzrə işçi qrupun rəhbəri**<br>Keyfiyyət təminatı siyasəti<br>Daxili keyfiyyət təminatı mexanizmləri<br>Keyfiyyət təminatı mədəniyyəti | 10.05.2023-7.08.2023 |
| 3 | Kəmalə Məmmədova | Keyfiyyət təminatı siyasəti<br>Daxili keyfiyyət təminatı mexanizmləri<br>Keyfiyyət təminatı mədəniyyəti | 10.05.2023-7.08.2023 |
| 4 | Dos. Məmmədova Fəxriyə | **Müvafiq sənədlərin toplanmasında koordinasiya funksiyası** | 10.05.2023-7.08.2023 |
| 5 | Dos. Orxan İsayev | **Strateji inkişaf istiqaməti**<br>Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>Strateji inkişaf proqramının icrası və monitorinqi<br>**Beynəlmiləlləşmə istiqaməti üzrə işçi qrupun rəhbəri** | 10.05.2023-7.08.2023 |
| 6 | Prof. Nazim Pənahov | Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>Strateji inkişaf proqramının icrası və monitorinqi | 10.05.2023-7.08.2023 |
| 7 | Dos. Qalina Qaniyeva | Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>Strateji inkişaf proqramının icrası və monitorinqi | 10.05.2023-7.08.2023 |
| 8 | Dos. Kamandar Yaqubov | **Təlim və tədris istiqaməti üzrə işçi qrupun rəhbəri** | 10.05.2023-7.08.2023 |

| | | | |
|---|---|---|---|
| 9 | Zəhra Mahmudova | Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması<br>Təhsil proqramları | 10.05.2023-7.08.2023 |
| 10 | Rəna Salmanova | Professor-müəllim heyəti<br>Tədrisin təşkili | 10.05.2023-7.08.2023 |
| 11 | Dos. Sevinc Məhərrəmova | Tədrisin təşkili | 10.05.2023-7.08.2023 |
| 12 | Şəfəq Cəbrayilova | Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 10.05.2023-7.08.2023 |
| 13 | Dos. Elşad Novruzov | Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 10.05.2023-7.08.2023 |
| 14 | Prof. Rizvan Məmmədov | Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 10.05.2023-7.08.2023 |
| 15 | Dos. İsrail Məhərrəmbəyli | Tələbəyönümlü tədris | 10.05.2023-7.08.2023 |
| 16 | Dos. Fərəh Mədətli | Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 10.05.2023-7.08.2023 |
| 17 | Dos. Səid Əhmədov | Tədris metodları və üsulları | 10.05.2023-7.08.2023 |
| 18 | Qoşqar İsmayılov | Təlim və tədris resursları | 10.05.2023-7.08.2023 |
| 19 | Nigar Rəsulova | Təlim və tədris resursları | 10.05.2023-7.08.2023 |
| 20 | Prof. Rauf Bəylərov | **Elmi - Tədqiqat istiqaməti üzrə işçi qrupun rəhbəri**<br>Elmi-tədqiqat strategiyası | 10.05.2023-7.08.2023 |
| 21 | Rəna İsgəndərova | Tədqiqat resursları | 10.05.2023-7.08.2023 |
| 22 | Prof. Rizvan Məmmədov | Elmi-tədqiqat fəaliyyəti | 10.05.2023-7.08.2023 |
| 23 | Sevinc Muxtarova | Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 10.05.2023-7.08.2023 |
| 24 | Dos. Zülfüqar Musabəyov | **İdarəetmə sistemi istiqaməti üzrə işçi qrupun rəhbəri** | 10.05.2023-7.08.2023 |
| 25 | T.x.polk. Çingiz Əlləzov | İdarəetmə orqanları | 10.05.2023-7.08.2023 |
| 26 | Rəfael Abduləlimov | İdarəetmə orqanları | 10.05.2023-7.08.2023 |
| 27 | Raifə Aslanova | İnsan resurslarının idarə edilməsi | 10.05.2023-7.08.2023 |

| | | | |
|---|---|---|---|
| 28 | Dos. Cahangir Qasımov | İnsan resurslarının idarə edilməsi | 10.05.2023-7.08.2023 |
| 29 | Lamiyə Qaracayeva | İnsan resurslarının idarə edilməsi | 10.05.2023-7.08.2023 |
| 30 | Ilqar Mehrabov | Maliyyə resurslarının idarə edilməsi | 10.05.2023-7.08.2023 |
| 31 | Şəfəq Cəbrayilova | Maliyyə resurslarının idarə edilməsi | 10.05.2023-7.08.2023 |
| 32 | Pünhan Sultanov | İnformasiya idarəetmə sistemi | 10.05.2023-7.08.2023 |
| 33 | Günel Aslanova | İctimaiyyətlə əlaqələr | 10.05.2023-7.08.2023 |
| 34 | Tağı Əhmədov | **İnfrastruktur istiqaməti üzrə işçi qrupun rəhbəri** | 10.05.2023-7.08.2023 |
| 35 | Elçin Əlizadə | Təhsil infrastrukturu | 10.05.2023-7.08.2023 |
| 36 | Zaur Qazıyev | Elmi-tədqiqat infrastrukturu | 10.05.2023-7.08.2023 |
| 37 | Natiq Bayramov | Beynəlmiləlləşmə siyasəti<br>Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı struktur | 10.05.2023-7.08.2023 |
| 38 | Dos. Müşfiq Orucov | Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar<br>Beynəlmiləlləşmə performansı | 10.05.2023-7.08.2023 |
| 39 | Təranə Əhmədova | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 40 | Firdovsi Məmmədov | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 41 | Səbinə Əliyeva | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 42 | Afaq Əhmədpaşayeva | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 43 | Aytən Sultanova | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 44 | Dos. Nigar Mehdiyeva | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 45 | Mahir Səfərov | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 46 | Dos. Mücahit Avcil | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 47 | Fərid Eyvazov | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 48 | Rüfət Əzimli | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 49 | Rəhimli Nuranə | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 50 | Sultanzadə Əli | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 51 | Xəlil Yusuf | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 52 | Şahverdi Mirzəyev | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 53 | Aysun Rəhimova | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |

| | | | |
|---|---|---|---|
| 54 | Küşvər Seyidova | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |
| 55 | Emil Məmmədov | Sorğuda və müzakirələrdə iştirak | 10.05.2023-7.08.2023 |

## 3. ATU-nun öncəki 2017-ci ildə aparılmış akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Son (2017-ci il) Akkreditasiya Komissiyasının yekun hesabatında göstərilən müvafiq irad və təkliflər ilə əlaqədar aşağıda qeyd edilənləri bildiririk.

**1.** ATU-da elmi-tədqiqat işlərinin səviyyəsini, maddi-texniki bazanı daha da gücləndirməyə ehtiyac var.

**-** ATU-nun son illər ərzində maddi-texniki bazası gücləndirilmişdir, elmi-tədqiqat işlərin səviyyəsi artmışdı. Bu barədə geniş məlumatlar özünətəhlil hesabatında müvafiq meyarlar hissəsində verilmişdir.

**2.** ATU-nun lisenziyası təqdim edilmədi.

**-** Dövlət təhsil müəssisələri lisenziya almaqda istisnalıq təşkil edir. Bu səbəbdən lisenziya təqdim edilməmişdir.

**3.** ATU üzrə koordinasiyanın ümumi vəziyyəti qənaətbəxş olsa da rektorat və kafedraların fonunda dekanlıqların işi zəif görünür. Dekanlar saat 2-yə qədər əsasən klinikalarda, 2-dən sonra isə administrativ korpusda olurlar. Dekanlıqların esas tələbə kontingentinin dərs keçdikləri korpuslara yerləşdirilməsi məqsədə müvafiq olardı.

**-** Dekanlıq əməkdaşlarının administrativ korpusda iş saatlarının 14.00-dan sonra olmasına baxmayaraq, onlar – Dekan, dekan müavinləri, tyutorlarlar günün 1-ci yarısında kafedralarda tələbə arasında olurlar.

**4.** Ali Təhsil pilləsinin Dövlət Standartı ilə tədris planları arasında uyğunsuzluqlar var. Məsələn, I və II Müalicə-profilaktika fakültələrinin tədris planlarında "Uşaq yoluxucu xəstəlikləri" fənninə saat ayrılıb ki, bu fənn Dövlət Standartında yoxdur. Bu uyğunsuzluqlardan bəziləri komissiyanın fəaliyyət dövründə düzəldilsə də digərlərinin düzəldilməsi üçün 2017-ci ildə qəbul olunacaq Dövlət Standartı üçün ATU-nun spesifikasına uyğun təkliflər verilməlidir.

**-** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 03.10.2014-cü il tarixli 1048 saylı əmri ilə təsdiq edilmiş “Ali Təhsil Pilləsinin Dövlət Standartı”, “Tibb Təhsilinin Əsas Təhsil İxtisası üzrə Təhsil Proqramı”nda (ixtisasın şifri və adı – 070101-Müalicə işi) “Uşaq yoluxucu xəstəlikləri” fənni İPF-B42 kodu ilə 3 kredit qeyd edilmişdir.

**5.** Tələbələrin keçdikləri fənlərin sayı çoxdur. Məsələn, müalicə işi üzrə Ali peşə ixtisas dərəcəsi alan məzunun diplomuna əlavədə 99 fənn, 99 imtahan nəticəsi göstərilmişdir və 418 kredit toplamışdır (tələbə 360 kreditlə məzun ola bilər).

**-** Hal-hazırda 2022/2023 tədris ilinin Müalicə işi ixtisasının məzunlarının diplomunun əlavəsində 92 imtahan nəticəsi və toplam 360 kredit göstərilmişdir.

**6.** ATU-nun və bəzi fakültələrin Elmi Şuralarında təhsilalanların nümayəndələri azdır və ya yoxdur.

- Hal-hazırda bütün fakültələrin Elmi Şuralarında müvafiq fakültə üzrə tələbə dekanı, YAP Gənclər Birliyinin, Tələbə Elmi Cəmiyyətinin, Tələbə Həmkarlar Təşkilatının sədrləri və daha bir neçə tələbə üzv seçilmişlər.

**7.** Təhsildə keyfiyyətə nəzarət və keyfiyyətin artırılması məqsədilə universitet və fakültə elmi-metodik şuralarının işinin gücləndirilməsi məqsədə müvafiq olardı.

- ATU-da təhsildə keyfiyyətə nəzarət və keyfiyyətin artırılması məqsədilə "İnnovasiya və keyfiyyətin idarə olunması" adlı şöbə yaradılmışdı. Yeni tədris ilindən başlayaraq Daxili keyfiyyət komissiyası fəaliyyətinə başlayır.

**8.** Bəzi kafedralarda professor-müəllim heyətinə dərs yükünün normativdən az verilməsi halları var ki, bu ciddi maliyyə pozuntusudur (tam ştata 500 saatdan az yük verilmir).

- Hal-hazırda ATU-da professor-müəllim heyətində tam ştat vahidində çalışanlara 530 saat dərs yükü verilir.

**9.** Bütün ixtisaslarda tədris planlarından kənara çıxmalar var. Seçmə fənlər blokundan bir fənn tələbələrə kafedraların və ya dekanlığın məsləhəti ilə məcburi keçirilir. Universitet üzrə müəllim, akademik məsləhətçi seçimi anlayışı yoxdur.

- Seçmə fənlər blokundan olan fənlər tələbələrin seçimlərinə uyğun tədris olunur.

**10.** Tədris bir növbədə aparıldığı üçün akademik borcu olan tələbələr alt qruplardan fənn götürə bilmirlər. Onlar ancaq yay semestrinə gedə bilərlər ki, bu da ödənişlidir.

- ATU-nun spesifikasına uyğun olaraq tədris yalnız bir növbədə aparılır, borcu olan tələbələr alt qruplardan fənləri götürərkən cədvələ uyğunlaşırlar.

**11.** Bəzi praktikalar tələbələrin tətil dövründə keçirilir ki, bu da mövcud əsasnamələrin pozulması deməkdir.

- Hal-hazırda ATU-da bütün ixtisaslar üzrə tələbələrin istehsalat təcrübələri tətil dövründə deyil, payız və yaz semestrləri ərzində müvafiq müəssisələrdə aparılır.

**12.** Təhsil Nazirliyindən qrif alınmış fənn proqramlarının təzələnməsinə ehtiyac var (əksər proqramlar 2005-ci ildə işlənilib).

- 2020-ci il Təhsil Proqramının yenilənməsi ilə əlaqəli olaraq fənn proqramlarının təzələnməsi davam etməkdədir.

**13.** Tədris prosesində və tələbələrin sərbəst işləri zamanı təhsilalanlara xarici ədəbiyyatlarla işləmək tövsiyyə olunmalıdır.

- Tədris prosesində və tələbələrin sərbəst işləri zamanı təhsilalanlar müxtəlif, o cümlədə xarici ədəbiyyatlardan işləyirlər.

**14.** Dərsliklərə rəy verilərkən həcmi nəzərə alışın (1000 səhifəlik dərslik var).

- Dərsliklərə rəy verilərkən müəlliflərə müraciət olunub bildirilmişdir ki, dərsliklər fənn proqramına uyğun olaraq tərtib edilməli və səhifə sayına fikir verilməlidir.

**15.** Sillabusların vahid formada yenidən işlənməsinə ehtiyac var.

- ATU-da bütün kafedralarda bütün ixtisaslar üzrə sillabuslar vahid formada işlənir.

**16.** Bəzi kafedralarda qrup jurnalı, qrup nümayəndəsinin jurnalı, müəllimin jurnalı var. Bu jurnallarda tələbəyə verilən balların fərqli olması hallarına təsadüf edilir. Elektron jurnala keçilməsi zərurəti yaranmışdır.

- Hal-hazırda ATU-da bütün kafedralar üzrə elektron jurnal, müəllimin və qrup nümayəndəsinin jurnalı mövcuddur. Bu jurnallarda tələbənin dərs buraxması barəsində edilən qeydlərin və verilən qiymətlərin bərabər olmasına nəzarət edilir.

**17.** Bəzi kafedralar bir-birini təkrarlayır, məsələn daxili xəstəliklər I, II, III, terapevtik və pediatrik propedevtika.

**-** Hal-hazırda ATU-nun Terapevtik və Pediatrik Propedevtika kafedrası fəaliyyətini dayandırmışdı.

**18.** Kafedraların illik elmi-tədqiqat və tədris hesabatlarında hər bir müəllimin elmi və tədris fəaliyyətini ayrıqda əks etdirən məlumat olmalıdır. Elmi tədqiqat işlərinin planlaşdırılmasında elmi rəhbərdən savayı işin məsul icraçısı və digər iştirakçılarının müvafiq vəzifə bölgüsü qeyd olunmalıdır. Kafedraların illik elmi-tədqiqat və tədris hesabatlarında hər bir müəllimin elmi fəaliyyətini əks etdirən məlumat zəifdir.

**-** Kafedraların illik elmi-tədqiqat və tədris hesabatlarında hər bir müəllimin elmi və tədris fəaliyyətini əks etdirən məlumatlar qeyd olunur.

**19.** Kafedralarda aparılan elmi-tədqiqat işləri Respublikada dövlət əhəmiyyətli prioritet istiqaməti olmasına baxmayaraq, "Web of Sciences" indekslındirilmiş jurnallarda məqalələrin sayı azdır.

**-** Son illər ərzində ATU-da aparılan elmi-tədqiqat işlərinin “Web of science” indeksləşdirilmiş jurnallarda əks etdirən məqalələrin sayı artmaqdadır.

**20.** Respublikanın tibb və səhiyyə sahəsində mütəxəssislər hazırlayan ali təhsil ocağının internet saytında kafedra və dekanlıqların gündəlik fəaliyyətini əks etdirən informasiyalar zəifdir.

**-** ATU-ni haqqında yenilikləri, dekanlıq və kafedraların fəaliyyətini, əcnəbi vətəndaşların ATU-ya qəbulu haqqında məlumatları, universitet ilə əlaqəli xəbərləri və müxtəlif gündəlik informasiyaları ATU-nun rəsmi internet saytında www.amu.edu.az azərbaycan, ingilis və rus dillərində izləmək olar.

**21.** Tədris prosesinin normal gedişini təmin etmək üçün informasiya-kommunikasiya texnologiyaları (IKT) vasitələrindən səmərəli istifadə etmək, auditoriya və laboratoriyaları kompüter texnikası ilə təmin etmək, ixtisas fənlərinin tədrisini müasir tələblər səviyyəsinə yüksəltmək, tədris prosesinin yeni formalarının tətbiqini təmin etmək, İKT vasitələri və kompüter otaqlarının daha müasir texniki avadanlıqlarla təmin edilməsi istiqamətində işlər gücləndirilməlidir.

**-** Hal-hazırda ATU-da informasiya kommunikasiya texnologiyaları (İKT) vasitələrindən səmərəli istifadə edilir, auditoriya və laboratoriyalar kompyuter texnikası ilə təmin edilir və daha müasir texniki avadanlıqlarla təmin edilmə istiqamətində işlər aparılır.

**22.** Auditoriya fondunun azlığı tələbələrin sərbəst işlərinin yerinə yetirilməsində çətinliklər törədir. 8 tələbə tutan auditoriyada 15 bakalavrın dərs keçməsi, yaxud 20-25 kv.m.-lik auditoriyada kafedranın iki əməkdaşının 2 və ya 3 qrupa eyni zamanda dərs keçməsi halı vardır.

**-** ATU-da auditoriya fondu nəzərə alınmaqdadır, son tədris illər qrupların formalaşmasında tələbə sayı ciddi nəzərə alınır və 11-12 tələbədən çox olmur.

**23.** Bəzi kafedraların adları ilə keçilən fənlər arasında uyğunsuzluq var. Məsələn, Nevrologiya və tibbi genetika, Klinik farmakologiya.

- Kafedraların adları ilə keçirilən fənlərin adları uyğundur.

**24.** Dərs yükünün bölgüsü zamanı vakant dərs yükünün saxlanılmasına yol verilir. Məsələn, dəri-zöhrəvi xəstəliklər kafedrasında 763 saat vakansiya.

- Dərs yükünün bölgüsü nizamlanmışdır.

**25.** İmtahanların test üsulu ilə keçirilməsinə baxmayaraq müəllimlərə imtahan götürülməsi üçün dərs yükü ayrılır. Bu maliyyə pozuntusudur.

- ATU-da Yekün İmtahanlar və Aralıq qiymətləndirmə imtahan mərkəzində test üsulu ilə keçir.

**26.** Laboratoriyalarda aparılan elmi-tədqiqat işləri vasitəsilə universitetə əlavə vəsaitin cəlb edilməsi istiqamətində işlər gücləndirilməlidir.

- Laboratoriyalarda aparılan elmi-tədqiqat işləri vasitəsilə universitetə əlavə vəsaitin cəlb edilməsi istiqamətində işlər aparılır.

**27.** Elm sektorunun kifayət qədər maliyyələşməməsi səbəbindən təhsil haqqı vasitəsilə formalaşan xüsusi vəsaitin müəyyən bir hissəsinin bu sektora yönəldilməsi (məvacib, laboratoriya avadanlıqlarının alınması) universitetin tədrisə cəlb olunan maliyyə imkanlarını zəiflədir. Məsələn, professor-müəllim heyətinin elmi, tədris-metodiki ezamiyyətlərə göndərilməsi üçün ciddi vəsait ayırmaq olmur.

- ATU-da xarici ölkələrin universitetlərilə bağlanmış memorandumlar əsasında professor-müəllim heyyətinin akademik mobilliyi, ATU hesabına ödənişli ezamiyyətlərinin sayı artmaqdadır.

**28.** Kafedra ve ETL-də elmi-tədqiqat işlərinin və tədrisin təşkili üçün cihaz və avadanlıqlarla, reaktivlərlə təminatın yaxşılaşdırılmasına ehtiyac var.

- Kafedra və ETL-də tədqiqat işlərinin və tədrisin təşkili üçün cihaz və avadanlıqların yenilənməsinə diqqət yetirilir və tədricən yenilənir.

**29.** Professor-müəllim heyətinin cavanlaşdırılması istiqamətində ciddi tədbirlər görülməlidir.

- Son illər ərzində professor-müəllim heyyətinin cavanlaşdırılması istiqamətində tədbirlər görülür.

**30.** Universitetin professor-müəllim heyətinin xaricdə və ölkə daxilində ixtisaslarının artırılması istiqamətində iş görülməlidir.

- Professor-müəllim heyyətinin ixtisaslarının artırılması istiqamətində müxtəlif tədbirlər, kurslar, təlimlər və s. təşkil olunur.

**31.** Tələbələrin müəllimin rəhbərliyi ilə auditoriyadan kənar sərbəst işləri semestrin axırında və dərs vaxtı qəbul edilir. Rektorluğun tələbələrlə keçirdiyi müşavirədə də tələbələr bu haqda narahatlıqlarını bildirdilər.

- ATU-da sərbəst işlər qiymətləndirməyə daxil olduğundan, nəzəri fənlərdə layihə (təqdimat) formasında, klinik fənlərdə isə bacarıq formasında keçirildiyi üçün ayrılmış auditoriya saatları ərzində aparılır.

**32.** Idman zalının və basseynin təmirə ehtiyacı var.

- İdman zallarının bir qismi təmin olunub, basseynin təmiri üçün hazırlıqlar gedir.

**33.** ATU-da tərtib edilən sənədlərin bəziləri Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət idarə, müəssisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimata" uyğun tərtib edilməmişdir.

- Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş «Dövlət idarə, müəssisə və təşkilatlarında karğuzarlığın aparılmasına dair təlimat»ına əsasən Universitet üzrə karğuzarlıq işinin aparılmasına dair təlimat qəbul olunmuşdur. Həmin təlimatın universitetdə tətbiqi ilə əlaqədar sənədləşmə işinin aparılması

üzrə məsul şəxslərlə iki etaplı təlimlər keçirilmişdir. Hal-hazırda ATU-da bütün sənədlər qeyd olunan təlimata əsasən tərtib edilir.

## II. Təhsil müəssisəsinin özünütəhlili
## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

ATU-nun Özünətəhlil Hesabatı Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-176 nömrəli 28.10.2022 tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili Elmi Şuranın 2 may 2023-ci il tarixli qərarı ilə qəbul olunmuş və ATU-un rektorunun 10 may 2023-cü il tarixli 550/T nömrəli əmri ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

### 1. STRATEJİ İNKİŞAF

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

Sürətlə dəyişən səhiyyə və tibb təhsili mühitində əsasəndə COVİD-19 pandemiyasından sonra, ATU yeni tədris və müalicə üsullarını nəzərə alaraq yeni inkişaf strategiyasını və fəaliyyat planını tərtib etdi. Bununla bərabər missiyasını və baxışını yenilədi.

Baxışını, missiyasını, inkişaf strategiyasını və fəaliyyət planını yeniləmək üçün universitetin idarəedici heyətinə, struktur bölmə rəhbərlərinə və onların əməkdaşlarına 10 həftəlik “Effektiv Strateji planlaşdırma və proqram qiymətləndirilməsi“ adlı təlim keçirilmişdir. Təlim ATU-da ABŞ-ın Azərbaycan Respublikasında səlahiyyətli səfirliyi tərəfindən həyata keçirilən English Language Fellow proqramı üzrə fəaliyyət göstərən Tiffany Tillman tərəfindən aparılmışdır.

ATU-da 2015-2020 illər üçün Strateji inkişaf planı və Fəaliyyət planı mövcud idi. COVID-19 pandemiyası ilə bağlı tibbdə və tibb təhsilində yenilikləri nəzərə alaraq, ATU-nun rəhbərliyi tərəfindən yeni inkişaf strategiyası və ona uyğun fəaliyyət planının hazırlanması məqsədəuyğun sayılmışdır. ATU-nun Elmi Şurasının 25 may 2023-cü il tarixli qərarı ilə qəbul olunmuş və ATU-un rektorunun 3 iyul 2023-cü il tarixli əmri ilə Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün inkişaf strategiyası (uzunmüddətli) və Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün inkişaf strategiyası üzrə fəaliyyət planı (ortamüddətli) təsdiq olunmuşdur.

Inkişaf strategiyası “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamına, Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə dövlət proqramına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Səhiyyə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

aktlarına, BMT-nin "Dünyamızı dəyişdirmək: Dayanaqlı İnkişaf üçün 2030 Gündəliyi"-nə əsaslanaraq hazırlanmışdır.
ATU-nun yeni missiyası bütün etik normalara cavab verən, dünya standartlarına uyğun tibbi təhsil vermək, innovativ tədqiqatlar aparmaq və insanların rifahını yüksəltmək və Azərbaycanda səhiyyənin inkişafını təşviq etmək üçün yüksək keyfiyyətli səhiyyə xidmətləri göstərməkdir. Baxış isə təhsil, tədqiqat və səhiyyə sahəsində mükəmməlliyə görə tanınan və cəmiyyətin rifahına töhfə verən səriştəli səhiyyə işçiləri yetişdirdiyi üçün regionda aparıcı tibb universiteti olmağı özündə əks etdirir.
18 may 2023 il tarixində "Sözdən əmələ. Maraqlı tərəflərlə qarşılıqlı əlaqə" adlı görüşdə Azərbaycanda tibb sahəsində fəaliyyət göstərən əksər elmi-tədqiqat institutları və müəssisələr, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Təhsilin İnkişaf Fondu, dövlət və özəl xəstəxanaların, iri klinikalar və tibb xidmətləri sferasındakı bir sıra qurumların rəhbərləri iştirakı ilə aparılan müzakirələr əsasında təklif olunmuş missiya və baxışın ölkənin əmək bazarına, cəmiyyətin gözləntilərinə və iqtisadıyatın inkişafına uyğun olduğu müəyyənləmişdir. Həmin görüşün əsasında inkişaf strategiyasının prioritet istiqamətləri müəyyənləşmişdir.
Strateji prioritetlər:

- Strateji prioritet: Təhsil - Tibbi təhsilin keyfiyyətinin və əhəmiyyətinin artırılması.
- Strateji prioritet: Elm – Elmi tədqiqatların təkmilləşdirilməsi və innovasiyaların stimullaşdırılması.
- Strateji prioritet: Tərəfdaşlıq - Strateji tərəfdaşlıq və əməkdaşlıqların qurulması.
- Strateji prioritet: İnfrastruktur - Müasir infrastrukturun və texnoloji imkanların hazırlanması.
- Strateji prioritet: Dünya reytinqləri – Dünya reytinqlərində yer tutaraq universitetinin tanınma siyasətini həyata keçirmək
- Strateji prioritet: Cəmiyyətə töhfə vermək - Səhiyyə sahəsində təşəbbüslər vasitəsilə ictimaiyyətə əhəmiyyətli töhfə vermək.

Əvvəlki strateji inkişaf proqramlarında və fəaliyyət planlarında əsas effektivlik göstəriciləri (ƏEG) və müəyyənedici strateji amillər tərtib olunmamışdır. Bu boşluğu doldurmaq üçün yeni inskişaf strategiyasında və fəalliyyət planında hər bir prioritet istiqamətlər üzrə məqsədlərlə yanaşı ƏEG-də öz əksini tapmışdır. Müəyyənedici strateji amillər iki məqsədə bölünübdür: "Azərbaycan Tibb Universitetində əməkdaşların inkişafının təmin edilməsi və onların dəstəklənməsi" və "Azərbaycan Tibb Universitetində maliyyə dayanıqlığının təmin edilməsi".
Maraqlı tərəflərlə (tələbə, professor-müəllim və inzibati heyət, işəgötürənlər, pasientlər) aparılan müsahibələr əsasında tərtib olunmuş SWOT-təhlil (GZİT-təhlil) missiyanı, baxışı, strateji prioritetləri, məqsədləri və ƏEG müəyyən etməyə kömək oldu. GZİT-təhlili ATU-nun inkişaf strategiyasından əlavə mövcud 4 klinikanın ATU-nun strateji planına əsaslanaraq öz SİP və fəaliyyət planını tərtib etməli olduğunu ortaya çıxartdı. Bu zəif tərəflər olan icbari tibbi sığortanın olmaması problemlərini həlletməyə bünövrə qoyacaqdır.

İnkişaf strategiyasında qeyd olunmuş əsas fəaliyyət istiqamətlərinin icrasına dair fəaliyyətlərə cavabdeh struktur bölmələr müəyyənləşmişdir.
GZİT-təhlilin əsasında hər seçilmiş istiqamət üzrə məqsədlər və ƏEG:

**Strateji prioritet: Təhsil**
a. Kurrikulumun təkmilləşdirilməsi: Beynəlxalq standartlara uyğunluğunun, habelə, yeni tendensiyalara və texnologiyalara uyğun olmasının təmin edilməsi üçün kurrikulumun müntəzəm olaraq nəzərdən keçirilməsi və yenilənməsi. Tələbə yönümlü tədris prosesini, tənqidi düşüncəni və problemlərin həll edilməsi sahəsində bacarıqları təşviq edən mühitin yaradılması.
b. Professor-müəllim heyətinin inkişafı: Tədris metodologiyalarının təkmilləşdirilməsi, habelə, fasiləsiz tədris mədəniyyətinin təmin edilməsi üçün professor-müəllim heyətinə təlim və inkişaf proqramlarına yatırımların edilməsi. İşə qəbul və peşə inkişafı təşəbbüslərinin köməyi ilə beynəlxalq səviyyədə tanınmış müəllimlərin sayının artırılması.
c. Təhsilalanlara dəstək: Hərtərəfli dəstək xidmətlərinin göstərilməsi, o cümlədən, mentorluq proqramlarının həyata keçirilməsi, konsultasiya xidmətlərinin göstərilməsi, habelə, təhsilalanların uğur qazanmasının, rifahının və karyera inkişafının təşviqi məqsədilə fakültativ fəaliyyətin göstərilməsi.

**Əsas effektivlik göstəriciləri (ƏEG)**
- Təhsilalanların sayı: Bir tədris ilini başa çatdıraraq, digər tədris ilinə kəsirsiz keçib, təhsilini davam etdirən təhsilalanların sayının faizlə müəyyən edilməsi.
- Məzun olduqdan sonra 5 il ərzində təhsilini davam etdirmək istəyən məzunların faizinə nəzarət
- Məzunların sayı (faizlə)
- Təhsilalanların məmnuniyyət dərəcəsi (anket sorğuları)
- Məzunların müvafiq səhiyyə sahəsində işə qəbul olmasının faiz göstəricisi
- Proqramların akkreditasiyası və tanınması
- Müəllimlərin inkişafı üzrə təşəbbüslər

**Strateji prioritet: Elm**
a. Tədqiqat infrastrukturu: Tibb elmləri üzrə tədqiqatların təkmilləşdirilməsi üçün müasir tədqiqat cihazlarının və laboratoriyalarının qurulması.
b. Əməkdaşlıqlar: Fənlərarası tədqiqatların və bilik mübadiləsinin təşviqi üçün yerli və beynəlxalq tədqiqat institutları, universitetlər və sahə tərəfdaşları ilə əməkdaşlıqların təmin edilməsi.
c. Müavinətlər və maliyyələşdirmə: İnnovativ tədqiqat layihələrinin dəstəklənməsi və elmi nailiyyətlərin təşviq edilməsi üçün müəllimlərin tədqiqat müavinətlərindən və maliyyələşdirmə imkanlarından aktiv şəkildə istifadə olunmasının təşviq edilməsi.
d. Tədqiqatların yayılması: ATU-nun tədqiqat sahəsinə etdiyi töhfələri nümayiş etdirmək və tanınma dərəcəsini artırmaq üçün konfranslarda tədqiqat nəşrlərinin, təqdimatlarının və elmi forumlarda iştirakın təşviq edilməsi.

e. "Tədqiqat universiteti" statusunun alınması: İnnovasiya mədəniyyətinin təmin edilməsi, yenilikçi elmi tədqiqatların köməyi ilə biliklərin artırılması, habelə, müstəsna bacarıqlara malik müəllimlərin, tədqiqatçıların və təhsilalanların cəlb edilməsi və əldə saxlanması yolu ilə ATU-nun tanınmış tədqiqat universitetinə çevrilməsi.

**ƏEG**

- Nüfuzlu jurnallarda tədqiqat nəşrlərinin sayı (Q1-Q4)
- Nəşrin əhəmiyyət amilləri
- Müəllifin əhəmiyyət amilləri
- Maliyyələşdirilmiş tədqiqatlar və verilmiş müavinətlər
- Qeydiyyata alınmış və gəlir gətirən patentlərin sayı
- Başlanmış birgə beynəlxalq və yerli tədqiqat layihələri
- Əqli mülkiyyət portfelinin artması
- İki maqistr proqramının beynəlxalq akkreditasiyası

**Strateji prioritet: Tərəfdaşlıq**

a. Təhsilalan və müəllim mübadilə proqramları: Təhsilalan və professor-müəllim heyətinin mübadiləsinin asanlaşdırılması üçün tanınmış beynəlxalq və ölkədaxili müəssisələrlə tərəfdaşlıqların qurulması, bununla da müxtəlif səhiyyə sistemləri ilə tanışlıq imkanlarının təmin edilməsi və beynəlxalq perspektivlərin təşviqi.

b. Əcnəbi təhsilalanlar qəbulu: əcnəbi təhsilalanların cəlb edilməsi məqsədilə ATU-nun xaricdə marketinqinin həyata keçirilməsi.

c. Birgə tədqiqat layihələri: Bilik mübadiləsini, elmi nailiyyətləri və mədəniyyətlərarası tədrisin stimullaşdırılması məqsədilə beynəlxalq müəssisələrlə birgə tədqiqat layihələrinin təşviqi.

d. Beynəlxalq səviyyədə tanınma: Beynəlxalq səviyyəli işçilərin cəlb olunması, beynəlxalq əməkdaşlıqların həyata keçirilməsi və maliyyələşdirmə imkanlarından istifadə edilməsi məqsədilə ATU-nun tədris proqramlarının, tədqiqat nəticələrinin və səhiyyə xidmətlərinin beynəlxalq akkreditasiyası və tanınması. Birgə ali təhsil proqramlarının və ikili diplom imkanlarının təmin edilməsi.

**ƏEG**

- Rəsmi olaraq qurulmuş aktiv beynəlxalq əməkdaşlıqların sayı
- Təhsilalan və professor-müəllim heyətinin mübadilə proqramlarında iştirak sayı
- Beş fakültədə əcnəbi təhsilalanların sayı və dəyişən dinamikaya nəzarət
- Beynəlxalq və yerli tərəfdaşlarla birgə tədqiqat nəşrləri və layihələri
- Beynəlxalq konfrans və tədbirlərdə iştirak (özhesabına olmayan)
- Bilik və texnologiya transferi haqqında razılaşmalar
- İkili diplom sayı
- Ölkədaxili təhsilalanların mobillik sayı

**Strateji prioritet: İnfrastruktur**

a. Tələbə şəhərciklərinin təkmilləşdirilməsi: Universitetin infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsi, o cümlədən, tədris obyektlərinin, tədqiqat mərkəzlərinin kitabxanaların və yataqxanaların müasirləşdirmə və təkmilləşdirilməsi.
b. Resursların paylanması: ATU-nun strateji məqsədlərinə uyğun olan müasir avadanlıqlara, texnologiyalara və təhsil resurslarına investisiyalar üzrə prioritetlərin müəyyən edilməsi yolu ilə resursların daha optimal şəkildə paylanması. İnzibati proseslərin modernləşdirilməsi və verilənlərin təhlükəsizliyinin təkmilləşdirilməsi üçün informasiyanın idarə olunması üzrə etibarlı sistemin tərtib edilməsi.
c. Dayanıqlı inkişaf təcrübələri: Universitetdə ekoloji cəhətdən dayanıqlı inkişaf təcrübələrinin təşviqi. Məsələn, enerjiyə qənaət, tullantıların idarə olunması və ekologiyanın təmizlənməsi ilə bağlı təşəbbüslər.

**ƏEG**

- Başa çatdırılmış infrastruktur yeniliklərinin faiz göstəricisi
- Dərs otaqlarında, laboratoriyalarda və səhiyyə obyektlərində yeni texnologiya və avadanlıqların tətbiqi
- Tətbiq edilmiş İT sisteminin və təhlükəsizlik tədbirlərinin etibarlılığı
- Təhsilalanlardan və müəllimlərdən infrastruktur və texnologiyalarla bağlı əks-əlaqə
- Rəqəmsal tədris resursları və platformaları
- Əlçatanlıq və hərtərəflilik tədbirləri

**Strateji prioritet: Dünya reytinqləri**

a. Britaniyanın Quacquarelli Symonds (QS) konsaltinq şirkəti tərəfindən dünyanın ən yaxşı universitetlərinin reytinqində (QS World University Rankings) yerin tutulması: Universitetin beynəlxalq aləmdəki nüfuzunu vurğulamaq, həmçinin universitetin əsas fəaliyyət istiqamətləri: təhsil, elm və beynəlxalq fəaliyyətləri haqqında məlumatlandırmaq.
b. Britaniyanın Times Higher Education nəşrinə görə dünyanın ən yaxşı universitetlərinin reytinqində (THEWorld University Rankings) yerin tutulması: Universitetin beynəlxalq aləmdəki nüfuzunu vurğulamaq, həmçinin universitetin əsas fəaliyyət istiqamətləri: təhsil, elm və beynəlxalq fəaliyyətləri haqqında məlumatlandırmaq.
c. Çinin Şanxay Jiao Tonq Universitetinə görə Dünya Universitetlərinin Akademik Reytinqində (The Academic Ranking of World Universities - ARWU) yerin tutulması: Universitetin əsas fəaliyyət istiqamətləri: təhsil, elm və tədqiqat fəaliyyətləri üzrə beynəlxalq aləmdəki nüfuzunu vurğulamaq.

**ƏEG:**

- QS-da 2025-ci illə kimi yer tutmaq
- THE 2026-cı illə kimi yer tutmaq
- ARWU-da 2026-cı ilə kimi yer tutmaq

**Strateji prioritet: Cəmiyyətə töhfə vermək**

a. Cəmiyyətlə əlaqənin təşviqi: İctimaiyyətin səhiyyə ehtiyaclarının aradan qaldırılması məqsədilə səhiyyə təşkilatları, QHT və dövlət orqanları ilə tərəfdaşlıqların qurulması. Tibbi xidmətlərin kifayət qədər təmin edilmədiyi ərazilərdə mobil hospitalların və tibbi müayinələrin təşkili.
b. İctimai səhiyyənin təşviqi: Profilaktik tibbi tədbirlər və müəyyən regionlarda daha çox rast gəlinən xəstəliklər haqqında məlumatlılıq dərəcəsinin artırılması üçün maarifləndirmə proqramlarının tərtib edilməsi.
c. Təhsilalanların cəlb edilməsi: Sosial məsuliyyət hissinin formalaşdırılması üçün təhsilalanların (bakalavr, magistr tələbələrinin və rezidentlərin) cəmiyyətdəki xidmət təşəbbüslərində iştirak etməsi
d. Yaşıllıq zonasının genişləndirilməsi: Tələbə şəhərciklərində yaşıllıq zonalarının, məsələn, bağların və parkların genişləndirilməsi prosesinin izlənməsi.

**ƏEG:**

- Cəmiyyətin maarifləndirilməsi proqramları və iqtisadi baxımdan aktiv əhalinin payı
- İctimai səhiyyə üzrə tədbirlər və onların sayı
- Tibbi xidmətlərlə kifayət qədər təmin olunmayan əhali qruplarına səhiyyə xidmətləri
- Yerli səhiyyə təşkilatları ilə əməkdaşlıqlar (ayrı-ayrı layihələrdə iştirakı və onların sayı)
- Cəmiyyətdəki maraqlı tərəflərlə əks-əlaqə
- Yaşıllıqla örtülü tələbə şəhərciyinin faiz göstəricisinin müəyyən edilməsi

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

1.2. *Strateji inkişaf proqramının icrası və monitorinqi*

ATU-nun son beş ildə strateji inkişaf planının icrasına nəzərətin səmərəli olmadığını, bir struktur bölmə və ya şura tərəfindən monitoriq aparılmadığını nəzərə alaraq, problemin həll yolu olaraq ATU-un rektorunun 2023-cü il tarixli əmri ilə Strateji İnkişaf Şurası yaradılmışdır. Rektor Şuranın sədri, Şuranın sədr müavini Beynəlxalq əlaqələr üzrə prorektor, katib İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri təyin edilmişdir. Üzvlər prorektorlar və struktur bölmə rəhbərləridir. Şura fəaliyyətini inkişaf strategiyasını və fəaliyyət planını tərtib etməklə başlamışdı. Şuranın birinci iclası (10 may 2023-cü il tarixli protokol N1) və İkinci iclası (12 iyun 2023-cü il tarixli protokol N2) keçirilmişdir. Strateji İnkişaf Şurası hər iki aydan bir toplanıb Strateji inkişaf planınında göstərilən hədəf və məqsədləri yerinə yetirilməsi haqqında hesabatları dinləyir. Hansısa hədəf və məqsəd yerinə yetirilmədikdə Şurada baxılıb həlli yollarının verilməsinə dair təklifləri müzakirə edir. Şurada qərara alınmışdır ki, hər il özünətəhlil hesabatı aparılmalıdır, bu hesabatın tərkibində inkişaf strategiyasında qoyulmuş hədəflərin həyata keçirilməsi öz əksini tapmalı və ATU-nun rəsmi saytında "Özünütəhlil hesabatları və nəşrlər" bölümünə yerləşdirilməlidir. Bununlada görülmüş işlər maraqlı tərəflərə və ictimaiyyətə çatdırılmış olacaq.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 2. KEYFİYYƏT TƏMİNATI

*2.1. Keyfiyyət təminatı siyasəti*

**Missiya və keyfiyyət siyasəti**

*Missiya* ATU-nun təhsil, elmi və klinik fəaliyyət sahəsində məqsədini təsvir edir.

*Keyfiyyət təminatı siyasəti* - rəhbərlik tərəfindən rəsmi şəkildə formalaşdırılan və universitetin öz missiyasını yerinə yetirmək üçün tətbiq olunan əsas fəaliyyət istiqamətləridir. Keyfiyyət təminatı siyasəti, keyfiyyət məqsədlərini təyin etmək üçün əsasdır.

Missiya və keyfiyyət təminatı siyasəti ayrıca təsdiq edilmiş sənəddir və universitetin internet saytında təhsilin keyfiyyətini əks etdirən müvafiq bölmədə yerləşdirilir. Keyfiyyət təminatı siyasətini bilmək və həyata keçirmək bütün universitet işçiləri üçün məcburidir.

ATU-da əmək bazarında rəqabətqabiliyyətli və mobil məzunun formalaşmasına töhfə verən keyfiyyət idarəetmə sistemi tətbiq edilib. ATU-nun keyfiyyətin idarə edilməsi sistemi (KİS) keyfiyyət siyasətinin həyata keçirilməsi, keyfiyyət sahəsində qarşıya qoyulan məqsədlərə nail olunması və universitet tərəfindən göstərilən xidmətlərin istehlakçıların (sifariş edənlərin) tələblərinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunu təmin etmək vasitəsidir.

Keyfiyyət üzrə təlimatda təsvir olunan KİS-in fəaliyyəti ali təhsil və ali təhsildən sonrakı təhsil, tibbi xidmətlər, infrastruktur, beynəlxalq fəaliyyət, tibb sahəsində fundamental və tətbiqi elmi tədqiqatlar sahəsində təhsil fəaliyyətinə şamil edilir. Keyfiyyət idarəetmə sisteminin dəstəklənməsi strateji idarəetmə məsələlərinə aiddir. KİS-nin işi bilavasitə onun mövcud olduğu mühitin dəyişməsindən asılıdır. Daxili mühit həmişə təşkilatın işinə birbaşa təsir göstərir və onun hüdudları daxilində olan elementləri ehtiva edir.

**Daxili amillərə aşağıdakılar aiddir:**

Nəzarət sistemi;

Vəhdət "Üçlüyün" inkişafı (Elm, Təhsil və Klinikalar);

Universitet klinikaları şəraitində mütəxəssislərin hazırlanması;

Korporativ mədəniyyət;

Maddi və maliyyə resursları və s.

**Xarici amillər**:

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər "Azərbaycan - 2026" Strategiyası;

Rəqiblərin məhsul və xidmətləri və s.

ATU xidmətlərinin əsas istehlakçıları aşağıdakılardır: daxili – alı və diplomdan sonrakı təhsil proqramları üzrə təhsil alan tələbələr, rezidentlər, magistrantlar və doktorantlar; xarici - müvafiq təhsil proqramları üzrə universitetə daxil olan abituriyentlər; tədris prosesinin nəticələrinin istehlakçıları (universitet məzunlarını işə götürənlər), elmi-tədqiqat işlərinin sifarişçiləri (ETİ) və dövlət.

| |
|---|
| Universitet istehlakçıların və maraqlı tərəflərin bütün kateqoriyalarının ehtiyac və gözləntilərini müəyyən etmək, təhsil və elmi prosesləri planlaşdırarkən ehtiyacları nəzərə almaq, təhsil, tərbiyə və elmi-tədqiqat prosesində qanuni tələbləri yerinə yetirmək üçün müvafiq tədbirlər görür.<br>Azərbaycan Respublikasının normativ hüquqi aktlarına müvafiq və ali təhsilin dövlət standartlarının tələblərinə uyğun olaraq, göstərilən təhsil xidmətlərinin lazımi keyfiyyətdə olmasını və elmi-tədqiqat işlərinin həyata keçirilməsini, habelə müştərilərin (istehlakçıların) tələblərinə uyğun olaraq tibbi xidmətlərin göstərilməsini təmin etmək məqsədilə ATU-nun rəhbərliyi tərəfindən daimi nəzarətdə olan KİS-in əsas və dəstəkləyici prosesləri və fəaliyyət növləri müəyyən edilmişdir.<br>Keyfiyyət təminatı siyasəti “ATU-nun KİS proseslərinin spesifikasiyası”nda verilmiş proseslər üçün keyfiyyət məqsədlərinin müəyyən edilməsi üçün əsasdır**.**<br>Keyfiyyət təminatı sahəsində qarşıya qoyulan məqsədlərə nail olmağın qiymətləndirilməsi bir il (və ya digər dövr) üçün müəyyən edilmiş göstəricilərin (meyarların) hesablanması və onların etalon (planlaşdırılmış) qiymətlərlə müqayisəsi, və ya daxili KİS auditi çərçivəsində həyata keçirilən universitetin müvafiq struktur bölmələrinin planlarının icra dərəcəsinin təhlili əsasında aparılır.<br>ATU-nun rəhbərliyi KİS-in məqsədlərinə nail olmaq üçün lazımi resursları müəyyən etmək və planlaşdırmaq istiqamətində müvafiq tədbirlər görür.<br>KİS planlaşdırmasına aşağıdakılar daxildir:<br>- KİS-nin yaradılması, həyata keçirilməsi və təkmilləşdirilməsi üzrə planların işlənib hazırlanması;<br>- keyfiyyət sahəsində məqsədlərin qoyulması, onların müddəti və məsul şəxslərinin təyini, yerinə yetirilməsinə nəzarətin təşkili;<br>- göstərilən təhsil xidmətlərinin (elmi-tədqiqat işləri, klinik xidmətlər, tədris işləri) tələb olunan keyfiyyətini və təhsil sahəsində qarşıya qoyulmuş strateji məqsədlərə nail olmağı (həyata keçirməsini) təmin etmək üçün zəruri resursların (maliyyə, avadanlıq, kadrların inkişafı) müəyyən edilməsi və ayrılması. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

2.2. *Daxili keyfiyyət təminatı mexanizmləri*

| |
|---|
| Azərbaycan Tibb Universitetində ATU-nun KİS prosesləri (təhsil fəaliyyəti; tərbiyəvi iş; müalicə və diaqnostika fəaliyyəti; professor-müəllim heyətinin və tibb işçilərinin təkmilləşdirməsi; elmi-tədqiqat fəaliyyəti; maddi-texniki təminat; kadr təminatı; informasiya təminatı) üçün spesifikasiya, habelə keyfiyyətin qiymətləndirilməsi üçün (təhsil fəaliyyəti; tərbiyəvi iş; müalicə və diaqnostika fəaliyyəti) meyarlar və metodlar hazırlanıb (təhsil fəaliyyəti; təhsil fəaliyyəti; müalicə və diaqnostik fəaliyyət).<br>Sənədləşdirilmiş keyfiyyət prosedurları: korreksiyaedici fəaliyyətin idarə edilməsi və sənədləşdirilmiş keyfiyyət prosedurları: uyğunsuzluqların idarə edilməsi, |

həmçinin auditorun qeyd dəftərçəsi. Bu sənədlər aşağıdakı qanunlar və standartlar əsasında hazırlanmışdır:
BS ISO 9000:2015 - Keyfiyyət idarəetmə sistemləri. Əsaslar və lüğət;
BS ISO 9001:2015 - Keyfiyyət idarəetmə sistemləri. Tələblər;
BS ISO 9004:2009 - Keyfiyyət idarəetmə sistemləri. Davamlı inkişaf;
BS ISO 19011:2011 - Keyfiyyət idarəetmə sistemləri. İdarəetmə sistemlərinin auditinin aparılması üçün təlimatlar;
Azərbaycan Respublikasının Əmək Məcəlləsi; 618-IQ saylı Qanun (01.02.1999 tarixlı, 01.06.2023-cü il tarixində əlavələr və dəyişikliklərlə);
“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının 26.06.1997-ci il tarixli 360-IQ nömrəli Qanunu;
“Təhsil haqqında” Azərbaycan Respublikasının 12.06.2009-cu il tarixli, 833-IIIQ nömrəli Qanunu “
“Elm haqqında” Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli 271-VQ nömrəli Qanunu “
“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2001-ci il 27 dekabr tarixli 245-IIQ nömrəli Qanunu;
“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının 1992-ci il 27 iyul tarixli 231 nömrəli Qanunu “
“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu, 29.06.2004-cü il tarixli, 716-IIQ nömrəli Qanunu
Azərbaycan Respubılikası Nazirlər Kabinetinin 08.06.2010-cu il tarixli 108 №-li qərarı ilə təsdiq edilmiş Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin(işçilərin) sertifikasiyası Qaydası”.
Bu sənədlərin tətbiqi 2023-cü ilin sentyabrından həyata keçiriləcək.
ATU-da keyfiyyət meyarları və onların qiymətləndirilməsi üsulları.

**ATU-nun tədrisin keyfiyyətli fəaliyyətinin qiymətləndirilməsi meyarları və metodları**

| № | Meyarlar | Qiymətləndirmə üsulları | Məsul bölmə | Sənədlər/ qeydlər |
|---|---|---|---|---|
| 1. | Müraciət edənlərin təhsil keyfiyyəti | ▪ Məktəb buraxılış imtahanlarının orta qiyməti;<br>▪ Abituriyentlər arasında olimpiadalar, elmi müsabiqələr və digər yarışmaların qaliblərinin sayı . | Əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün Qəbul Komissiyası | hesabat |
| | | ▪ Kursdan kursa keçid Qiymətlər və ya ÜOMG<br>▪ Diplom əlavəsinin orta | Dekanlıqlar | test üsulu ilə qiymətləndirilməsi haqqında hesabatlar |

| | | | | |
|---|---|---|---|---|
| | | qiyməti;<br>▪ Təhsilalanların buraxılış testlərin nəticələri | | |
| 2. | PMH keyfiyyəti | ▪ Elmi dərəcəsi olan tam ştatlı professor-müəllim heyətinin xüsusi çəkisi, o cümlədən;<br>▪ Elmlər doktoru<br>▪ Elmlər namizədi, PhD<br>▪ Son 5 ildə öz ixtisası üzrə təkmilləşdirmə kursu keçmiş professor-müəllim heyətinin faizi;<br>▪ Hökumət və xarici mükafatlara layiq görülən müəllim heyətinin faizi. | Kadrlar şöbəsi | Hesabat, sertifikatların, diplomların, vəsiqələrin surətləri |
| 3. | Təhsil proqramların keyfiyyəti | ▪ Beynəlxalq akkreditasiyadan keçmiş təhsil proqramlarının sayı;<br>▪ Yay semestri üzrə fənlərin sayı;<br>▪ İxtisasyönümlü və təcrübi seçim fənlərin faizi;<br>▪ Əlavə təhsil proqramları üzrə tələbələrin sayı. | Dekanlıqlar, TİD | Təhsil proqramları, plan, hesabat |
| 4. | Tədris-metodik təchizatın keyfiyyəti | ▪ Mühazirələrlə təchiz olunma faizi<br>▪ Paylama üçün təchizat materialı;<br>▪ PMH tərəfindən dərc olunan materiallar;<br>▪ Fənlərin tədris ədəbiyyatı ilə təchizat faizi; | TİD, dekanlıqlar, kafedralar kitabxana, İTD. | Plan, hesabat |

| | | | | |
|---|---|---|---|---|
| | | ▪ Test tapşırıqları bazasının test resurlarında əlçatan olması;<br>▪ Təsdiq edilmiş normalara uyğun olan test tapşırıqları bazası | | |
| 5. | Tədris texnologiyaların keyfiyyəti | Distant təhsil elementlərinin tətbiqi | İTD, kafedralar | Hesabat |
| 6. | Tədris prosesinin keyfiyyəti | Təcrübi bazalarla təchizat; Klinik fənlərin klinik bazalarla təchizatı | TİD, dekanlıqlar | Plan, hesabat, təhsilalanların və PMH sorğu nəticələri |
| 7. | Tədrisin keyfiyəti | Tələbələrin təhsilin keyfiyyətindən məmnunluq indeksi; Kurslar, ixtisaslar üzrə qiymətlərin orta səviyyəsi; | İTD | Təhsilalanların sorğu nəticələri |
| 8. | Maddi-texniki bazanın keyfiyyəti | Multimedia avadanlıqları ilə təchiz olunmuş sinif otaqlarının sayı;<br>Elektron təhsil sisteminin funksionallığı;<br>1 nəfər PMH düşən kompüterlərin sayı;<br>əyani vəsaitlərin, manikenlərin sayı;<br>Təhsil avadanlıqları ilə təmin edilmə;<br>Kompüter siniflərinin mövcudluğu və təminatı.<br>Simulyasiya avadanlığının mövcudluğu. | Kitabxana, dekanlıqlar, kafedralar, İTD | Hesabatlar, inventar aktları, fakturalar |

**ATU-nun tərbiyyə işi fəaliyyətinin qiymətləndirilməsi meyarları və metodları**

| № | Meyarlar | Qiymətləndirmə üsulları | Məsul bölmə | Sənədlər/qeydlər |
|---|---|---|---|---|
| 1 | Mədəni tərbiyyə | ▪ Keçirilən mədəni tədbirlərin sayı;<br>▪ Mədəni tədbirlərdə nailiyyətlərə görə verilən mükafatların sayı;<br>▪ Mədəni tədbirlərdə iştirak edən tələbələrin faizi | Tərbiyə işləri üzrə prorektor, Müəllimlərin Həmkarlar İttifaqı, Tələbələrin Həmkarlar İttifaqı, "Təbib" idman klubu | Sərəncamlar, protokollar, hesabatlar |
| 3 | Hüquqi tərbiyyə | ▪ Tələbələr arasında hüquq pozuntularının və ictimai asayişin pozulması hallarının sayı | | |
| 4 | Vətəndaşlıq tərbiyyəsi | ▪ Gənclər təşkilatlarında iştirak edən tələbələrin faizi | | |
| 5 | Tələbələrə və PMH heyətinə sosial dəstək | ▪ Tələbələrin həvəsləndirilməsi üçün ayrılan vəsaitin həcmi;<br>▪ İdman bölmələrinə cəlb olunan tələbələrin sayı<br>▪ Həmkarlar ittifaqı komitəsi professor-müəllim heyətinə maddi yardımın göstərilməsi | | |
| 6 | Fiziki tərbbiyyə | ▪ Keçirilən idman tədbirlərinin sayı; | | |

| | | | | |
|---|---|---|---|---|
| | | ▪ İdman tədbirlərində nailiyyətlərə görə verilən mükafatların sayı | | |

**ATU-nun tibbi diaqnostik fəaliyyətinin keyfiyyət meyarları və metodları**

| № | Meyarlar | Qiymətləndirmə üsulları | Məsul bölmə | Sənədlər/qeydlər |
|---|---|---|---|---|
| 1. | İcra keyfiyyəti | • tibbi (xəstələrə qulluq, əməliyyatlarda iştirak və s.)<br>• konsultativ və diaqnostik (məsləhət, konsiliumda iştirak, xəstəlik tarixçələrinin nəzərdən keçirilməsi və rəy verilməsi)<br>• konfranslarda iştirak (elmi-praktik, patoloji anatomik) | ATU klinikalarının klinik kafedraları | Planlar, hesabatlar, müqavilələr, elektron jurnallar da qeydiyyatda olan xəstələr |
| 2. | Təcrübi əhəmiyyət | Praktik səhiyyədə tətbiqlərin sayı | | |
| 3. | İnkişaf və tərəqqi | Kadrların inkişafı, elmi-praktik və pataloji anatomik konfranslarının təşkili və iştirakı. | | |
| 4. | İnsan resurslarının keyfiyyəti | Mükafat, praktiki səhiyyə sahəsində nailiyyətlərə görə milli və beynəlxalq qurumlar tərəfindən verilən mükafat | | |

Bu meyarlar müxtəlif struktur bölmələri tərəfindən yaradılmış müvəqqəti işçi qrupları tərəfindən müntəzəm olaraq yoxlanılır. Göstərilən meyarlar üzrə yazışmaların və fərqlərin olması barədə əldə edilmiş məlumatlar struktur bölmələrinin hesabatlarında qeyd edilir və müvafiq komissiya və şuraların müzakirəsinə verilir.

İnnovasiya və Keyfiyyətin İdarə olunması şöbəsi ATU-da keyfiyyət göstəriciləri ilə bağlı vəziyyəti təhlil edərək, universitetdə tədris, klinik və sosial mühiti yaxşılaşdıra biləcək əlavə keyfiyyət meyarları təqdim edilib.

Təklif olunan əlavə meyarlar:

ATU-nun tədris fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsi meyarları və üsulları

- - Rezidenturaya qəbul zamanı ballar;
- - Rezidenturaya qəbul imtahanlarının nəticələri
- - Magistraturaya qəbul imtahanlarının nəticələri
- - Seçmə fənlərin kataloqu;
- - Xarici tərəfdaş universitetlərlə birgə təhsil proqramlarının sayı;
- - İnteqrasiya edilmiş seçmə fənlərin payı;
- - DİM tərəfindən tövsiyə olunan professor-müəllim heyəti tərəfindən buraxılan materialların payı
- - Universitetin elektron resurslarında yerləşdirilən tədris-metodiki materialların payı;
- - 1 təhsilalanın təmin edilməsi - Azərbaycan, rus və ingilis dillərində düşən tədris ədəbiyyatı daxil olmaqla;
- - Tədris fənlərində istifadə olunan innovativ texnologiyaların (PBL, TBL, işgüzar oyunların ssenariləri) payı;
- - Tələbələrin və professor-müəllim heyətinin cədvəldən məmnunluq indeksi;
- - Öz ixtisası üzrə işləyən məzunların payı;
- - İşəgötürənlərin məzunların keyfiyyətindən məmnunluğu;
- - Rezidentlərin attestasiyasının nəticələri.
- - Videokonfrans sistemi olan sinif otaqlarının sayı;
- - Universitetin elektron kataloqunda tam mətnli nəşrlərin sayı;
- - Fənnlər üzrə tədris proqram təminatının sayı;
- - Proqrama uyğun olaraq videotekanın, mediatekanın tədris materialları ilə tam olması;
- - Standartlaşdırılmış xəstələrin mövcudluğu.

**ATU-nun tərbiyyəvi iş fəaliyyətinin qiymətləndirilməsi meyarları və metodları**

- Metodik və məlumat materialları ilə təmin edilməsi;

**ATU-nun tibbi diaqnostik fəaliyyətinin keyfiyyət meyarları və metodları**

**-** Müştəri məmnuniyyətinin dərəcəsi**.**

İnnovasiya və Keyfiyyətin İdarə olunması şöbəsi həmçinin yoxlama zamanı sənədləri (sənədləşdirilmiş keyfiyyət prosedurları: korreksiyaedici fəaliyyətin idarə edilməsi; sənədləşdirilmiş keyfiyyət prosedurları: uyğunsuzluqların idarə edilməsi; auditorun qeydi; keyfiyyət siyasəti və keyfiyyət təlimatı) rəhbər tutan və nümayəndələrdən ibarət keyfiyyət təminatı komitəsinin yaradılmasını təklif etmişdir. Şöbə tərəfindən komissiyaya ATU-da rəhbər vəzifə tutmayanlar, müəllim heyəti ilə yanaşı tələbələri, işəgötürənləri, məzunları və xəstələrin daxil edilməsi təklif edilmişdir. Bu təkliflər bəyənilib və komissiya 2023-cü ilin sentyabrında

| |
|---|
| fəaliyyətə başlayacaq. Bütün təkliflər innovasiyalar və keyfiyyətin idarə edilməsi şöbəsinin hesabatında öz əksini tapmışdır. Sözügedən şöbənin əsas məqsədlərindən biri keyfiyyət idarəetmə sisteminin düzgün işləməsini və inkişafını təmin etməklə Universitetin fəaliyyətində təkmilləşdirməyə nail olmaqdır. Tələbələr arasında məmnunluq sorğuları keçirilir, onların əsasında təhsil prosesinin və onun komponentlərinin təkmilləşdirilməsi ilə bağlı qərarlar qəbul edilir. Kadr siyasətinin, infrastrukturun, kitabxana fondunun, eləcə də sosial və maliyyə təminatının keyfiyyətinin yüksəldilməsi məqsədilə işəgötürənlər, məzunlar və PMH arasında sorğular keçirilir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

2.3. *Keyfiyyət təminatı mədəniyyəti*

| |
|---|
| ATU əməkdaşlar arasında (yüksək rəhbərlik daxil olmaqla) müxtəlif ünsiyyət üsullarından istifadə edir, məlumat mübadiləsi (o cümlədən, məlumatla tanışlıq) aşağıdakı üsullarla həyata keçirilir:<br>- rəhbərliyin qərarı ilə protokollaşdırılması nəzərdə tutulan müxtəlif səviyyələrdə müntəzəm görüşlər;<br>- ümumi kargüzarlıq sistemi çərçivəsində (sərəncamlar, əmrlər, bildirişlər, yazılı formalı işgüzar qeydlər/müraciətlər);<br>- vaxtaşırı tərtib edilən və Universitetin əməkdaşlarının nəzərinə çatdırılan müxtəlif fəaliyyət növləri üzrə hesabatlar;<br>- universitetin internet saytında məlumatların yerləşdirilməsi;<br>- maraqlı şəxslər arasında sorğuların keçirilməsi;<br>KİS-in daxili auditi vasitəsilə kommunikasiyanın həyata keçirilməsi və keyfiyyət mədəniyyətinin təmin edilməsi planlaşdırılır.<br>Təşkilatın xarici mühiti (sifarişçilər, istehlakçılar və s.) ilə əlaqəsi universitetin müvafiq daxili normativ sənədlərində təsbit edilmiş müvafiq vəzifəli şəxslər və/və ya struktur bölmələri tərəfindən həyata keçirilir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

## 3.TƏLİM VƏ TƏDRİS

3.1. *Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

| |
|---|
| ***3.1.Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması***<br>ATU-nun tələbə kontingentinin formalaşması Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Müdafiə Nazirliyi tərəfindən təsdiq olunmuş qəbul planlarına əsasən Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi test imtahanlarının nəticələrinə görə həyata keçirilir. 2016/2017-2022/2023-cü tədris illərində universitetə tələbə qəbulu (Bakalavriat (əsas (baza ali) tibb təhsili) barədə məlumatlar aşağıdakı diaqramda verilmişdir: |




Bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ATU-dan xaric olunan, akademik məzuniyyət verilən, akademik məzuniyyətdən qayıdan və tələbələr sırasına bərpa olunan tələbələrin sayı aşağıdakı diaqramda göstərilmişdir:




Bakalavriat (əsas (baza ali) tibb təhsili) üzrə təhsilalanlar

Fakültələr üzrə kadr hazırlığı aparılan ixtisaslar və tələbə kontingentinin tərkibi aşağıdakı cədvəldə göstərilmişdir:

01.05.2023-ci il tarixinə Bakalavriat (əsas (baza ali) tibb təhsili) tələbələrin sayı:

| № | Fakültə | Kadr hazırlığı aparılan ixtisas | Ümumi tələbə Sayı (əyani) | |
|---|---|---|---|---|
| | | | Yerli | Əcnəbi |
| 1 | I Müalicə-profilaktika | Tibb | 1700 | 571 |
| 2 | II Müalicə-profilaktika | Tibb | 1551 | 664 |
| 3 | İctimai səhiyyə | İctimai səhiyyə | 337 | - |
| | | Fizioterapiya və tibbi reabilitasiya | 108 | - |
| | | Tibb bacısı işi | 96 | - |
| | | Tibbi-profilaktika | 86 | - |
| 4 | Stomatologiya | Stomatologiya | 369 | 837 |
| 5 | Əczaçılıq | Əczaçılıq | 235 | 201 |
| 6 | Hərbi tibb | Hərbi tibb | 327 | - |
| | **Cəmi** | | **4723** | **2273** |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2012-cu il tarixli 314 nömrəli əmrilə təsdiq olunmuş “Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların Təsnifatı”na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisaslarının (proqramların) təsnifatı”na uyğun olaraq universitetdə 2020-2021-ci tədris ilindən bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində 8 ixtisas üzrə (tibb, ictimai səhiyyə, stomatologiya, hərbi tibb, əczaçılıq, fizioterapiya və tibbi reabilitasiya, tibb bacısı işi, tibbi-profilaktika) mütəxəssis hazırlığı aparılır.

Universitetdə təhsilin aşağıdakı səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır: orta ixrisas təhsili, bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura, rezidentura və doktorantura.

ATU-da bakalavr səviyyəsində 3 ixtisas, əsas (baza ali) tibb təhsili üzrə 5 ixtisas, magistratura səviyyəsində 4 ixtisas (9 ixtisaslaşma) rezidentura səviyyəsində 60 ixtisas və orta ixtisas təhsili səviyyəsində 1 ixtisas (feldşer) üzrə kadr hazırlığı aparılır. Azərbaycan Tibb Universitetində 6 fakültə fəaliyyət göstərir.

Tələbə qəbulu Azərbaycan Respublikası Prezidentinin 2006-ci il 25 may tarixli 413N-li Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 14.5-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin ayrı-ayrı ixtisaslar üzrə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin, digər nazirlik, komitə və təşkilatların tabeliyində olan ali təhsil müəssisələrinin bakalavriat, tibb təhsilində əsas (baza ali) təhsil səviyyələrinə tələbə qəbulunun təsdiq edilməsi haqqında sərəncam və müvafiq əmrin əsasında icra olunur.

Magistratura pilləsinə qəbul “Magistr hazırlığı haqqında AR NK 13 fevral 1997-ci il tarixli QƏRARI” və “Azərbaycan Respublikasında çoxpilləli ali təhsil sistemində magistr hazırlığı (magistratura) haqqında əsasnamə”ni rəhbər tutaraq aparılır.

Rezidentura pilləsinə qəbul Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin əmrlərinə əsasən icra olunur. “Azərbaycan Respublikasında

rezidenturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli qərarını rəhbər alaraq həyata keçirilir.

Tələbə qəbulu yerləri üzrə sifarişlər əmək bazarının tələblərinə uyğun olaraq maraqlı tərəflərin (işəgötürənlərin) iştirakı ilə keçirilmiş iclasların nəticələri əsasında optimal şəkildə müəyyən edilir və formalaşır. Müəyyən edilmiş yerlər sayı və onların ixtisaslar üzrə paylanması Səhiyyə Nazirliyinə rəsmi təklif şəklində göndərilir. Hərbi-tibb fakültəsində tələbə qəbulu yerləri üzrə sifarişlər güc strukturlarının (sifarişçilərin) tibb kadrlarına ehtiyacına görə müəyyən edilir. Fakültələrin tələbələri həm Dövlət hesabına həm də ödənişli əsalarla təhsil alır və təqaüdlə təmin olunur. Hərbi-tibb fakültəsinin tələbə-kursantları Dövlət hesabına təhsil alır və təqaüdlə təmin olunur.

Əvvəlki illərdə işəgötürənlər yalnız ATU-nun professor-müəllim heyyəti ilə təmsil olunurdu. İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi təhlil apardıqda müəyyən edib ki, ATU-ilə əlaqəli olmayan işəgötürənlər az əhatə olunur və bu göstəricini yüksəltmək üçün ATU-dan kənar işəgötürənlərlə görüşlər təşkil edilməyə başlanıb. Həmin iclaslarda potensial iş yerlərinin rəhbərlərinin fikir və təklifləri də nəzərə alınmaqla əmək bazarının ehtiyacları təhlil olunmağa başlanılıb və tələbə qəbulu ilə bağlı sifarişlərin daha məqsədyönümlü olması istiqamətində işlər aparılır.

Qəbul olunmuş tələbələrin əvvəlki təhsilinin tanınması aşağıdakı qaydaya əsasən həyata keçirilir.

2017/2018-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.09.2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədlərin verilməsi Qaydası"na əsasən ATU-nun müvafiq ixtisaslarına ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün tələbələr sırasına qəbul edilmişlər:




ATU Azərbaycan Respublikasında fəaliyyət göstərən ATM-lər arasında əcnəbi tələbə sayı ilə seçilir. Hal-hazırda müxtəlif ölkələrdən təhsil almaq üçün gələn

tələbələr sayına görə ATU qabaqcıl ali təhsil müəssisələr sırasındadır. 2023-cü ildə Azərbaycan Tibb Universiteti əcnəbi tələbələrin cəlbinin təşviqi və təhsilinin təşkili sahəsində xüsusi fərqləndiyinə görə Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə təltif edilib.

*Azərbaycan Tibb Universitetinin 1-ci kursuna qəbul olan, ümumi əcnəbi vətəndaşların illər üzrə sayı və xaric olunanların sayı*

| Tədris ili | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| Birinci kurs | 595 | 558 | 422 | 539 | 397 | 570 |
| Ümumi | 1213 | 1600 | 1812 | 2167 | 2222 | 2335 |
| Xaric | 85 | 104 | 110 | 207 | 103 | 62 |

*Müalicə-profilaktika fakultəsi üzrə:*
*1-ci kursa qəbul olan, əcnəbi vətəndaşların illər üzrə ümumi sayı və xaric olunanların sayı*

| Tədris ili | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| Birinci kurs | 283 | 266 | 203 | 262 | 207 | 321 |
| Ümumi | 617 | 801 | 877 | 1039 | 1078 | 1261 |
| Xaric olunan | 57 | 76 | 75 | 138 | 72 | 29 |

*Stomatologiya fakultəsi üzrə:*
*1-ci kursa qəbul olan, əcnəbi vətəndaşların illər üzrə ümumi sayı və xaric olunanların sayı*

| Tədris ili | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Birinci kurs | 247 | 204 | 166 | 214 | 144 | 194 |
| Ümumi | 478 | 614 | 715 | 870 | 899 | 857 |
| Xaric olunan | 20 | 21 | 23 | 60 | 26 | 24 |

*Əczaçılıq fakultəsi üzrə:*
*1-ci kursa qəbul olan, əcnəbi vətndaşların illər üzrə ümumi sayı və xaric olunanların sayı*

| Tədris ili | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|
| Birinci kurs | 65 | 88 | 53 | 63 | 46 | 55 |
| Ümumi | 118 | 185 | 220 | 258 | 245 | 217 |
| Xaric olunan | 8 | 7 | 12 | 9 | 5 | 9 |

Əcnəbi təhsilalanların qəbulu zamanı hazırlıq dönəmində əsas meyar kimi abituriyentlərin orta məktəb bilikləri, oxuyacaqları dilin baza səviyyəsi, dünyagörüşü, təhsil proqramını yerinə yetirmə potensialı, şəxsi keyfiyyətləri və həkimlik sənətinə olan maraqları əsas götürülür.

Abituriyentlərin tam şəffaflığı təmin etmək üçün xarici vətəndaşlar öz ölkələrini tərk etmədən ATU-da 2018-ci ildən 2022-ci ilə qədər elektron portal yaradılmışdır. Azərbaycan vətəndaşı olmayan şəxslər bu portaldan istifadə edərək, Əcnəbi təhsilalanlarla iş üzrə dekanlığının nəznində hazırlıq kursuna qəbul edilirdilər. 2023-cü ildən Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən https://portal.edu.az elektron saytı yaradılmışdır. Abituriyentlər bu saytdan qeydiyyatdan keçdikdən sonra ATU-da yaradılan xüsusi komissiyaya yönəldilir. Bu işdə tam şəffaflığı təmin etmək üçün ATU tələbə seçimində heç bir şirkət və agentlərdən istifadə etmir.

Abituriyentlər şəxsi kabinetlərini yaradır və lazımı sənədləri sistemə yerləşdirirlər. Bundan sonra onların elektron ünvanına məlumat göndərilir və onlayn müsahibə təyin edilir. Müsahibə ATU tərəfindən yaradılmış xüsusi komissiya (əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin universitetin

hazırlıq kursuna qəbul komissiyası) tərəfindən aparılır. 24 saat ərzində nəticə barəsində abituriyentə məlumat göndərilir.

Abituriyent qəbul olduqdan sonra müqavilənin imzalanması, şəxsi işlərin təqdimatı əyani şəkildə keçirilir. Ölkələrdən asılı olaraq tələbələrə təhsil vizası göndərilir. Pandemiya zamanı tədris distant şəklində, hal-hazırda isə əyani şəkildə keçirilir. Təhsil müddəti hazırlıq kursunda 6 aydır. Hər il 600 nəfər xarici tələbəni maddi-texniki bazanı nəzərə alaraq ATU qəbul edə bilər.

Hazırlıq kursunda tələbələr seçdiyi dil (Azərbaycan, rus, ingilis) fizika, kimya və biologiya fənnlərini dinləyirlər. Kursun sonunda elektron formatda (İmtahan mərkəzində) buraxılış imtahanı verirlər. İmtahanı müvəffəqiyyətlə verən dinləyicilər seçdikləri fakültəyə müvafiq olaraq 1-ci kursa qeydiyyatdan keçirlər.

*(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)*

### 3.2. *Təhsil proqramları*

Universitetdə təhsilin aşağıdakı səviyyələri üzrə mütəxəssis hazırlığı aparılır: orta ixtisas təhsili, əsas (baza ali) tibb təhsili, bakalavriat, magistratura, rezidentura və doktorantura.

ATU-da tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yaradılıb və tədris olunur. ATU klinikalarının rəhbərləri və professor-müəllim heyətinin arasında olan işəgötürənlər təhsil proqramlarının aktualığını, kadr çatışmamazlığını nəzərə alaraq rəy və tövsiyələr verirlər.

ATU-da tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğun təşkil olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının 3.3.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Ömürboyu təhsil üzrə Milli kvalifikasiyalar Çərçivəsi”nə uyğun olaraq hazırlanır. ATU-da təhsilalanlar 5,6,7,8-ci səviyyələr üzrə təsnif olunurlar.

Təhsil proqramları ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğun olaraq tərtib edilmişdir. Təhsil alanların hazırlanmasnda mövcud qərarlar və normativlər nəzərə alnmışdır, prosesdə ixtisas kafedraları və müvafiq dekanlıqların iştirakı təmin olunmuşdur.

Hərbi-Tibb fakültəsində təhsil proqramları həmçinin Hərbi hissələrdən məzunlarla əlaqədar gələn rəylər əsasında yenilənir. Tədris prosesinin daha da yaxşılaşdırılması üçün təhsil proqramları hər 5 ildən bir yenidən baxılaraq hazırlanır və təsdiq olunur. Tədris planları təhsil proqramlarına müvafiq tərtib edilmişdir. Tədris planlarının təkmilləşdirilməsi ATU tərəfindən əvvəlki tədris planlarının yenidən baxılması, islahatların aparılması hesabına həyata keçirilmişdir, yeni ixtisaslarla bağlı profil yönümünün tələbinə uyğun fənlər daxil edilmişdir.

2021-ci ilin noyabr ayında Azərbaycan Tibb Universitetinin 3 ixtisası (Tibb, Stomatologiya, Əczaçılıq) İndependent Agency for Accreditation and Rating (İAAR) tərəfindən beynəlxalq akkreditasiya olunmuşdur. Tibb ixtisası - Registrasiya №AB 3764,

Stomatologiya ixtisas - Registrasiya №AB 3765, Əczaçılıq ixtisası - Registrasiya №AB 3766. Etibarlılıq müddəti 28.01.2022-27.01.2027.

Seçim fənlər blokunun formalaşması tələbələrin maraq dairəsi və ixtisas çərçivəsində əhəmiyyətli ola bilən fənlərin nəzərə alınması əsasında aparılır. Tədris planları dövlət standartlarına uyğun olaraq hazırlanmışdır. ATU da tədris olunan bütün ixtisaslar üzrə tədris planlarının tərtibində peşəyönümlü bilik və bacarıqar nəzərə alınır. Tədris planlarında əsas və seçim fənlər bloku üzrə saatların nisbətində balans təmin edilmişdir, nəzəri və təcrübi məşğələlərinin saat həcmlərinin müvafiq nisbəti kimi meyarlar üzrə rasional yanaşma tətbiq edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2012-ci il tarixli 314 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisaslarin təsnifatı"na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na uyğun aşağıdakı 5 ixtisas üzrə mütəxəssis hazırlanmışdır:

| | | |
|---|---|---|
| 070101 Müalicə işi | – 050904 Tibb | - yeni |
| 070102 Hərbi həkim | – 050901 Hərbi tibb | - yeni |
| 070103 Tibbi-profilaktika | – 050902 İctimai səhiyyə | - yeni |
| 070104 Stomatologiya | – 050903 | - yeni |
| 050806 Əczaçılıq | – 050802 | - yeni |

2020/2021-ci tədris ilindən etibarən universitetdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisaslarının (proqramların) təsnifatı"na uyğun olaraq daha 2 ixtisas üzrə bakalavriat səviyyəsi üzrə qəbul aparılır:

050803 Fizioterapiya və tibbi reabilitasiya

050808 Tibb bacısı işi

Azərbaycan Respublikası Nazırlər Kabinetinin 19 yanvar 2010-cu il tarixli 13 nömrəli əmrilə təsdiq olunmuş "Orta ixtisas təhsili üzrə ixtisaslarının təsnifati"na uyğun aşağıdakı 1 ixtisas üzrə hərbi feldşer hazırlığı aparılır.

DİM planına əsasən ATU magistratura ixtisas və ixtisaslaşmaların şifrələri və müvafiq proqramın nömrəsi

**ATU magistratura 2020-2022**

| № | Qəbul ili | İxtisas və ya ixtisaslaşmanın adı | İxtisas və ya ixtisaslaşmanın şifrəsi | Proqramın nömrəsi |
|---|---|---|---|---|
| 1 | 2021 | Əczaçılıq kimyası | 224131 | 55 |
| 2 | 2021 | Toksikoloji kimya | 224164 | 55 |
| 3 | 2021 | Farmakoqnoziya | 224148 | 55 |
| 4 | 2021 | Əczaçılıq texnologiyası | 224156 | 55 |
| 5 | 2021 | Əczaçılığın təşkili | 224172 | 55 |
| 6 | 2021 | Klinik (tibbi) psixologiya | 224123 | 48 |

| | | | | |
|---|---|---|---|---|
| 7 | 2021 | Menecment (səhiyyə sahəsi üzrə) | 224115 | 26 |

**ATU magistratura 2021-2023**

| № | Qəbul ili | İxtisas və ya ixtisaslaşmanın adı | İxtisas və ya ixtisaslaşmanın şifrəsi | Proqramın nömrəsi |
|---|---|---|---|---|
| 1 | 2021 | Əczaçılıq kimyası | 224131 | 55 |
| 2 | 2021 | Toksikoloji kimya | 224164 | 55 |
| 3 | 2021 | Farmakoqnoziya | 224148 | 55 |
| 4 | 2021 | Əczaçılıq texnologiyası | 224156 | 55 |
| 5 | 2021 | Əczaçılığın təşkili | 224172 | 55 |
| 6 | 2021 | Klinik (tibbi) psixologiya | 224123 | 48 |
| 7 | 2021 | Menecment (səhiyyə sahəsi üzrə) | 224115 | 26 |

**ATU magistratura 2022-2024**

| № | Qəbul ili | İxtisas və ya ixtisaslaşmanın adı | İxtisas və ya ixtisaslaşmanın şifrəsi | Proqramın nömrəsi |
|---|---|---|---|---|
| 1 | 2022 | Əczaçılıq kimyası | 224156 | 55 |
| 2 | 2022 | Toksikoloji kimya | 224189 | 55 |
| 3 | 2022 | Farmakoqnoziya | 224164 | 55 |
| 4 | 2022 | Əczaçılıq texnologiyası | 224172 | 55 |
| 5 | 2022 | Əczaçılığın təşkili | 224197 | 55 |
| 6 | 2022 | Klinik psixologiya (tibbi) | 224148 | 48 |
| 7 | 2022 | Menecment (səhiyyə sahəsi üzrə) | 224115 | 26 |
| 8 | 2022 | Biokimya | 224123 | 33 |
| 9 | 2022 | Mikrobiologiya | 224131 | 33 |

**DİM planına əsasən ATU rezidentura ixtisas və ixtisaslaşmaların kodları**

| **Əsas(baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)** | **Rezidenturada həkim-mütəxəssis hazırləğə aparılan ixtisaslar** | **Rezidenturaya qəbul üçün imtahan fənləri** | |
|---|---|---|---|
| | | **Baza fənləri** | **İxtisas fənləri** |
| **1** | **2** | **3** | **4** |

| | | | |
|---|---|---|---|
| ***I.Müalicə işi, pediatriya*** | 060901-Anesteziologiya-reanimatologiya<br>060902-Ümumi cərrahiyyə<br>060903-Neyrocərrahiyyə<br>060904-Plastik cərrahiyyə<br>060905-Ürək-damar cərrahiyyəsi<br>060906-Uşaq cərrahiyyəsi<br>060907-Otorinolarinqologiya<br>060908-Travmatologiya və ortopediya<br>060909-Onkologiya<br>060910-Urologiya<br>060911-Oftalmologiya<br>060912-Mamalıq-ginekologiya<br>060913-Psixiatriya<br>060914-Nevrologiya<br>060915-Daxili xəstəliklər<br>060916-Kardiologiya<br>060917-Nefrologiya<br>060918-Qastroenterologiya<br>060919-Hematologiya<br>060920-Dermatovenerologiya<br>060922-Allerqologiya və İmmunologiya<br>060923-Yoluxucu xəstəliklər<br>060924-Revmatologiya<br>060925-Endokrinologiya<br>060926-Narkologiya<br>060927-Fizioterapiya və tibbi bərpa | İnsan anatomiyası<br>Histologiya<br>İnsan fiziologiyası<br>Patologiya(patoloji anatomiya, patoloji fiziologiya)<br>Mikrobiologiya<br>Farmokologiya<br>Biokimya | Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya,yoluxucu xəstəliklər, psixiatriya)<br><br>Cərrahlıq (ümumi cərrahlıq,cərrahi xəstəliklər, uşaq cərrahlığı)<br><br>Mamalıq və ginekologiya<br><br>Uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası, Neonatologiya) |

| | | | |
|---|---|---|---|
| | 060928-Ftiziatriya<br>060929-Patoloji anatomiya və məhkəmə tibbi ekspertiza<br>060930-Pediatriya<br>060931-Şüa-terapiyası<br>060932-Şüa diaqnostikası<br>060935-Sosial-gigiyena və səhiyyənin təşkili<br>060937-Tibbi mikrobiologiya<br>060939-Tibbi genetika<br>060941-Ailə təbabəti<br>060942-Nüvə təbabəti<br>060949-Uşaq və yeniyetmə psixiatriyası<br>060950-Neonotologiya<br>060951-Uşaq endokrinologiyası<br>060952-Uşaq kardiologiyası<br>060953-Uşaq nefrologiyası<br>060954-Uşaq nevrologiyası<br>060955-Uşaq qastroenterologiyası<br>060956-Uşaq urologiyası<br>060957-Uşaq yoluxucu xəstəlikləri<br>060958-Üşaq ürək-damar cərrahiyyəsi | | |
| ***II.Stomatologiya*** | 060934-Üz-çənə cərrahiyyəsi<br>060935-Sosial-gigiyena və səhiyyənin təşkili<br>060943-Endodontiya<br>060944-Parodontologiya | İnsan anatomiyası<br>Histologiya<br>İnsan fiziologiyası<br>Patologiya(patoloji anatomiya, patoloji fiziologiya)<br>Mikrobiologiya<br>Farmokologiya | Terapevtik stomatologiya<br>Ortopedik stomatologiya<br>Üz-çənə çərrahiyyəsi<br>Uşaq stomatologiya |

| | | | |
|---|---|---|---|
| | 060945-Restorativ stomatologiya<br>060946-Ortopedik stomatologiya<br>060947-Uşaq stomatologiyası<br>060948-Ortodontiya | Biokimya | |
| ***III.Tibbi profilaktika*** | 060935-Sosial-gigiyena və səhiyyənin təşkili<br>060936-Gigiyena<br>060937-Tibbi mikrobiologiya<br>060938-Laboratoriya işi<br>060940-Epidemiologiya<br>060923-Yoluxucu xəstəliklər | İnsan anatomiyası<br>Histologiya<br>İnsan fiziologiyası<br>Patologiya(patoloji anatomiya, patoloji fiziologiya)<br>Mikrobiologiya<br>Farmokologiya<br>Biokimya | Yoluxucu xəstəliklər<br>Gigiyena (ümumi gigiyena, kommunal gigiyena, qidalanma gigiyenası, əmək gigiyenası)<br>Epidemiologiya |

ATU-da tədris tam şəkildə Bolonya prosesinin tələblərinə və yeni təhsil qanununa uyğun şəkildə kredit sistemi əsasında həyata keçirilir. İstiqamətlər (ixtisaslar) üzrə tələbələrin təhsili Dövlət Təhsil Standartlarına müvafiq kredit sisteminə uyğun tədris planı və fənn proqramları əsasında müəyyənləşdirilir. Tədris fənləri təhsil proqramının tələblərinə uyğundur, nəzərdə tutulan kompetensiyaları formalaşdırmağa imkan verir. Tədris planında fənlər vacibliyinə, məzmununa və mənimsənilmə ardıcıllığına görə aşağıdakı 3 qrupa bölünür: A qrupu - məcburi və ardıcıl öyrənilən fənlər; B qrupu - məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər; C qrupu - tələbələrin öz seçimi əsasında öyrənilən fənlər.

Avropa Kredit Sistemi aşağıdakiları nəzərdə tutur və ATU-da həllini tapır:

- Tədrisin təqdimat və müzakirə formasında aparılması;
- Tələbələrin seçim blokuna aid fənlərin seçiminin təmin edilməsi;
- Tələbələrin “aşağıdan” və “yuxarıdan” (akademik mübadilə çərçivəsində) fənn seçməsi üçün hazırlanması;
- Hər bir tələbə üçün fərdi tədris planlarının hazırlanması;
- Tələbələrlə fərdi işlərin qurulması, tyutor fəaliyyətinin təşkili;
- Tələbələrin elmi-tədqiqat işlərinə aktiv cəlb edilməsi. Tələbə Elmi Cəmiyyətinin tələbə elmi-praktik konfranslarının keçirilməsi və materialların nəşri;
- Sərbəst tələbə-müəllim münasibətlərinin formalaşması üçün şəraitin yaradılması;
- Digər ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edilməsi;

Tələbənin sərbəstliyi deyildikdə aşağıdakılar nəzərdə tutulur:

- tələbənin özü tərəfindən tərtib olunmuş “Fərdi tədris planı” əsasında təhsil alması;
- seçim blokuna aid fənlərin müstəqil seçmə imkanının olması;
- normativ müddətdən gec ali təhsil müəssisəsini bitirməsi;
- “yuxarıdan” (akademik mobillik çəeçivəsində) və “aşağıdan” fənləri seçə bilməsi.

ATU-da kredit sistemində nəzərdə tutulan bəzi (tələbənin müstəgil müəllim seçimində iştirakı) xüsusiyyətlərinin həyata keçirilməsində müəyyən çatışmamazlıqlar var. Təşkilat komiisiyası Özünətəhlilin əsasında təklif edir ki, ETS-də hər müəllimin tədris yükünə müvafiq qruplar sayı və seçim üçün məhdud müddət qeyd olunsun. Buna əsasən tələbələr qrup şəklində müəyyən vaxt çərçivəsində istənilən müəllimi müstəqil seçə bilərlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.3. *Tədrisin təşkili*

Azərbaycan Tibb Universitetində ixtisaslar üzrə tədris planları kredit sisteminin tələblərinə uyğun tərtib edilir. Universitet tərəfindən hazırlanmış və təsdiq olunmuş tədris işçi planları əsasında müəyyən olunmuş fənlərin tədrisi həyata keçirilir.

Azərbaycan Tibb Universitetində tədrisin təşkilinə dair tələblərin müəyyən “TƏDRİSİN TƏŞKİLİNƏ DAİR UNİVERSİTETDAXİLİ QAYDALAR”a və 348 nömrəli qərara əsasən həyata keçirilir.

Bu Qaydalar Azərbaycan Tibb Universitetinin bütün ixtisaslar üzrə təhsilalanlarına şamil edilir.

**Qeyd edilən “Qaydalar”** “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, Nazirlər Kabinetinin 348 №-li 24.12.2013-cu il tarixli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”, Təhsil Nazirliyinin Kollegiyasının “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar”ın təsdiq edilməsi barədə 5/2 nömrəli 15.11.2017-ci il tarixli Qərarını, Təhsil Nazirinin 1060 saylı 11.09.2008-ci il tarixli əmri təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında” Əsasnaməni, Təhsil Nazirinin 1048 saylı 03.10.2014-cu il tarixli əmri ulə təsdiq edilmiş “İxtisas (proramı) üzrə bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan məcburi minimum dövlət tələblərini müəyyənləşdirilən Dövlət Standartının Strukturu, Təhsil Nazirinin 28.08.2020-ci il tarixli, F-386 nömrəli qərarı ilə təsdiq edilmiş ixtisaslar üzrə Təhsil Proqramları, ATU-nun Nizamnaməsi, ATU-nun Elmi şurasının qərarları əsas götürülərək hazırlanmışdır.

**“Qaydalara” müvafiq olaraq, tədrisin təşkilinə dair xüsusi tələblər aşağıdakılardır:**

1. Tələbələr I təhsil ili üçün qeydiyyatı aparıldıqdan sonra Universitet tərəfindən hazırlanmış və təsdiq olunmuş tədris işçi planı əsasında müəyyən olunmuş fənlərin tədrisinə başlayır;

2. I təhsil ili tələbələrinin fərdi tədris planı (Forma 4, FTP) Universitet tərəfindən (müvafiq fakültə tərəfindən) müəyyən edilir;

3. I təhsil ili tələbələri Universitetə qeydiyyatı aparılarkən ilk tədris ili üçün illik təhsil haqqını müqavilə imzalandığı gündə tam həcmdə, digər təhsil ili tələbələri isə hər tədris semestri üzrə müvafiq olaraq oktyabr ayının 15-nə kimi payız semestri üçün, mart ayının 16-na kimi yaz semetri üçün təhsil haqqını ödəməlidirlər. Göstərilən tarixlərdə ödənişi etməyən yerli və ya əcnəbi tələbələr Universitetin daxili "İntizam qaydaları"nı və Universitet ilə tələbə arasında bağlanılan müqavilə şərtlərini pozduqlarına görə birmənalı səkildə Üniversitetdən xaric edilirlər;

4. Müqavilə bağlandıqdan və tədrisə cəlb olunduqdan sonra tələbə istər öz istəyi, istərsə də digər səbəblərdən Universitetdən xaric olunarsa həmin tədris ili üçün ödəniş etdiyi təhsil haqqı qaytarılmır;

5. Müalicə işi (Tibb), Hərbi həkim işi (Hərbi tibb), Tibbi profilaktika ixtisaslarının II-VI kurs tələbələri, Stomatologiya, İctimai səhiyyə ixtisaslarının II-V kurs tələbələri, Əczaçılıq, Tibb bacısı işi, Fizioterapiya və tibbi reabilitasiya ixtisaslarının II-IV kurslar tələbləri hər tədris ilinin sonunda, iyul ayının 5-dən 15-nə kimi fərdi tədris planını tərtib edib, imzalanmış formada dekanlığa təhvil verməlidir. Tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planında (FTP) qeyd olunur. FTP tərtib olunarkən tyutorun məsləhətindən istifadə oluna bilər;

6. Fərdi tədris planında yalnız sentyabr ayının 10-na kimi dəyişiklik edilməsinə icazə verilir. Sentyabr ayının 10-na kimi FTP-da akademik borc yaranan fənn (fənlər) qeyd olunmadığı və ödəniş edilmədiyi təqdirdə həmin fənn (fənlər) üzrə tələbə tədrisə cəlb olunmur;

7. Göstərilən tarixlərdə tələbə tərəfindən tərtib edilməyən və dəyişiklik aparılmayan FTP-lər sentyabr ayının 10-dan sonra Universitet tərəfindən tərtib edilir, tələbə həmin FTP əsasında təhsil almaq məcburiyyətindədir;

8. Payız semestrində akademik borcu yaranan tələbə fevral ayının 10-na kimi FTP-də dəyişiklik etməlidir. Əks təqdirdə Universitet tərəfindən müəyyən olunmuş FTP ilə təhsil alır;

9. Fərdi tədris planını sentyabr ayının 15-nə kimi tərtib edib, təhvil verməyən, növbəti tədris ilinə qeydiyyatdan keçməyib həmin tədris ilinin payız semestrinin sonuna qədər ali təhsil müəssisəsi ilə əlaqə saxlamayan tələbələr Universitetdən xaric edilirlər;

10.FTP tərtib olunarkən tələbə ilk olaraq akademik borcu yarandığı fənni qeyd etməli, sonra kredit sayı və cədvəli uyğun gəldikdə digər fənləri qeyd etməlidir. Akademik borc yaranan fənn (fənlər) müvafiq semestrdə tədris olunmadığı və ya həmin fənn (fənlər) üzrə qrup yaradılmadığı halda bu tələb istisna edilir;

11.Tələbənin dərs cədvəlinə yerləşməyən, digər fənlərin tədrisinə mane olan, eləcə də praktik (seminar) məşğələləri cədvələ uyğun gəlməsinə baxmayaraq mühazirə məşğələləri cədvələ uyğun gəlməyən fənlərin FTP-yə daxil edilməsinə və tədrisinə icazə verilmir;

12.Fənn **tədris olunmadığı** semestrdə həmin fənn (fənlər) üzrə qrupda tələbə sayı ən az 8 nəfər (yeni təhsil proqramında nəzərdə tutulmayan fənlər üçün 5 nəfər) olduqda ödənişli əsaslarla qrup təşkil oluna bilər. Bu zaman kredit sayı 30-dan az olduqda belə tələbə yeni qrupun açılması üçün ödəniş edir;

13.Fənn (fənlər) **tədris olunduğu** semestrdə fənni (fənləri) götürmək istəyən tələbə mövcud qruplarda tələbə siyahısına əlavə edilərək tədrisə başladıqda və kredit sayı 30-dan artıq olmadıqda ödəniş etmir;

14.Fənn (fənlər) tədris olunduğu semestrə aid fənni (fənləri) götürmək istəyən tələbə mövcud qruplarda tələbə siyahısına əlavə edildikdə FTP-də qeyd etdiyi fənlərin ümumi kredit sayı 30-dan artıq olarsa, artıq kreditin ödənişini etməlidir;

15.Akademik borcu yaranan tələbə 30-dan artıq olan kreditinin və ya yeni yaranan fənn üzrə kredit ödənişini edərkən, ödənişli əsaslarla təhsil alanlar öz illik təhsil haqlarına, dövlət hesabına təhsilalanlar isə öz kursuna müvafiq dövlət hesabına illik təhsil haqqı əsas götürülərək kredit əsaslı ödəmə qaydasında ödəniş etməlidir;

16.Normativ təhsil müddəti ilə müəyyən olunmuş vaxtda təhsilini başa vura bilməyib kontingentdə saxlanılan tələbələr (məzun-tələbə) götürdükləri fənn (fənlər) üzrə ödəniş edərkən götürdüyü fənnin aid olduğu kurs üçün nəzərdə tutulmuş ödənişli təhsil haqqı əsas götürülərək kredit əsaslı ödəmə qaydasında ödəniş etməlidir;

17.Akademik borcu yaranan fənn (fənlər) üzrə təkrar dinləmələrdə iştirak edən tələbələrə, iştirak etdikləri (cəlb olunduqları) qruplarda tədris prosesinə tətbiq edilən bütün tələblər şamil edilir;

18.Üzrsüz səbəbdən imtahanda iştirak etməyən, cari və aralıq qiymətləndirmənin nəticələrinə, eləcə də aralıq qiymətləndirmənin nəticəsinə görə akademik borcu yaranan tələbələr hər semestrdə fənni (fənləri) dinləmədən ümumilikdə iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) öz kursuna müvafiq nəzərdə tutulan illik təhsil haqqını 60-a bölərək alınan nəticəni onun götürdüyü fənlərin kreditlərinə vurmaqla əldə olunan məbləğin 25%-i miqdarında (bu hədd Universitet tərəfindən tənzimlənir) ödəniş etməklə imtahanda iştirak edə bilər. Bu halda fənni (fənləri) yenidən dinləmədən kreditləri qazanmaq istəyən tələbə bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddətdə həmin fənn (fənlər) tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək və ya növbəti semestrlərdən birində imtahan sessiyası zamanı) və ya tədris olunmayan fənn üzrə qrup açıldığı zaman həmin semestrdə istifadə edə bilər;

19.Semestr ərzində fənn üzrə ayrılmış ümumi auditoriya saatlarının 20%-dən çoxunun, o cümlədən də praktik və seminar dərslərdə tam iştirak etməsindən asılı olmayaraq mühazirə saatlarının 40%-nin üzrlü və ya üzrsüz

səbəbdən buraxılması hallarında tələbə həmin fəndən imtahana buraxılmır (qeyd olunan hədd universitetin Elmi Şurası və Rektoryanı Şuranın qərarları ilə tənzimlənir);

20.İmtahanlarda üzrlü səbəbdən **iştirak edə bilməyən** tələbələr müvafiq semestrdən sonra, müvafiq olaraq iyul və fevral aylarında imtahandan sonra (semestr başlamazdan əvvəl) ayrılan vaxtlarda akademik borclarını ləğv etmək üçün şərait yaradılır;

21.Üzrlü səbəb kimi xəstəlik haqqında arayış təqdim etdikdə hərəkətin məhdudlaşması ilə nəticələnən travmalar, cərrahi əməliyyatlar, karantin tələb edən infeksion xəstəliklər (kəskin respirator xəstəlik istisna) əsas götürələcəkdir. Digər hallar üzrlü səbəb hesab edilmir;

22.Birdən çox imtahanda iştirak etmədiyi halda xəstəlik haqqında arayış təqdim etdikdə xəstəliyin davametmə müddəti əsas götürülür. Fasiləli tarixlərlə, yalnız imtahan gününə uyğun tarixlərdə arayış təqdim edənlərin arayışı qəbul edilmir;

23.İmtahanın keçirilmə qaydaları, formaları, test suallarında aparılan dəyişikliklər və s. kimi imtahanla əlaqədar islahatlar Universitetin Elmi Şurasının qərarı ilə müəyyən edilir və imtahan sessiyasından bir ay əvvələ qədər müddətə tələbələrin nəzərinə çatdırılır, bütün tələbələrə şamil edilir. Bir aydan az müddət ərzində, tələbə məlumatlandırılırsa tələbənin etiraz etmə haqqı vardır;

24.Carı və aralıq qiymətləndirilməninin (imtahan) nəticələrinə (imtahandan kəsilən, davamiyyətə görə imtahana buraxılmayan, lakin dərslərin 50%-dən çoxunda iştirak edən) görə akademik borcu yaranan tələbələr öz istəkləri ilə ödənişli əsaslarla yay semestrinin (yay məktəbinin) açılması üçün müraciət edə bilərlər. Bu zaman fənn (fənlər) üzrə müraciət edən tələbələrin sayının 5-dən az olmaması (bu say Universitetin maddi imkanları nəzərə alınaraq Elmi şura tərəfindən təmzimlənir) və fənni tədris edən professor-müəllim heyətinin könüllü olaraq razılıq verməsi nəzərə alınır (60 saata qədər 5 nəfər, 65-saatdan yuxarı 3 nəfər. Fənn yeni standarta yaxındırsa, 3 nəfərlə qrup yarana bilər.);

25.Yay semestrində (yay məktəbi) üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələrə payız semestri başlamazdan əvvəl bir dəfə imtahan verməsi üçün şərait yaradılır (üzrlü səbəb bu Qaydaların 2.21-ci bəndində (21) qeyd edilmişdir);

26.Yay semestrində ayrılan əlavə imtahan vaxtında yalnız yay semestrinin imtahanını üzrlü səbəbdən buraxanlar iştirak edə bilərlər, digər semestrlərdən (payız və yaz) akademik borcu qalanlar iştirak edə bilməz;

27.Tələbə yay semestrinin (yay məktəbinin) imtahanında üzrsüz səbəbdən iştirak etmədikdə həmin fənn (fənlər) akademik borc hesab edilir. Həmin tələbələr, yay semestrində üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün payız semestri başlamazdan əvvəl imtahan verməsi üçün yaradılan şəraitdən (imtahandan) istifadə edə bilməzlər;

28.Yay semestrinin (yay məktəbinin) nəticəsinə görə akademik borcu yaranan tələbələr ya fənni (fənlər) təkrar dinləyə bilər və ya həmin fənn (fənlər)

tədris olunduğu semestrin imtahan sessiyasında ödənişli əsaslarla iki fənn üzrə hər fəndən bir dəfə olmaqla fənni dinləmədən iştirak edə bilərlər;

29.Yay semestrində (yay məktəbində) digər semestrlərin (payız və yaz) imtahan nəticələrinə görə qeyri müvəffəq qiymət alan tələbələr, semestr ərzində davamiyyətə görə imtahana buraxılmayan tələbələr (auditoriya saatlarının 50%-dən çoxunda istirak etdiyi təqdirdə), hər hansı fənn üzrə qiymətini yüksəltmək istəyən tələbələr istirak edə bilərlər (10 kreditə qədər);

30. Fənni (fənləri) heç dinləməyən, tədrisində iştirak etməyən tələbələr həmin fənn (fənlər) üzrə yay semestrində birmənalı şəkildə iştirak edə bilməzlər (humanitar fənlər və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər istisna);

31. Tələbələr müvafiq qanunvericilikdə nəzərdə tutulan müddəaların icrasını təmin etmək, o cümlədən də, tədrisin keyfiyyətini daha da yaxşılaşdırmaq istiqamətində Universitet tərəfindən aparılan islahatların həyata keçirilməsi və innovativ üsulların tətbiqi qaydalarına (tədris prosesində dərslərin formasında və imtahanların sayı və formatında aparılan dəyişikliklər və s.) əməl etməlidirlər. Bu qaydalara əməl edilmədiyi təqdirdə tələbə Universitetdən xaric olunur;

32. Azərbaycan Respublikasının Təhsil sahəsində qanunvericiliyinin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara, universitetin daxili qaydalarına, o cümlədən universitetin səlahiyyətli orqanlarının qərarlarına riayət etməyən tələbələr Universitetdən xaric olunurlar.

ATU-da tədris prosesi Azərbaycan Respublikası Elm və Təhsil, Səhiyyə Nazirliklərinin əmr və göstərişlərinə, Universitetin Nizamnaməsinə uyğun olaraq idarəetmə kompleks sistemi formasında təşkil edilmişdir. Tədris prosesinin birbaşa təşkilini universitetin əsas tədris-elmi struktur bölmələri kimi kafedralar və fakültə dekanları, tədris departmaneti, innovasiya və keyfiyyətin idarə olunması şöbəsi ilə qarşılıqlı əlaqəli şəkildə həyata keçirirlər.

Hər bir ixtisasın təhsil proqramına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini özündə əks etdirən ixtisaslar üzrə illik işçi tədris planı mövcuddur.

Tədris planlarının tərtibində fənn bölümləri üzrə saatların optimal nisbəti nəzərə alınmışdır. Tələbələrin auditoriyada maksimal tədris yükü həftədə 30 saatdır. Ümumiliklə, tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verilir.

ATU-da tədris olunan fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi üçün Fənlərin və Təhsil proqramının təlim nəticələrinin matriksi mövcuddur. Bu mexanizm vasitəsilə uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, onlara nəzarət və qiymətləndirilmə prosesləri həyata keçirilir. Hər bir fənnin təlim nəticələri fənn sillabuslarında qeyd olunur.

Bakalavr təhsil səviyyəsində tədris müddəti semestrlərdə maksimum 15 həftədir. Semestrdə imtahanların sayı bir qayda olaraq 7-8-dən çox deyildir. Tədris dövründə tətil müddəti təhsil proqramına uyğun olaraq ixtisaslar üzrə dəyişir: 30-50 həftədir.

Ali tibb təhsili ixtisasları və hərbi fedşer ixtisası üzrə Yekun Dövlət Attestasiyası yekun buraxılış dövlət imtahanı ilə tamamlanır.

Tədris məşğələlərinin əsas növlərinə auditoriya (mühazirələr, seminarlar, təcrübə məşğələləri, laboratoriya dərsləri) və auditoriyadan kənar iş (tələbələrin sərbəst işi) daxildir. Tələbələrin sərbəst işinin hazırlanması müəllimin rəhbərliyi altında aparılır, təqdimat, video materiallar, xüsusi iş dəftərləri, esse və ya layihə şəklində təqdim olunur. Sərbəst işlərin mövzuları tələbələrə semestrin əvvəlində təqdim edilir. Son təhvil verilmə tarixi haqqında məlumat həm şifahi şəkildə səsləndirilir, həm də ETS sistemində göstərilir. Sərbəst işlərin hazırlanması prosesində yaranan suallar müəlim tərəfindən cavablandırır və düzgün icra ilə bağlı məsləhətlər verilir.

ATU-da məsləhət xidməti fakültələr üzrə tyutorlar tərəfindən icra olunur. Hər bir kafedrada müvafiq fənlərə aid məsləhət saatları təşkil olunur və bu saatlar zamanı tələbələr ekspertlərdən lazımı məlumat əldə edə bilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş «Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı» yenilənmiş və təsdiqlənmişdir.

Bu təsnifatda nəzərdə tutulan ixtisaslar üzrə Təhsil Nazirinin 28.06.2020-ci il tarixli F-386 nömrəli əmri ilə yeni "Ali təhsil pilləsinin Dövlət Standartı və Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsil ixtisası üzrə Təhsil Proqramları" qəbul edilmişdir.

2020/2021-ci tədris ilindən etibarən Ali təhsil pilləsinin Dövlət Standartlarındakı dəyişiklikləri nəzərə alaraq tədris edilən fənn proqramlarında müəyyən dəyişikliklər edilmişdir. Yeni fənlərin (Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, Xarici dildə işgüzar və akademik kommunikasiya və s.) proqramları isə ilk dəfə olaraq tərtib edilmişdir.

Universitetin bütün kafedralarında mühazirələrin və bəzi praktik məşğələlərin kompyüter təminatını nəzərə alaraq bütün fənlər üzrə mühazirə materiallarının elektron variantları hazırlanmış və istifadə edilir.

Universitetdə semestr imtahanlarının test üsulu ilə keçirilməsinə kömək məqsədilə "Test tapşırıqlarına olan tələblər, onların tərtibi qaydaları və ekspertizası" adlı metodik tövsiyələr, "Klinik və təcrübi bacariqlarin qiymətləndirilməsinə dair metodik tövsiyələr" nəşr edilmiş və müəllimlərin istifadəsinə verilmişdir. Bundan əlavə bu mövzuda bütün kafedraların test hazırlayan ekspert müəllimləri ilə treninqlər keçirilmişdir.

ATU-da tədris prosesinin təşkilinin klassik və innovasiyalı formaları tətbiq olunur: interaktiv mühazirələr, praktik və seminar məşğələləri, laboratoriya işləri, xəstələrlə bilavasitə iş, istehsalat və tədris təcrübələri, elmi-tədqiqat işi, buraxılış işləri, kurslararası sessiya attestasiyaları və yekun dövlət attestasiyası tətbiq olunur. Tədrisin təşkili tədris növləri üzrə (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlər) uyğunluq təmin olunmaqla həyata keçirilir, hər bir fənnin spesifikası və səciyyəvi xüsusiyyətləri nəzərə alınır.

İmtahanların keçirilmə müddəti tədris prosesinin qrafikinə uyğun aparılır. Sessiyalardakı imtahanların sayı tədris planlarına müvafiq olaraq müəyyənləşdirilir.

Tədris planına müvafiq olaraq universitet tələbələrin təcrübə keçməsi üçün Səhiyyə Nazirliyi qarşısında qaldırdığı vəsadətə uyğun olaraq respublikanın tibb müəssisələrində lazımi şərait yaradılır (Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 10 aprel 2023-cü il tarixli əmrə əsasən).

Universitetdə tədris və istehsalat təcrübələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin

keçirilməsi haqqında” 10 sentyabr 2008-ci il tarixli 221 №-li qərarı ilə təsdiq edilmiş Əsasnamənin tələblərinə müvafiq olaraq universitetin rektoru tərəfindən təsdiq edilmiş “Azərbaycan Tibb Universitetində təcrübələrin təşkili və keçirilməsi Qaydaları”na əsasən həyata keçirilir. Son beş tədris ilində müalicə-profilaktika fakultələrinin III, IV, V kurs tələbələri tədris planına və istehsalat təcrübəsi proqramına uyğun olaraq Bakı şəhərinin müalicə profilaktika müəssisələrində, elmi-tədqiqat institutlarında – Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Elmi-Tədqiqat Pediatriya İnstitutu, Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu, Elmi-Tədqiqat Mamaliq və Ginekologiya İnstitutlarında, həmçinin akademik Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzi, çoxprofilli şəhər kliniki xəstəxanalarında təcrübə keçmişlər. Hər iki fakultənin IV kurs tələbələri 14 şəhər poliklinikasında, eləcə də tibbi sanitar hissələrdə təcrubə keçiblər. V kurs müalicə-profilaktika tələbələri üçün respublika ərazisində olan mərkəzi rayon xəstəxanalarinda, həmçinin şəhər səhiyyə şöbələrindən və Naxçıvan Muxtar Respublikası və onun rayonlarından təcrübə bazası kimi istifadə edilmişdir.

İctimai səhiyyə fakultəsinin tələbələri üçün Gigiyena Epidemioloji Mərkəzlərdən, Respublika Taun Əleyhinə stansiyadan təcrübə bazası məqsədilə istifadə olunmuşdur.

Stomatologiya fakultəsi tələbələri üçün Uşaq Stomatoloji Mərkəzindən, uşaq stomatoloji poliklinikalarından, eləcə də son dövrlərə qədər yetgin yaşlıların stomatoloji poliklinikalarından təcrübə bazası məqsədilə istifadə olunmuşdur.

Əczaçılıq fakultəsi tələbələri üçün kliniki xəstəxanalar nəzdində apteklərdən, “Buta farm” MMC, “Zeytun Pharmaceuticals” MMC, “Herba Flora” və s. müəssisələrdən təcrübə bazası məqsədilə istifadə olunmuşdur.

Tibb Univeristetinin onkolji, stomatoloji, tədris-terapevtik, tədris-cərrahiyyə klinikaları, ATU-nun kliniki biokimyəvi laboratoriyası, elmi-tədqiqat mərkəzlərindən baza məqsədilə geniş istifadə olunmuşdur.

Tələbələri istehsalat təcrübəsinə göndərərkən təcrübə və baza rəhbərləri ilə universitet rəhbəhinin görüşləri keçirilmiş, qayşıda duran vəzifələr baza rəhbərlərinin iştirakı ilə geniş şərh olunmuş və təcrübənin səmərəli keçirilməsi üçün çatişmazliqların aradan qaldırılması istiqamətində müvafiq tövsiyələr verilmişdir. Hər bir bazaya univeristet rektoru tərəfindən imzalanmış əmrə əsasən aidiyyatı olan kafedralardan rəhbərlər təyin olunmuşlar. Yay və qış istehsalat təcrübəsinin nəticələri fakultə elmi şuralarında bir qayda olaraq hər tədris ilində - noyabr ayına Elmi Şurada müzakirə olunmuşdur.

Rezident və magistr hazırlığı Rezidentura və Magistratura şöbəsi tərəfindən həyata keçirilir. Doktorantların hazırlığı doktorantura və dissertantura şöbəsi tərəfindən həyata keçirilir.

Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları aşağıdakı qaydalarla aparılır.

Ali təhsilin magistratura pilləsində təhsilin yekun mərhələsi magistrlik dissertasiyasının müdafiəsidir. Magistrlik dissertasiyasının müdafiəsinə tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəyən və müvəfəq qiymət alanlar buraxılırlar. Magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclasında aparılır.

İxtisaslaşdırılmış şuralar (İŞ) magistr hazırlığı sisteminin mühüm tərkib hissələrindən biri olub, təqvim ili müddətinə yaradılır və fəaliyyət göstərir. Adı çəkilən İxtisaslaşdırılmış şuraların yaradılması haqqında vəsatəti magistr hazırlığı proqramını yerinə yetirən kafedraların təqdimatı əsasında həmin kafedraların daxil olduğu fakültə

qaldırır. İŞ yaradılması qaydası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş müvafiq əsasnamə ilə müəyyən edilir. İŞ magistrlik dissertasiyalarının müdafiəsi üçün qoyulan tələblərə əməl olunması və müdafiə qaydalarının pozulması halları aşkar edilərsə, ali təhsil müəssisəsinin rəhbəri şuranın fəaliyyəti ilə bağlı təşkilati tədbirlər ğörə bilər. İŞ işinə təhsil müəssisəsinin təqdimatı əsasında Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş sadr rəhbərlik edir. Şuraların işinə nəzarət isə nəzdində olduqları fakültənin dekanı, eləcə də ATU-nin rəhbəri və tədris işləri prorektoru tərəfindən həyata keçirilir. ATU-nun və fakültənin rəhbərliyi ixtisaslaşdırlımış şuraların işi üçün lazımi şərait yaradılmasına məsuliyyət daşıyır.

Magistrlik dissertasiyalarının müdafiəsi ilə əlaqədar xərclərin ödənilməsi müvafiq sənədlərlə tənzimlənir. Magistrlik dissertasiyalarının müdafiəsi zamanı magistrantın biliyinin qiymətləndirilməsi sadə səs çoxluğu əsasında açıq səsvermə yolu ilə aparılır. Magistrlik dissertasiyasının müdafiəsi “qeyri-kafi”, “kafi”, “yaxşı”, “əla” qiymətlərlə qiymətləndirilir.

Magistrlik dissertasiyalarına (MD) aşağıdakı tələblər qoyulur.

Magistrlik dissertasiyası elmi rəhbərin rəhbərliyi altında magistrantın müstəqil yerinə yetirdiyi elmi-tədqiqat işidir. Magistrlik dissertasiyası magistrantın müvafiq ixtisaslaşma və ya sahə üzrə gətirdiyi yeniliyi əks etdirməlidir. MD hazırlanması və müvəffəqiyyətlə müafiəsi magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtdir.

MD aşağıdakı tələblərdən birinə cavab verməlidir:

- işdə baxılan müvafiq elmi istiqamət üçün mühüm əhəmiyyəti olan hər hansı məsələnin yaradıcı həllinə;

- mühüm tədbiqi əhəmiyyəti olan texniki, iqtisadi və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhinə.

Magistrlik dissertasiyasında magistrantın əldə etdiyi nəticələr elmi və praktiki cəhətdən əsaslandırılmalı, mövcud faktlarla müqayisəli qiymətləndirilməli və onların istifadəsi üçün tövsiyələr verilməlidir. MD mövzusu və planı, magistrantın elmi rəhbəri onun təhkim olunduğu kafedranın elmi istiqamətləri ilə əlaqələndirilməli və kafedranın təqdimatı əsasında fakültənin elmi şurası tərəfindən birinci semestin 3 ayı ərzində təsdiq edilməlidir.

Magistranta dissertasiya mövzusunu təklif edərkən tədqiqatın məqsədəuyğunluğu əsaslandırılmalıdır. Bir sıra zəruri hallarda, o cümlədən magistrlik dissertasiyasının mövzusu ixtisasların qovuşuğuna uyğun gəldikdə, magistrantın dissertasiyasını elmi rəhbəri ilə yanaşı, ona məsləhətçi də təyin edilə bilər. Məsləhətçi başqa təhsil, elmi-tədqiqat müəssisələrinin yüksək ixtisaslı mütəxəssislərindən də seçilə bilər.

Magistrlik dissertasiyaları yerinə yetirilməyə başlanana qədər magistrantın təhkim olunduğu kafedra müvafiq fakültələrlə və rezidentura və magistratura şöbəsi (magistraturaya məsul şəxs) ilə birlikdə istiqamət üzrə dissertasiyalara qoyulan məcburi tələbləri müəyyən etmək və magistrantları bu tələblərlə tanış etməlidir.

Magistrantın elmi rəhbəri:

- magistranta dissertasiyası üçün tapşırıq verir;

- magistranta dissertasiyanın yerinə yetirilmə dövrünü əhatə edən fərdi iş planının hazırlanmasında köməklik göstərir;

- magistranta dissertasiya işi üçün lazım olan elmi metodik ədəbiyyatı, məlumat və arxiv materiallarını, layihələri və digər mənbələri tövsiyə edir;

- magistrantla müntəzəm olaraq fərdi iş planına uyğun söhbətlər aparır, ona elmi-metodik məsləhətlər verir.

Magistrantlar MD hazırlanması barədə elmi rəhbər və kafedra qarşısında vaxtaşırı hesabat verirlər. Kafedralar üzrə hesabatın vaxtını fakültə rəhbərliyi müəyyən edir. Hesabatın nəticələrinə ğörə işin hazırlıq dərəcəsi müəyyənləşdirilir.

Magistrlik dissertasiyasında şərh olunan məlumatların düzgünlüyü üçün magistrant məsuliyyət daşıyır. MD təlim dilində yazılır və bu zaman magistrant istifadə etdiyi materiallarla, ayrı-ayrı nəticələrin mənbələrinə bə müəlliflərinə uyğun qaydada istinad etməlidir. Müəllifinə və ədəbiyyatına istinad olunmadan özgə materiallardan istifadə edildikdə, dissertasiya müdafiə ilə bağlı istənilən baxılma mərhələsində geri qaytarılır.

MD kompüterdə 2 intervalla çap edilməli, əlavələrl birlikdə həcmi 75 səhifəsindən çox olmamalı və cildlənməlidir. Magistrlik dissertasiyasının titul vərəqəsinin və mətninin tərtibi müvafiq əmrdə göstərilən tələblərə uyğun olmalıdır.

Magistrant müdafiə üçün dissertasiyanın qısa məzmununu əks etdirən referat tərtib edilməlidir. Referatın həcmi 1,5 intervalla yazılmalı və 2 səhifəsindən çox olmamalıdır.

Magistrlik dissertasiyasının təqdim olunması və müdafiəsi. Magistrlik dissertasiyasının müdafiəsi bir qayda olaraq may-iyun aylarında təsdiq olunmuş qrafik əsasında keçirilir. Magistrlik dissertasiyasının müdafiəsi yalnız üzürlü səbəblər olduqda, müəyyən olunmuş qaydalar əsasında başqa vaxta keçirilə bilər. Magistrant öz dissertasiya işini bitirdikdən və qoyulan tələblərə uyğun tərtib etdikdən sonra referatla birlikdə elmi rəhbərə təqdim edilir. Elmi rəhbər işi yoxlayıb, bəyəndikdən sonra yazılı rəyi ilə birlikdə ilkin müzakirə üçün kafedraya təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu əsaslandırılır. Dissertasiya kafedrada müzakirə edilir və yekun rəy ilə birlikdə fakültə dekanına təqdim olunur. Fakültə dekanı təqdim olunmuş materialların müdafiəyə buraxılması barədə qərar qəbul edir və magistrlik dissertasiyasının titul vərəqində müvafiq qeydlər aparır. Fakültə dekanı magistrantı dissertasiya müdafiəsinə buraxmağı mümkün hesab etmədikdə bu məsələyə elmi rəhbərin iştirakı ilə dekanlıqda baxılır.

Müdafiəyə buraxılmış magistrlik dissertasiyaları müvafiq kafedra tərəfindən ən azı 15 gün qalmış rəsmi rəyçiyə göndərilir. Rəsmi rəyçilər elmi və istehsalat müəssisələrində çalışan aparıcı mütəxəssislər, həmin ali məktəbdə və ya digər ali məktəblərdə çalışan elmi dərəcəyə malik mütəxəssislər sırasından təyin oluna bilər. Rəsmi rəyçi magistrlik dissertasiyasını araşdıraraq yazılı rəy hazırlayıb ixtisaslaşdırılmış şuraya təqdim edir. Həmin rəydə mövzunun aktuallığı, onun nəticələrinin yeniliyi və işin magistrlik dissertasiyalarına qoyulan tələbələrə cavab veerməsi öz əksini tapmalıdır.

Rəsmi rəyçinin yazılı rəylərinin surətləri müdafiəyə ən azı 5 gün qalmış magistrantın razılığı ilə iş müdafiəyə təqdim oluna bilər. Rəsmi rəyçi yazdığı rəyin keyfiyyəti və obyektivliyi, rəyin təyin edilmiş müddətində magistrant və ya ixtisaslaşdırılmış Şuraya təqdim edilməsi üçün cavabdehlikdir.

Magistrlik dissertasiyasının ixtisaslaşdırılmış Şurada müdafiəsi üçün magistrant müdafiəyə ən azı 3 gün qalmış Şuraya aşağıdakı sənədləri təqdim edir: - ərizə (dekanın müvafiq dərkənarı ilə); - elmi rəhbərin rəyi; - magistrlik dissertasiyası – 1 nüsxə (müdafiədən sonra fakültədə saxlanılır); - referat 1 nüsxə (müdafiədən sonra fakültədə saxlanılır); - rəsmi rəyçinin rəyi; - magistrantın fərdi iş planının surəti. İxtisaslaşdırılmış şuranın katibi sənədləri yoxlayıb qəbul edir, müdafiənin vaxtı və keçirəcəyi yer barədə referatda müvafiq qeydlər aparır. Əgər, tələb olunan sənədlər və materiallar magistrant tərəfindən vaxtında təqdim olunmazsa, müdafiənin vaxtı yalnız üzürlü səbəblər olduqda müəyyən olunmuş qaydalara uyğun dəyişdirilə bilər. İxtisaslaşdırılmış şuranın iclası onun işində təsdiq olunmuş tərkibin ən azı üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

Magistrlik dissertasiyasının açıq müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi riayət şəklində keçməlidir. Bu zaman dissertasiyada olan bütün nəticələrin, elmi və praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması hərtərəfli təhlil edilməlidir. Elmi rəhbər və rəsmi rəyçilər müsbət rəy təqdim etdikdə müdafiədə iştirak etməyə bilərlər. İxtisaslaşdırılmış şurada hər magistrlik dissertasiyasının müdafiəsi üçün minimum 45 dəqiqə vaxt ayrılır ki, onun da 10-15 dəqiqəyə qədəri magistrantın məruzəsi üçün nəzərdə tutulub. Dissertasiyanın müdafiəsi qurtardıqdan sonra ixtisaslaşdırılmış şuraın üzvləri mövcud qaydada səsvermə keçirir. Əgər iclasda iştirak edən şura üzvlərinin yarıdan çoxu magistr dərəcəsi verilməsinin lehinə səs vermişdirsə, ixtisaslaşdırılmış şuranın qərarı ilə magistr dərəcəsi verilir. Əgər dissertasiya barədə ixtisaslaşdırılmış şura mənfi qərar qəbul edərsə, onun yenidən müdafiəsinə işdəki çatışmazlıqlar aradan qaldırılmaqla, mənfi qərar qəbul edilən gündən ən azı bir ay müddət keçdikdən sonra icazə verilir. Əgər dissertasiya barədə yenidən mənfi qərar çıxarılarsa, onun yeni mövzuda təkrar (2 dəfədən çox olmamaqla) müdafiəsinə növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir. Təkrar müdafiə olmadıqda, magistranta müvafiq proqramı dinlədiyi haqda arayış verilir.

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ATU-nun akademik siyasəti çərçivəsində müxtəlif səviyyələrdə (Elmi Şura, fakültələr, kafedralar və s.) daimi aparılan təhlil əsasında həyata keçirilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.4. *Tədris metodları və üsulları*

ATU-da təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə olunur: interaktiv mühazirələr, praktik və seminar məşğələləri və s.

Universitetdə tədris proseslərində tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktik tətbiqə əsaslanan tədris yanaşmaları fəal şəkildə işlənilir. Belə ki, kafedralarda fənnin xüsusiyyətlərindən asılı olaraq problem yönümlü tədris (həm klinik, həm nəzəri fənnlərin tədrisində), situasiya məsələləri əsaslı, səriştə əsaslı (əsasən, klinik fənlərdə) tədris metodları istifadə olunur. Bu metodlar sillabuslarda öz əksini taparaq, daima təkmilləşdirilir və yenilənir. Texnoloji üsullardan bazalarda və tədris binalarında yerləşən komputer və digər rəgəmsal avadanlıqlar vasitəsilə video çarxlar və təqdimatlar nümayiş etdirilir.

ATU-da hər kafedrada müvafiq plana uyğun olaraq nümunəvi dərslər keçirilir. Təcrübəli müəllimlər bu dərsləri gənc əməkdaşların bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə aparırlar. Müəyyən müddətdən sonra analoji nümunəvi dərslər gənc müəllimlər tərəfindən keçirilir.

Təhsilalannın tədris səviyyəsini nəzərə alaraq aşağıdakı maraq və motivasiya edici tədris və öyrənmə metodları istifadə olunur:

- mühazirə, seminarlar
- praktik tapşırıqlar
- təqdimatlar və müzakirələr
- müstəqil iş/araşdırma
- layihələr
- rol oyunları;
- qrup qiymətləndirməsi;
- video və audio mühazirələr;
- simulyasiyalar;
- laborator işlər;
- tapşırıq əsaslı öyrənmə (task-based learning);
- klinik təqdimatla öyrənmə (clinical presentation learning)
- problem əsaslı öyrənmə (problem based learning)
- keys-əsaslı öyrənmə (case-based learning)
- qartopu (snowball)
- dəyirmi masa (round table)
- masanın mərkəzində qələm (pen in the center of the table)
- quizizz

ATU-da tədris metod və üsullarının dövrü monitorinqi, uğunsuzluqların aşkar edilməsi və korreksiyaedici fəaliyyətin təmin edilməsi vasitəsilə mütamadi olaraq təkmilləşdirilməsi tədbirlər aparılır.

Belə ki, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin təşkilatçılığı ilə "Effective strategic planning and program evaluation" adlı təlim 6 Mart-15 May 2023-cü il tarixlərini əhatə edir. Bu təlimdə 72 nəfər iştirak etmişdir. Onlardan-3 prorektor (Beynəlxalq əlaqələr üzrə, Elmi işlər üzrə, Tərbiyə işləri üzrə ), 7-dekan (I Müalicə profilaktika, II Müalicə profilaktika, Stomatologiya, İctimai səhiyyə, Əczaçılıq, Hərbi tibb, Xarici), 1-dekan müavini (Stomatologiya), 12-şöbə müdiri (İnnovasiya və keyfiyyətin idarə olunması, Beynəlxalq əlaqələr, Tədris departamentinin rəhbəri və 3 şöbə müdiri-Təhsilalanlarla iş şöbəsi, Təhsilverenlərlə

iş şöbəsi, Məzunlarla iş şöbəsi, Ümumi şöbə, Kadrlar, Doktorantura və dissertantura, Rezidentura və Magistratura, Mətbuat, Elmi tibbi tədqiqatların əlaqələndirilməsi şöbəsi), 1-hüquqşünas və 1-Təbib İdman club direktoru, 9-kafedra müdiri (I Mamalıq ginekologiya, II Mamalıq ginekologiya, Məhkəmə təbabəti, Yoluxucu xəstəliklər, Terapevtik stomatologiya, Anesteziologiya və reanimatologiya, İnsan anatomiyası və tibbi terminologiya, Tibbi mikrobiologiya və immunologiya, Ailə təbabəti), 4-rəis (Tibb xidmətinin təşkili və taktikası, Hərbi terapiya, Tibbi profilaktika, Hərbi cərrahiyyə), 23-kafedra müdirinin müavini (Ağciyər xəstəlikləri, Sitologiya, embriologiya və histologiya, II Daxili xəstəliklər, Anesteziologiya və reanimatologiya, I Uşaq xəstəlikləri, I Cərrahi xəstəliklər, III Cərrahi xəstəliklər, Farmakologiya, İctimai fənlər, Normal fiziologiya, Allerqologiya və immunologiya, Oftalmologiya, Tibbi biologiya və genetika, Onkologiya, Farmakoqnoziya, Əczaçılıq toksikologiyası və kimyası, Neyrocərrahiyyə, Fizioterapiya və tibbi reabilitasiya, Kliniki farmakologiya, Əczaçılıq kimyası, Xarici dillər, Dermatovenerologiya, Qidalanma və tibbi ekologiya, ), 1—nəfər (Elmi Tədqiqat Mərkəzi) 8-nəfər kafedra əməkdaşları (Azərbaycan dili, Biokimya, Tibbi və bioloji fizika, Ortopedik stomatologiya, Xarici dillər, Yoluxucu xəstəliklər -2, II Uşaq xəstəlikləri), 1- nəfər İnnovasiya və keyfiyyətin idarə olunması şöbənin əməkdaşı, 1- nəfər-Kadrlar şöbəsinin baş müfəttişi iştirak etmişdilər.

İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin təşkilatçılığı ilə "Effective curriculum/syllabus design" adlı təlim 9 Mart-30 may tarixlərini əhatə edir. Bu təlimdə 88 nəfər iştirak etmişdir. Onlardan 2 nəfər - dekan müavini (II Müalicə profilaktika, Hərbi tibb), 9 nəfər - kafedra müdirinin müavini (Sitologiya, embriologiya və histologiya, Anesteziologiya və reanimatologiya, Xarici dillər, Normal fiziologiya, I Uşaq xəstəlikləri, Qidalanma və tibbi ekologiya, Biokimya, Əczaçılıq texnologiyası və idarəçiliyi, Neyrocərrahiyyə) 1- nəfər Tibb xidmətinin təşkili və taktikası, 1-nəfər Hərbi terapiya, 2- nəfər Ağciyər xəstəlikləri, 4- nəfər Psixiatriya, 1- nəfər- I Daxili xəstəliklər, 2- nəfər II Uşaq xəstəlikləri, 2- nəfər Uşaq cərrahlığı, 4 - nəfər Terapevtik stomatologiya, 1- nəfər- Ortopedik stomatologiya, 2- nəfər Uşaq stomatologiyası, 1- nəfər Ağız və üz-çənə cərrahiyyəsi, 1- nəfər I Mamalıq ginekologiya, 1- nəfər II Mamalıq ginekologiya, 1- nəfər Dermatovenerologiya, 1- nəfər I Cərrahi xəstəliklər, 1- nəfər III Cərrahi xəstəliklər, 2- nəfər Farmakologiya, 6- nəfər İctimai sağlamlıq və səhiyyənin təşkili, 3- nəfər Ailə təbabəti, 3- nəfər Əczaçılıq texnologiyası və idarəçiliyi, 1- nəfər Məhkəmə təbabəti, 2- nəfər Tibbi mikrobiologiya və immunologiya, 1- nəfər Yoluxucu xəstəliklər, 1- nəfər İctimai fənlər, 4- nəfər Normal fiziologiya, 2- nəfər Allerqologiya və immunologiya, 2- nəfər Patoloji fiziologiya, 2- nəfər Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı, 1- nəfər Tibbi biologiya və genetika, 1- nəfər Onkologiya, 3- nəfər İnsan anatomiyası və tibbi terminologiya, 3- nəfər Əczaçılıq toksikologiyası və kimyası, 2- nəfər Tibbi və bioloji fizika, 3- nəfər Patoloji anatomiya, 1- nəfər Əczaçılıq kimyası, 1- nəfər Fizioterapiya və tibbi reabilitasiya, 1-nəfər Kliniki farmakologiya, 4-nəfər Xarici dillər), 1-nəfər şöbə müdiri (İnnovasiya və keyfiyyətin idarə olunması) 1 nəfər İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin əməkdaşı iştirak etmişdilər.

Hərbi-Tibb fakültəsinin PMH həmçinin Milli Müdafiə Universitetinin təşkilatçılığı ilə DEEP proqramı çərçivəsində kurs və təlimlərə qoşulur. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 100 faizinin əsas iş yeri Hərbi Tibb Fakültəsidir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.5. Təlim və tədris resursları*

Azərbaycan Tibb Universiteti elmi, maddi-texniki bazaya malik müasir təhsil ocağıdır. Tədris prosesi universitetin 6 fakültəsinə daxil olan 60 kafedrada həyata keçirilir. Əsaslı, sosial-humanitar profilli kafedralar ümumi sahəsi 42568m2 olan 5 tədris binasında yerləşir. O cümlədən: 5 saylı tədris binası -16050kv.m, 1 saylı tədris binası -5272m2, 2 saylı tədris binası -3457m2, 4 saylı tədris binası -10772m2, 3 saylı tədris binası -7017m2. sahədən ibarətdir. Universitetin praktiki təlimləri müqavilələr əsasında 47 ixtisaslaşdırılmış tibbi müəsisələrdə (klinik bazalarında o cümlədən mama-ginekologiya, yoluxucu xəstəliklər, onkologiya, dermatologiya, oftalomalogiya, vərəm, psixatriya) keçirilir.

Universitetin 32 klinik kafedrasının tədris və elmi prosesi universitetin 4 tədris tibb klinikası (Tədris Onkoloji Klinikası ümumi sahəsi 5360m2, Tədris Cərrahiyyə Klinikası ümumi sahəsi -45000m2 və Tədris Terapevtik Klinikası ümumi sahəsi 25000m2, ) eləcə də Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, 2 saylı Psixatriya xəstəxanası, Respublika Dəri-Zöhrəvi Dispanseri təşkil edilir. Stomatoloji profilli kafedralar Universitetin Tədris Stomatoloji Klinikası binasında yerləşir (ümumi sahəsi -4235m2).

Universitetin Elmi Tədqiqat Mərkəzinin bazası (ümumi sahəsi 3194m2) tədris prosesində iştirak edir.

Universitetin rəhbərliyi ümumi sahəsi 2865,1m2 olan İnzibati binada yerləşir.

Universitetin balansında Nabranda yerləşən 2800m2 sahəsi olan "Təbib" Sağlamlıq Düşərgəsi fəaliyyət göstərir.

Tədris binalarında dərslərin keçirilməsi və tələbələrin gündəlik ehtiyaclarının təmin edilməsi üçün bütün infrastruktur yaradılıb. Auditoriyalar müasir texniki və nümayiş qurğuları ilə təchiz olunub .

Universitet departamentləri və təhsil bölmələri kompüter avadanlığı ilə təmin edilib və internetə çixiş imkanı əldə edir. 1 GB tutumuna malik olan yerli internet şəbəkəsi 300-ə yaxın stasionar kompüterlə özündə birləşdirir. Universitetin fəaliyyətdə olan 4 yataqxanası internetə qoşulmuşdur. Xarici və daxili əlaqələr onlayn vasitəsi ilə edilir.

Tədris prosesinin informasiya komponenti universitetin əsaslı kitabxanası tərəfindən təmin edilir. Ümumi sahəsi 1700 m2 bu kitabxana 5 saylı tədris binasında yerləşir. Oxu zalı 486 m2 sahəsi olan kitabxana 352 oturacaq yerinə malikdir.

Kitabxananın lokal şəbəkəsini 16 kompüter, 1 server, surət çixaran avadanlıq və skanerlər birləşdirir. 2010-cu ildə kitabxana prosesinin avtomatlaşdırılması məqsədi ilə rusiyanın "İRBİS64+" elektron kitabxanası layihəsi əldə edilmişdir.Bu proqram əsasında fondun elektron kataloqunun yaradılması prosesinə başlanılib. Bu proses hazırda da davam etdirilir. Kitabxana fondu (01.06.2023-ci il tarixinə) 437232 yerli və xarici çap nəşrlərinin surətləri o cumlədəm 308835 dərsliklərdən ibarətdir. Kafedralarda 550 nüsxədən ibarət yardımçı fondlar yaradılmışdır.

Universitetin klinik kafedraları 4 Tədris Klinikalarında yerləşir.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə inşa edilməyə başlanılmış və 2013-cü ildə Bakı şəhərində analoqu olmayan 14 mərtəbədən ibarət müasir standartlara cavab verən klinika xəstələrin və müəllim-tələbə heyyətinin istifadəsinə verilmişdir. Klinikamızda demək olar tibbin hər sahəsini əhatə edən şöbələr fəaliyyət göstərir. 24 şöbədən ibarət olan bu Klinikanın 17 kafedrasında iki mindən yuxarı sayda tələbə və rezident təhsil alır.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahi Klinikasının tam avtomatlaşdırılmış Klinik Diaqnostik Laboratoriyası müasir texnologiyaları özündə cəmləşdirən, Almaniya, Yaponiya, ABŞ və Avropanın istehsalı olan referans cihazlarla təchiz olunmuşdur.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 sentyabr 2007-ci il tarixli Sərəncamı əsasında inşa edilən, respublikada analoqu olmayan tədris, elmi-tədqiqat, müalicə və diaqnostika işlərini özündə birləşdirən, unikal bir universitet klinikasıdır. 2007-ci il sentyabr ayının 18-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti,YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın iştirakı ilə klinikanın təməlqoyma mərasimi keçirilmiş, 2010-cu il oktyabrın 1-də isə rəsmi açılışı olmuşdur.

Bu tibb müəssisənin 11 şöbəsində 5 klinik kafedra fəaliyət göstərir.

Klinikada bütün ambulator kartlar, xəstəlik tarixləri, epikrizlər, statistik hesabatlar elektron icra olunur və yuxarı səhiyyə orqanlarına ötürülür. Laborator müayinələrin nəticələri kompüter əsasında çalışan tam avtomat analizatorlar üzərindən dərhal göndəriş verən tibbi müəssisələrə və pasiyentlərin e-mail ünvanlarına göndərilir.

Tibb Universitetin Tədris Onkoloji Klinikası Azərbaycan Respublikasının Nazirlər kabinetinin 23 noyabr 2006-cı il 250 saylı qərarına əsasən yaradılmışdır. Onkoloji klinikanın açılışı 18 iyun 2007-ci ildə olmuşdur.

Həmin ildən Onkologiya kafedrası klinikaya köçürülmüşdür. Klinika müasir zəruri tibbi avadanlıqlarla təchiz edilmişdir və burada onkoloci xəstələrin müasir müayinəsi və müalicəsi üçün zəruri şərait vardır ki, bu da tələbələrə onkologiya fənninin tədrisinin daha da yaxşılaşdırılmasına imkan vermişdir. Hazırda kafedrada 1 akademik, 2 t.e.d., professor, 1 t.e.d., dosent, 6 t.e.n., dosent, 11 t.e.n., assistent və tədris-köməkçi heyət çalışır.

Onkoloji klinika 2 stasionar şöbədən, gündüz stasionarından, poliklinika və diaqnostika şöbəsindən, əməliyyat və anestezioloji şöbədən ibarətdir.

I şöbədə - 40 çarpayı, abdominal onkoloji, torokal onkoloji, onkouroloji və onkoginekoloji xəstələr müalicə olunurlar.

II şöbədə - 42 çarpayı, süd vəzi, baş və boyun nahiyəsinin, dəri, yumşaq toxuma və sümük sisteminin onkoloji xəstələri stasionar müalicə alırlar.

Poliklinika və diaqnostik şöbəsi ambulator xəstələrin qəbulunu və müayinələrini həyata keçirir.

Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikası - Ulu öndər Heydər Əliyevin ATU kollektivinə göstərdiyi qayğı sayəsində 2002-ci ilin sentyabr ayında təşkil olunub. Stomatologiya fakültəsinin bütün profil kafedraları bu klinikada yerləşir. Tədris Stomatoloji Klinikada terapevtik, ortopedik, uşaq stomatologiyası kafedraları ilə bərabər

terapiya, cərrahiyyə, ortopediya, ortodontiya, parodontologiya, implantalogiya, rentgen şöbələri və laboratoriyalar fəaliyyət göstərir. Bu məqsədlə 4 mərtəbəli tədris klinik bina xaricdən və daxildən əsaslı təmir olunub, Yaponiya, Almaniya, Türkiyə, İtaliya, Finlandiya, Slovakiya, Braziliya, Koreya və digər ölkələrin istehsalı olan avadanlıq və yeni stomatoloji qurğuları ilə təchiz olunub.
Klinikada yeni tədris otaqları açılıb, köhnələri müasir stomatoloji klinikanın tələblərinə uyğun əsaslı təmir olunub. Sterilizasiya sistemi köklü sürətdə dəyişdirilərək avtoklavlaşdırma sisteminə keçilibdir. Stomatologiyada istifadə olunan dərman və ləvazimatlar ən müasir standartlara cavab verən aparıcı şirkətlərin məhsulları ilə əvəz olunubdur. Klinikada aparılan tədris, müalicə-profilaktika və epidemioloji fəaliyyətin keyfiyyətinin və səmərəliliyini artırılması və bu fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tələbələr, rezidentlər və gənc həkimlər üçün stomatoloqiyanın müxtəlif sahələrinə əldə olunmuş nailiyyətləri özündə əks etdirən seminarlar təşkil olunubdur.

Hərbi Tibb Fakültəsinində kitabxana və elektron kitabxana fəaliyyət göstərir. İxtisasa uyğun olaraq bacarıq yönümlü təhsilin verilməsi üçün simulyasiya kabineti var, lazımi mulyaj və avadanlıqlarla təchiz olunub və fəaliyyət göstərir.

İstehsalat təcrübəsi Fakültənin klinik bazası olan Müdafiə Nazirliyinin balansında olan hospital, poliklinika və tibb müəssisələrində təşkil olunur. Stajkeçmə qoşunların tibb məntəqələrində və səhra hospitallarında təşkil olunaraq keçirilir. Distant təhsilin təşkili üçün kafedralarda bütün otaqlarda kamera və mikrofonu olan, internet şəbəkəsinə qoşulmuş komputer və barko cihazları quraşdırılıb.

Azərbaycan Tibb Universitetinin Əsaslı kitabxanası tələbələrin istəyini nəzərə alaraq, 2022-ci il may ayından həftənin 3 günü 24 saat, digər günlər isə (bazar günü və bayram günləri istisna olaraq) 12 saat (9.00-21.00) xidmət göstərir. İyul-avqust aylarında – həftənin 5 günü 9.00-17.00 rejimdə fəalliyyət göstərir.

Universitet rəhbərliyi tələbələri yeni işlənmiş, bütün fənlər üzrə tədris prosesinin təşkil edilməsi üçün lazımı ədəbiyyatla təmin edir. Bu baxımdan tələbələrin təminatını məqbul hesab etmək olar.

Pandemiya dövründə ölkəmizin bütün ali məktəblərində olduğu kimi Azərbaycan Tibb Universitetində də həm 2019-2020-ci ilin yaz, həm də 2020-ci ilin payız semestrlərində dərslər onlayn qaydada aparılıb. 2021-ci ilin yaz semestrində Nazirlər Kabinetinin müvafiq qərarı və Təhsil Nazirliyinin təsdiq etdiyi qaydalara uyğun olaraq 3, 4, 5 və 6-cı kurslarda ənənəvi əyani dərslərə başlanıldı. 1 və 2-ci kurslarda isə onlayn dərslər davam etdirildi.

Bu dövrdə digər universitet kitabxanalarından fərqli olaraq Əsaslı Kitabxana tələbələrin dərs yükünün ağırlığını nəzərə alaraq universitet rəhbərliyinin tövsiyyə və göstərişlərinə uyğun olaraq, onların dərsliklərlə təmin olunmasına çalışmışdır. 5 illik tədris illərini əhatə edən hesabatdakı fərq məlum pandemiya dövründə oxucu gəlişinin nisbətən aşağı olması ilə əlaqədardır. Kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti 3,7 təşkil edir.

Ümumi və tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası aşağıdakı cədvəllərdə verilib.

| Tədris ili | Daxil olan dərsliklərin sayı | Fondun ümümi sayı | Artım dinamikası |
|---|---|---|---|
| 2017-2018 | 1932 | 631430 | 0.3 |
| 2018-2019 | 4448 | 636571 | 0,6 |
| 2019-2020 | 4115 | 641204 | 0,6 |
| 2020-2021 | 2536 | 643916 | 0,6 |
| 2021-2022 | 2373 | 641582 | 0,3 |
| 2022-2023 | 1136 | 642125 | 0,3 |

| Tədris ili | Daxil olan kitab sayı | İngilis fondunun ümümi sayı | Artım dinamikası |
|---|---|---|---|
| 2017-2018 | 144 | 64386 | 0,2 |
| 2018-2019 | 186 | 64626 | 0,2 |
| 2019-2020 | 62 | 64634 | 0,2 |
| 2020-2021 | 19 | 64654 | 0,2 |
| 2021-2022 | 58 | 64713 | 0,2 |
| 2022-2023 | 82 | 64748 | 0,2 |

| Tədris ili | Daxil olan kitab sayı | Azərbaycan fondunun ümümi sayı | Artım dinamikası |
|---|---|---|---|
| 2017-2018 | 2133 | 236114 | 0.9 |
| 2018-2019 | 4801 | 240700 | 1.9 |
| 2019-2020 | 4395 | 243008 | 1.8 |
| 2020-2021 | 2851 | 245542 | 1.1 |
| 2021-2022 | 2982 | 245536 | 1,2 |
| 2022-2023 | 1201 | 245804 | 0,4 |

| Tədris ili | Daxil olan kitab sayı | Rus fondun ümümi sayı | Artım dinamikası |
|---|---|---|---|
| 2017-2018 | 539 | 324100 | 0.1 |
| 2018-2019 | 411 | 329459 | 0,1 |
| 2019-2020 | 275 | 329712 | 0,1 |
| 2020-2021 | 200 | 329834 | 0,1 |
| 2021-2022 | 382 | 329402 | 0,1 |
| 2022-2023 | 299 | 329446 | 0,1 |

| Tədris ili | Vahid oxucu bileti üzrə | Oxucu gəlişi | Kitab verilişi | Ümumi fond | Artım dinamika |
|---|---|---|---|---|---|
| 2017-2018 | 11201 | 128906 | 993009 | 631430 | 1,57 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2018-2019 | 10807 | 134241 | 1081993 | 636571 | 1,69 |
| 2019-2020 | 10616 | 139803 | 1094392 | 641204 | 1,70 |
| 2020-2021 | 11056 | 42682 | 717300 | 643916 | 1,11 |
| 2021-2022 | 11300 | 61454 | 776455 | 641582 | 1,21 |
| 2022-2023 | 11795 | 242477 | 1572283 | 642125 | 2,24 |

ATU-nun Əsaslı Elmi Kitabxanası Universitetin aparıcı struktur bölmələrindən biri olub, təlim-tərbiyyə və elmi tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliq edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir.

ATU-nun geniş əhatəli zəngin kitabxanası var. Kitabxananın ümumi sahəsi 1700kv.m (486kv.m oxu zallarının sahəsi). Hər təhsil-alana düşən faydalı sahə 0.05 kv.m. İnternetə qoşulmuş kompüterlərin sayı -16. Kitabxanada 7 şöbə, 10 bölmə, 7 oxu zalı fəaliyyət göstərir. Oxu zalında oxucular üçün ayrılmış yerlərin sayı 352 olmaqla, 1 oxu zalı müəlimlər üçün və 6-sı tələbələr üçün nəzərdə tutulmuşdur. İnformasiyanın əsas mənbəyi 437232 nüsxə saxlama vahidi olan kitabxana fondudur. Kitabxanada 308835 nüsxə dərslik və dərs vəsaiti, 54534 monoqrafiya mövcuddur. Çap şəklində olan kitabların sayı – 436982, elektron kitabların sayı isə 250-dir. Əsaslı kitabxana fondunda bədii ədəbiyyat 8527 ədəd kitabla təmsil olunmuşdur. Təhsilalanların ehtiyaclarını ödəmək üçün digər tədris dillərində də (rus - 329446, ingilis – 64748) ədəbiyyat mövcuddur.

ATU-nun beynəlxalq elmi-metrik bazaya ("EBSCO" elektron kitab bazası) çıxışı mövcuddur.

ATU-nun kitabxanasında fondun yenilənməsi və zənginləşdirilməsi istiqamətində son illər xeyli iş görülmüşdür. Kitabxana fondunun komplektləşdirilməsinin strateji istiqamətləri müəyyənləşdirilmişdir. Tələbə və müəllim heyətinin kitabxanaya olan tələbatını ödəmək üçün müvafiq ixtisas kafedralarının sifarişləri əsasında kitabxana fondu dövrü olaraq yeniləşir, mübadilə əsasında digər Universitet kitabxanaları, dövri nəşrlər, internet resurslarından geniş istifadə olunur. Kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti 3.7-dir. Digər ölkələrin universitetləri ilə beynəlxalq çərçivəsində yeni ixtisaslar (tibb bacısı işi və s.) tədrisi üçün müxtəlif dillərdə dərs vəsaiti və dərsliklər daxil olub. Rezidentlər üçün nəzərdə tutulmuş 8 fənn üzrə 159 nüsxə dərs vəsaiti kitabxanaya daxil olmuşdur.

Bununla belə özünütəhlil komissiyası tədris prosesinin daha dolğun təminatı üçün kitabxananın komplektləşdirilməsi üzrə işləri davam etdirməyi, tədris-metodiki və elmi ədəbiyyatın alınmasına ayrılan vəsaitlərin həcmini artırmağı tövsiyə edir.

Tədris prosesinin informasiya texnologiyaları, proqram vəsaitləri, laboratoriya və xüsusiləşdirilmiş avadanlıqla təminatının kifayət olmasına baxmayaraq, xarici təhsilalanların sayının ilbəil artmasını nəzərə alaraq tövsiyyə olunur ki, kitabxana fondu xarici ədəbiyyatlarla zənginləşdirilsin və texniki avadanlığın sayı çoxaldılsın.

ATU-da bütün fakültələrin tələbələri üçün dünya Anatomiya muzeyləri ilə müqayisə oluna bilən Anatomiya Muzeyi mövcuddur. Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasının anatomik tədris muzeyi 1919-1922-ci illərdə prof. V.İ.Razumovski tərəfindən təşkil edilmişdir. Bu muzeydə tədris əhəmiyyətinə malik olan sümük preparatları kolleksiyası, həmçinin kəllələr və müqayisəli anatomiyaya aid sümük

preparatları toplanmışdı. Bura tez-tez tibb texnikumlarının, rəssamlıq məktəblərinin, orta məktəblərin şagirdləri ekskursiyaya gəlirlər. Anatomiya fənninin tədrisi zamanı anatomiya muzeyi mühüm baza kimi xidmət göstərir. Azərbaycan Tibb Universitetinin anatomiya tədris muzeyi hazırda 6 mindən artıq preparata malikdir. Muzeydə sümük sistemi, oynaqlar və bağlar, eləcə də əzələ sistemləri, mərkəzi və periferik sinir sistemləri ürək-damar sistemi, duyğu orqanları, daxili sekresiya vəziləri, həmçinin müqayisəli anatomiya preparatları şöbələri, diş-çənə sisteminin anatomiyası şöbəsi, teratologiya və kafedranın tarixi şöbələri, əsaslı (fundamental) muzey fəaliyyət göstərir. Kafedranın tarixi şöbəsində müxtəlif illərdə kafedrada çalışmış alim-anatomların portretləri qalereyası yaradılmış, onların elmi-pedaqoji fəaliyyətinin qısa xarakteristikası verilmişdir.

29.09.2014-cü il tarixində Azərbaycan Tibb Universitetinə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən daxil olmuş 11-5870/17 nömrəli məktubunda bildirilmişdir ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin ixtisasları üzrə Təhsil Proqramlarında "Bədən tərbiyəsi və idman" fənni nəzərdə tutulmamışdır.

Bu səbəbdən də 2015/2016-cı tədris ilinin sentyabr ayında "Bədən tərbiyəsi və idman" kafedrası yuxarıda göstərilən əmri rəhbər tutaraq öz fəaliyyətini dayandırıb, yeni Əsasnamə və Tədris Proqramı hazırlayıb "Təbib" idman klubu adı ilə saat hesabı Hərbi Tibb Fakultəsinin I-II-III kurslarına fiziki tərbiyə dərsləri keçməklə yanaşı, məşqçi-müəllimlər öz ixtisasları üzrə müxtəlif idman bölmələri yaradıb, fəaliyyətlərini davam etdirirlər.

2017/2023-cü tədris ilində "Təbib" idman klubu öz iş fəaliyyətini Rektor tərəfindən təsdiqlənmiş Əsasnaməyə uyğun olaraq, illik İş Planı əsasında qurmuşdur. Klubda məşqçi-müəllimlər tərəfindən həftənin şənbə günləri də daxil olmaqla, cədvəl üzrə Hərbi Tibb Fakultəsinin tələbələrinə və Tibb Məktəbinin (Feldşer) I-II kurs kursantlarına fiziki tərbiyə dərsləri keçirilir. Bu illər ərzində "Təbib" idman klubunda 12 idman növü üzrə 11 nəfər yüksək dərəcəli ixtisasçı məşqçi-məllim və 1 kompyuter üzrə operator çalışır. Onlardan 1 nəfər professor, 2 nəfər pedaqogika elmləri üzrə fəlsəfə doktoru, 3 nəfər Respublikanın Əməkdar məşqçisi, 5 nəfər idman ustası, 2 nəfər beynəlxalq dərəcəli hakim, 2 nəfər Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, 1 nəfər Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi fəxri adlarına layiq görülmüş kadrlardır. Klubun məşqçi-müəllimləri hər tədris ilinin sentyabr ayında I kurs tələbələrinin sənəd qəbulunda iştirak edir, tələbələrlə idmanın insan orqanizminə müsbət təsiri haqqında maarifləndirici söhbətlər aparır, eləcədə asudə vaxtlarını səmərəli keçirmək və zərərli vərdişlərdən uzaqlaşdrmaq üçün həvəsi olan tələbələri idman bölmələrinə cəlb edirlər. Tərbiyəvi işlə əlaqədar olaraq Klubda tələbələrin məşğul olduğu idman bölmələrində onların davranışlarına məşqçi-müəllimlər tərəfindən nəzarət olunur, fiziki tərbiyə dərslərinə və təlim məşğələlərinə müntəzəm gəlmələrinə və həmişə idman formasında olmalarına diqqət ayrılır. Daimi olaraq nizam-intizam qaydaları, təlim-tərbiyə, tələbə etikası, Vətənpərvərlik mövzusunda və fiziki tərbiyənin sağlamlaşdırıcı və inkişafetdirici əhəmiyyəti barədə söhbətlər aparılır.

MƏDƏNİ VƏ KÜTLƏVİ İDMAN TƏDBİRLƏRİ:

2017/2021-cİ tədris illərində "Təbib" idman klubu, ali təhsil müəssisələri arasında keçirilən Universiada və Spartakiada yarışlarında iştirak edirdilərsə, 2021/2022-ci tədris ilindən ATU-da bir çox mədəni və kütləvi idman tədbirləri təşkil olunmağa başlamışdır.

Belə ki, 2021-ci ilin oktyabr ayında 44 günlük Vətən müharibəsində ATU-nun məzunları olmuş şəhidlərimizin "Anım günü" tədbiri keçirilmişdir. Bədii hissədə ATU-nun Teatr Klubunun ifasında Şəhid olmuş hərbi həkimlərimizə həsr olunmuş ssenari əsasında teatr səhnəsi göstərilmişdir. Tədbirin sonunda döyüşlər zamanı arxa cəbhədə fəal iştirak etmiş HTF-nin VI kurs kursantlarına Təşəkkürnamələr təqdim olunmuşdur. 2021-ci ilin dekabr ayında "ATU-nun 90 illik yubileyi"nə həsr olunmuş müxtəlif idman növləri arasında idman yarışları keçirilmişdir. İdman tədbirinin mükafatlandırma mərasimində universitetin fakültə dekanları iştirak etmiş, qalib olan tələbə idmançılar Rektor tərəfindən verilən medal, diplom və kuboklarla təltif olunmuşlar. 2022-ci ilin yanvar və fevral aylarında "Gənclər günü"nə və "Xocalı soyqırımına" həsr olunmuş oğlanlar və qızlar arasında Şahmat, Stolüstü tennis və Badminton turniri keçirilmişdir. Turnirin sonunda qalib olan tələbə idmançılar Klubun medal və diplomları ilə  təltif olunmuşlar. 05 mart Respublikamızda "Bədən tərbiyəsi və idman günü" ilə əlaqədar Nəsimi rayon Gənclər və İdman İdarəsi ATU-nun birgə təşkilatçılığı ilə Badminton, Stolüstü tennis, Şahmat və Futzal üzrə yarışlar təşkil etmişdir. İki gün davam edən bu yarışlara ATU tələbələrindən əlavə digər 7 universitetin də tələbələri qatılmışdır. Təntənəli açılış mərasimində Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi və digər qonaqlar iştirak etmişdir. Yarışların sonunda qalib olan tələbə idmançılar "Təbib" idman klubu və Nəsimi rayon Gənclər və İdman İdarəsi tərəfindən verilən medal, diplom və kuboklarla təltif olunmuşlar. Mart ayında "Novruz bayramı"na həsr olunmuş Stolüstü tennis turniri keçirilmişdir. Turnirdə Stolüstü tennis federasiyasının baş katibi Könül Mikayılova iştirak etmişdir. Qalib olan tələbə idmançılar "Təbib" idman klubu adından medal və diplomla təltif olunmuşlar. Aprel ayında Bakı şəhər Gənclər və İdman Baş idarəsi ilə birgə "Aprel şəhidlərinin xatirəsinə" həsr olunmuş Badminton turniri keçirilmişdir. Qalib olan tələbə idmançılar "Təbib" idman klubunun medal və diplomları ilə təltif olunmuşlar. 26 aprel tarixində Tədris İdman Kompleksində "Narkomaniyaya yox deyək" mövzusunda geniş tədbir keçirilmişdir. Tədbir iki hissədən ibarət olmuşdur. Tədbirin birinci hissəsində ATU-nun Tərbiyə işləri üzrə prorektoru dosent Zülfüqar Musabəyov, Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) hüquqşünası Gülnaz Ələsgərova, Gənclər və İdman Nazirliyinin seleksiya üzrə baş mütəxəssisi Elvin Zeynallı, ATU-nun Psixiatriya kafedrasının dosenti Araz Manuçeri Lalei, Bakı şəhəri Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkimi, psixiatr Ramil Hüseynzadə məruzə ilə çıxış edərək narkomaniyaya qarşı mübarizədə önəmli məqamlardan danışdılar. Mövzu ilə əlaqədar maarifləndirici videoçarxlar nümayiş etdirildikdən sonra ATU-nun Teatr Klubunun ifasında "Bir idmançının taleyi" tamaşası təqdim olundu.  15 may tarixində Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Küləyə qalib gəl" şüarı altında Bakı marafonu-2022 beynəlxalq yarışı keçirilmişdir. 15 min iştirakçı arasında ATU tələbələrindən 94 nəfər 21 km-lik məsafəni qət edərək finişə çatmış, onlardan 25 nəfəri ilk min nəfər içərisində olmaqla medal və sertifikata layiq görülmüşlər. Yarışdan sonra Tədris İdman Kompleksində finişə çatmış 94 nəfərin iştirakı ilə 25 nəfər medal qazanan tələbələrin mükafatlandırma mərasimi  təşkil edilmiş və həmin tələbələrə ATU və Nəsimi rayon Gənclər və İdman İdarəsi adından "Təşəkkürnamə"lər təqdim olunmuşdur. İlin yekunu olaraq 28-31 may tarixlərində Azərbaycan Tibb Universiteti və Nəsimi rayon Gənclər və İdman İdarəsi ilə birgə ali təhsil müəssisələrinin tələbələri

arasında “Zəfər festivalı” adlı 7 idman növündən turnir təşkil olunmuşdur. Turnirə Bakının 10 universitetindən 290 tələbə idmançı qatılmışdır.
2022/2023-cü tədris ilinin 5-6 oktyabr tarixlərində ATU-da “Müəllimlər günü”nə həsr olunmuş professor–müəllim heyəti arasında şahmat turniri keçirilmişdir. 27.10 – 03.11.2023 tarixlərində Tələbə Baksetbol Liqasının seçmə mərhələsində ATU-nun basketbol yığma komandası uğurla iştirak etmiş və yarımfinal mərhələsinə yüksəlmişdir. 31 oktyabr və 2 noyabr tarixində ATU-da “Zəfər günü”nə həsr olunmuş tələbələr arasında Futzal, Badminton və Stolüstü tennis yarışları keçirilmişdir. Yarışların sonunda qaliblər ATU tərəfindən verilən medal və diplomlarla təltif olunub. Noyabrın 19-da ATU-nun və Nəsimi rayon Gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə ilk dəfə pilot layihə olan hərbi-idman yarışları keçirilib. Yarışlarda HTF-nin 110 tələbəsi iştirak edib. Bu yarışlarda idman normativləri ilə yanaşı, yaralı əsgərlərə ilkin tibbi yardımın göstərilməsi üçün nəzəri və təcrübi suallarda salınmışdır. Yarışın qalibləri ATU-nun və Nəsimi rayon Gənclər və İdman İdarəsinin təşkil etdiyi medal və diplomlarla təltif olunub. 6 dekabr tarixində ATU-da psixiatr dr.Ramil Hüseynzadənin “Müasir dövrdə tələbələrin psixologiyası” mövzusunda seminar keçirilmişdir. Seminarda 200-dən çox tələbə iştirak etmiş, 10-dan çox tələbənin psixoloji, ailə münaqişəsi və şəxsi mövzularda sualları cavablandırılmış, bəzi tələbələrin isə problemləri klinik səviyyədə həll olunması tövsiyə olunmuşdur. Dekabr ayında Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, Nəsimi rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə ATU tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş Stolüstü tennis, Şahmat və Basketbol turniri keçirilmişdir. Qaliblər ATU-nun və Nəsimi rayon Gənclər və İdman İdarəsi tərəfindən verilən medal və diplomlarla təltif olunmuşlar. 2023-cü ilin fevral ayında “Gənclər günü”nə və “2023-cü il Heydər Əliyev ili” çərçivəsində Nəsmi rayon Gənclər və İdman idarəsinin və “Təbib” idman klubunun təşkilatçılığı ilə tələbələr arasında Stolüstü tennis və ATU-nun professor-müəllimləri arasında isə Şahmat turniri keçirilmişdir. Turnirin sonunda qaliblər “Təbib” idman klubunun medal və diplomları ilə təltif olunub. 2023-cü ilin mart və aprel aylarında Azərbaycan Respublikası Gənclər və İdman, Elm və Təhsil Nazirlikləri və “Gənclik” Tələbə İdman Cəmiyyətinin birgə təşkil etdiyi Ali Təhsil Müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş kişilər və qadınlar arasında Şahmat, Dama, Voleybol, Badminton və Stolüstü tennis yarışları keçirilmişdir. Bu yarışlarda ölkənin 25-dən çox ali təhsil müəssisəsi iştirak etmişdir. ATU-nun yığma komandası bu yarışlarda rəqiblərinə qalib gələrək, xal hesabına görə ali təhsil müəssisələri arasında keçirilən Universiadanın qalibi olmuşdur. 2023-cü ilin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının birgə təşkil etdiyi ali və orta ixtisas təhsili müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş futzal yarışları keçirilmişdir. Bu yarışlarda ölkənin 30-dan çox ali və orta ixtisas təhsili müəssisəsinin tələbələri iştirak etmişdir. ATU-nun yığma komandası bu yarışlarda yalnız 1/8 final mərhələsinə qədər irəliləyə bilmişdir. Yarışlar bitdikdən sonra Bakı İdman Oyunları Sarayında təntənəli bağlanış mərasimi keçirilmişdir. Azərbaycan Tibb Universitetinin “Təbib” idman klubunun sədri Qələndər Aslanov yarışların keçirilməsində və təşkilati işlərə yaxından köməkliyinə görə Təhsil Nazirinin müavini Firudin Qurbanov tərəfindən Təşəkkürnamə ilə təltif olunmuşdur. Keçirilən idman yarışlarından sonra, təlim məşğələlərinin səviyyəsinin daha keyfiyyətli olması ilə əlaqədar, fəaliyyət göstərən idman

növləri üzrə bölmələrdə aprel ayı ərzində nümunəvi təlim məşğələləri (nümunəvi dərs) keçirilmişdir. 07 may 2023-cü il tarixində Heydər Əliyev fondunun təşkilatçılığı ilə “Küləyə qalib gəl” şüarı altında beynəlxalq Bakı marafonu keçirilmişdir. Bu marafonda iştirak etmək üçün ATU-nun 232 tələbəsi qeydiyyatdan keçmişdir. Ümumilikdə 19.800 marafon iştirakçısı arasında ATU-nun 32 nəfər tələbəsi 21 km.lik məsafəni ilk minlikdə qət edərək, medal və diploma laiq görülmüşlər.

**ATU-nun Tədris İdman Kompleksinin təyinatı:**

Beşmərtəbəli binanın ümumi sahəsi - **5812 $m^2$**

**beşmərtəbəli binanın zirzəmisi:**

- yüngül atletika maneji;
- ağır atletika zalı:

**birinci mərtəbə:**

- Paltardəyişmə otaqları (oğlanlar və qızlar üçün ayrı-ayrı);
- Sanitar qovşağı (kişi, qadın);
- Çinar rəqs ansablı üçün otaqlar;
- Şahmat klubu.

**İkinci mərtəbə**

- 180 nəfərlik akt zalı;
- Karate zalı;
- Voleybol zalı;
- Badminton zalı;
- İki köməkçi otaq və sanitar qovşağı;
- Tibb məntəqəsi.

**Üçüncü mərtəbə**

- Güləş zalı;
- Müəllim otağı, kino aparatura otağı.

**Dördüncü mərtəbə**

- Basketbol, futzal oyun zalı;
- Cüdo zalı;
- Müəllimlər otağı

**Beşinci mərtəbə**

- Stolüstü tennis zalı;
- Binada iki ədəd lift var.

**Üzgüçülük hovuzunun təyinatı:**

Üzgüçülük hovuzunun ümumi sahəsi - **1683 $m^2$**

- Böyük altı zolaqlı vanna; ölçüsü 25 x 16 metr;
- Paltardəyişmə otaqları (qadınlar və kişilər üçün);
- Duş kabinələri (qadınlar və kişilər üçün);
- Tibbi otaq;
- Trenajor zalı;
- Sauna;
- İnzibati və köməkçi otaqlar.

Üzgüçülük hovuzunun böyük vannası təmir olunduğu üçün fəaliyyət göstərmir.

Sosial dəstək çərçivəsində ATU-da aşağıda qeyd olunan tələbə kateqoriyalarına planlı yardım göstərilir.

ATU-da sağlamlığında qüsuru olan (1-ci və 2-ci qrup əllik) 10 tələbə ödənişli əsaslarda təhsil alır. Bu tələbələr təhsil haqqı ödənişindən azad olunmuşlar. 15 tələbə Valideyn Himayəsindən Məhrum (VHM) sosial qrupuna aiddirlər. Bu kateqoriyada olan tələbələrə aşağıdaki qaydalara müvafiq sosial dəstək göstərilir:

- ödənişli əsaslarla təhsil aldıqda təhsil haqqından azad olunur.
- Bununla yanaşı topladığı bala uyğun 2 misli miqdarında təqaüd və 50 manat maddi yardım alır ( ildə bir dəfə birdəfəlik dərslik və dərs ləvazımatı əvəzinə). ÜOMG sıralamasına adı düşdükdə, müvafiq miqdarda təqaüd ödənilir.
- Universiteti bitirdikdə yaşı 23 tamam olmayıbsa, mövcud qanunvericiliyə görə ATU-nun xərclər smetası hesabına respublika üzrə əmək haqqının 2 mislindən az olmamaqla, birdəfəlik pul vəsaiti ilə, eyni zamanda 265 manat (mövsümü paltar və ayaqqabı) maddi yardım verilir.

ATU-da həmçinin Qaçqın və məcburi köçkün ailələrin övladları (192 tələbə), şəhid, müharibə əlili, qazi övladları (34 tələbə) təhsil alır. Bu qrup tələbələr təhsil haqqı ödənişindən azad olunmuşlar.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

Tələbələrin bilik, bacarıq və səriştələrin qiymətləndirilməsi aşağıdakı səviyyələrdə baş verir: praktik və yekun məşğələlərdə cari qiymətləndirmə; aralıq qiymətləndirmə - imtahanlar; Buraxılış Dövlət İmtahanı. Qeyd edək ki, 2019-20-ci tədris ilində COVID-19 pandemiyası ilə əlaqədar universitetin Elmi Şurasının qərarı ilə buraxılış imtahanları ləğv edilib, qiymətləndirmə üçün tələbələrin ÜOMG-si nəzərə alınıb. 2020-21-ci illərdə isə qiymətləndirmə əvvəlki qaydalara əsasən keçirilib.

Situasiya tapşırıqlarının bazası daim yeni klinik tövsiyələrin və qayğı standartlarının tətbiqinə uyğun olaraq yenidən nəzərdən keçirilir.

Təcrübə məşğələlərində tələbələrin biliyinin müəllimlər tərəfindən qiymətləndirilməsi Azərbaycan Respublikası Təhsil Nazirinin təsdiq etdiyi 11.09.2008-ci il tarixli 1060 nömrəli Əsasnaməyə uyğun olaraq tələbələrin kredit sistemi üzrə nailiyyətlərinə cari nəzarət və nəticələr tələbə qrupu jurnalında, müəllimin ETS jurnalında. ETS (Elektron Tədris Sistemi) - nəzəri və praktik biliklərin qiymətləndirilməsinin, davamiyyətin, sərbəst işlərin yerləşdirilməsinin, tədris materialının, pandemiya zamanı interaktiv dərslərin, imtahan nəticələrini əks etdirən elektron təhsil sistemi.

Tələbələrin qiymətləndirilməsi formativ və summativ qiymətləndirmədən ibarətdir və 100 ballıq sistem üzrə aparılır. Bunun 50 balı - imtahanqabağı qiymətləndirmə, 50 - imtahan. Əsas fənlər üzrə imtahan öncəsi ballar aşağıdakı kimi qiymətləndirilir:

Sərbəst işlərin qiymətləndirilməsi təqdimatlar, video materiallar, xüsusi iş dəftərləri, habelə referatlardan (esse və ya layihə) istifadə etməklə həyata keçirilir. Maksimum 10 balla qiymətləndirilir.

Klinik fənlər üzrə imtahandan əvvəl qiymətləndirmə aşağıdakı kimi aparılır. 2020/2021-ci tədris ilinə qədər nəzəri biliklərin qiymətləndirilməsi tələbənin sorğusu əsasında müəllim tərəfindən həyata keçirilirdi (təqvim-mövzu planına uyğun olaraq). Maksimum 20 balla qiymətləndirilirdi (Ballar cari qiymətlərin cəmi olaraq sayına bölünüb 2-yə vurulurdu). Hal-hazırda nəzəri biliklər yalnız Aralıq qiymətləndirmə əsasında aparılır. Praktik bacarıqlara anamnezin toplanması, xəstənin müayinəsi, manipulyasiyaların aparılması, instrumental və laborator tədqiqat metodlarının düzgün şərhi, xəstəlik tarixinin yazılması qaydaları daxil idi. Maksimum 10 balla qiymətləndirilirdi. Sərbəst iş. Tələbə sərbəst işin mövzusunu seçərək onun məzmunundan asılı olan təqdimat şəklində təqdim edir. Müəllim bu mövzuda əlavə sorğu keçirdikdən sonra tələbəni qiymətləndirir. Maksimum 10 balla qiymətləndirilir.

Tələbələrin davamiyyəti mühazirə və praktik məşğələlərdə iştirakına görə qiymətləndirilir. Hər bir fənn üzrə saatların sayının təxmin edilməsi hər bir fənn üzrə fərqlidir. Tələbənin mühazirələrin 40%-nı və praktik məşğələlərin 20%-nı buraxması imtahana buraxılmamasıdır. Maksimum 10 balla qiymətləndirilir. 2022/2023-cü tədris ilindən başlayaraq tələbə davamiyyət üzrə qiymətləndirilmir, lakin yuxarıda qeyd olunan faizlər nəzərə alınır və bu meyarlara əsasən tələbə imtahana buraxılır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11 sentyabr 2008-ci il tarixli 1059 nömrəli "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında Əsasnamə"yə uyğun olaraq imtahanların təşkili və imtahan nəticələrinin qiymətləndirilməsi mexanizmi Azərbaycan Tibb Universitetində aşağıdakı kimi müəyyən edilir:

- Hər variantda tələbəyə 50 sual (əvvəlki proqram), yeni proqram üçün 25 sual,
- Tələbəyə hər bir fənn (əvvəlki proqram) üzrə imtahan üçün 60 dəqiqə, yeni proqram üzrə 40 dəqiqə vaxt verilir,-
- hər düzgün cavab 1 (bir) (əvvəlki proqram), yeni təqdim olunmuş proqram üzrə 2 (iki) balla qiymətləndirilir;
- səhv və cavabsız suallara 0 (sıfır) bal verilir,
- Tələbənin imtahan nəticələrini kompüterdə hesablamasından əldə edilən yekun nəticə ən yaxın tam ədədə yuvarlaqlaşdırılmaqla (yəni 16,5≈17,0) götürülür.
- İmtahanqabağı qiymətləndirmənin 50 bal olmasına baxmayaraq, imtahan qiyməti 17 baldan aşağı olan tələbədə fənn üzrə kredit borcu yaranır;
- 51-dən az bal toplayan tələbədə həmin fənn üzrə kredit borcu yaranır.

Tələbələrin mənimsəməsinin qiymətləndirilməsi BQS (ballı qiymətləndirmə sistemi) əsasında aparılır. Hər bir praktiki məşğələdə tələbələrin bilik və bacarıq qiymətləndirilir.

Kritik vəziyyətlərdə ilk tibbi yardım, təcili tibbi yardım və təcili yardımda praktik bacarıqların inkişafının qiymətləndirilməsi OSKİ (Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan) prinsiplərinə uyğun olaraq keçirilir.

Müalicə-profilaktika fakültələrində buraxılış kursu üzrə Yekun Dövlət İmtahanlarının keçirilməsi aşağıdakı qayda ilə aparılır.

Yekun Dövlət Attestasiyası "Cərrahi xəstəliklər", "Mamalıq-ginekologiya" və "Daxili xəstəliklər" ixtisası üzrə aparılır.

Buraxılış kursu və məzun olmağa namizəd tələbə kontingentində saxlanılan tələbələrin Yekun Dövlət Attestasiyası hər fənn üzrə 2 mərhələdə aparılır. Belə ki, hər fənn üzrə əvvəlcə beynəlxalq standartlara uyğun olaraq bacarıq imtahanı – Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) aparılmış, sonra isə virtual test mərkəzində test (nəzəri) imtahanı keçirilmişdir. Hər mərhələ 50 balla qiymətləndirilmişdir. Sonda hər fənn üzrə bacarıq imtahanı ilə test imtahanlarının nəticələri toplanmış və tələbənin imtahan nəticəsi müvafiq qaydada 100 ballıq sistemlə qiymətləndirilmişdir.

"Daxili xəstəliklər" və "Cərrahi xəstəliklər" ötən ildəki kimi Seçenov adına birinci Moskva Tibb Universitetinin Bakı filialının Simulyasiya Mərkəzində keçirilib və bu ildən Mamalıq-ginekologiya ixtisası üzrə bacarıq imtahanları orada aparılmışdır.

Cərrahi xəstəliklər, Mama-ginekologiya və Daxili xəstəliklər ixtisasları üzrə hər fənn iki məntəqədən aparılaraq, hər məntəqə maksimal 25 balla qiymətləndirilərək yekun 50 bal olmuşdur. Müvafiq ixtisasların nəzəri hisssələri Virtual Test Mərkəzində hər fənn üzrə maksimal 50 balla qiymətləndirilərək test şəklində aparılır (tələbənin topladığı yekun bal 100 olur).

Stomatologiya fakültəsində buraxılış imtahanı aşağıdakı qayda ilə həyata keçirilir.

2022/2023-cü tədris ilində Stomatologiya fakültəsində keçirilən Dövlət Attestasiyası üzrə yekun Buraxılış imtahanları bir qayda olaraq 3 fənn üzrə (ağız və üz-çənə cərrahiyyəsi, terapevtik stomatologiya və ortopedik stomatologiya) təşkil olunub. "Stomatologiya" ixtisası üzrə Buraxılış imtahanları iki (OSKİ və test üsulu ilə) mərhələdə keçirilir.

Birinci mərhələdə "Ağız və üz-çənə cərrahiyyəsi", "Terapevtik stomatologiya" və "Ortopedik stomatologiya" fənləri üzrə Obyektiv Strukturlaşdırılmış Kliniki İmtahanları (OSKİ) keçirilir. Burada üç fənnin hər biri üzrə 10 məntəqə yaradılır. Onlardan 9-u qeyd olunan fənn üzrə, 1 məntəqə isə uşaq cərrahiyyəsi, uşaq terapiyası və uşaq ortodontiyası üzrə yaradılır, tələbələrin bilik və bacarıqları yoxlanılır. Tələbə hər bir məntəqədə təcrübi suallara aid bacarıqları real şəraitdə, əyani surətdə Dövlət yekun buraxılış İmtahan Komissiyası üzvlərinə nümayiş etdirir və hər bir məntəqədə 5 balla qiymətləndirilir. Nəticədə tələbə minimum 17 bal, maksimum 50 bal olaraq qiymətləndirilir.

İkinci mərhələdə "Ağız və üz-çənə cərrahiyyəsi", "Terapevtik stomatologiya" və "Ortopedik stomatologiya" fənləri üzrə Virtual Test mərkəzində kompüterlər vasitəsilə nəzəri imtahanlar keçirilir. Nəzəri imtahanda tələbənin topladığı balın miqdarı minimum 17 bal, maksimum 50 bal olaraq qiymətləndirilir.

Nəticədə tələbənin həm təcrübi (OSKİ), həm də nəzəri (test) imtahanlarda toplanan balları cəmlənərək minimum 51, maksimum 100 bal olmaqla qənaətbəxş hesab edilir. Tələbə Azərbaycan Respublikası Təhsil Nazirinin Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında «Əsasnamə»-nin tələblərinə uyğun olaraq qiymətləndirilir.

Əczaçılıq fakültəsinin imtahanları xüsusi qaydalara müvafiq həyata keçirilir. 2018-ci ilə qədər Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin tələbələrinin biliklərinin dövlət attestasiyası Buraxılış işlərinin müdafiəsini həyata keçirən Buraxılış Dövlət Attestasiya Komissiyasının rəhbərliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirinin 11.09.2008-ci il tarixli 1060 saylı əmri ilə təsdiq olunmuş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"nin 9-cu bəndinə, Azərbaycan Respublikası Təhsil Nazirinin 27.01.97-ci il tarixli 54 saylı əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Ali təhsil tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında" Əsasnaməyə, Səhiyyə Nazirinin 16.05.2017-ci il tarixli 33 saylı əmrinə (hər il üçün yeni əmr olur), ATU rektorunun 30.03.2017-ci il tarixli 136/T saylı əmrinə (hər il üçün yeni əmr olur) müvafiq olaraq tələbələr tərəfindən 5 ixtisas fənni üzrə buraxılış elmi işlərinin müdafiəsi ilə həyata keçirilirdi.

2019-2020-ci illərdə pandemiya səbəbindən əczaçılıq fakültəsinin tələbələri üçün buraxılış işlərinin müdafiəsi, yaxud dövlət imtahanları təşkil olunmamışdır.

2021-ci ildən hal-hazıra kimi Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin tələbələrinin biliklərinin dövlət attestasiyası Dövlət Attestasiya Komissiyasının rəhbərliyi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Ali təhsil pilləsinin dövlət standartı proqramı"nın təsdiq edilməsi haqqında" 2010-cu il 23 aprel tarixli 75 nömrəli, "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarlarını, Azərbaycan Respublikası Təhsil Nazirinin 27.01.1997-ci il tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 30.10.1996-cı il tarixində nömrə 26 ilə qeydə alınmış "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"yə müvafiq olaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirinin "Azərbaycan Tibb Universitetinin 2023 il (hər il yeni əmr olur) üçün Dövlət Attestasiya Komissiyalarının sədrlərinin təyin edilməsi haqqında" 19.05.2023-cü il tarixli (ilə görə tarix dəyişir) 3-28/3-1-285/2023 №-li əmrini əsas tutaraq tələbələrin təhsil aldıqları müddət ərzində yiyələndiyi praktik bacarıqlarını 5 ixtisas fənni üzrə bacarıq (OSKİ) imtahanları, nəzəri biliklərini isə test üsulu ilə virtual test imtahan mərkəzində imtahanlar təşkil etməklə həyata keçirildi.

Növbəti 2023-2024-cü tədris ilində buraxılış kurslarında tələbələrin biliklərinin dövlət attestasiyası heç bir formada nəzərdə tutulmur.

İctimai səhiyyə fakültəsi, Tibbi profilaktika ixtisası üzrə dövlət imtahanlarının Dövlət Attestasiya Komissiyası tərəfindən keçirilməsinin qaydaları aşağıdakı kimidir.

Bu ixtisas üzrə tələbələr üçün Dövlət Attestasiya imtahanları 2 mərhələdə keçirilir.

I mərhələdə - Fənn üzrə tələbələrin təcrübi bacarıqları Obyektiv Strukturlaşmış Praktik İmtahan (OSPİ) üsulu ilə imtahan edilərək qiymətləndirilir. Bu mərhələ, maksimum 50 balla qiymətləndirilir; 5 tapşırıq hər biri 10 balla (50 bal),10 sual olarsa hər biri 5 balla ( 50 bal) qiymətləndirilir.

Məsələn, Gigiyena fənni üzrə OSPİ 10 tapşırıq –hər biri 5 bal

Epidemiologiya fənni üzrə OSPİ 5 tapşırıq – hər biri 10 bal

II mərhələdə - Birinci mərhələni uğurlu verən tələbələr ikinci mərhələni imtahan mərkəzində test üsulu ilə kompyuter vasitəsilə qiymətləndirilir, 25 sual hərəsi 2 balla qiymətləndirilir, maksimum 50 bal olur.

Fənn üzrə ümumi qiymət balı təcrübi bacarıqlardan və nəzəri biliklərdən kompyuter vasitəsilə toplanaraq maksimum 100 balla qiymətləndirilir.

BQS-nin nəticələri (cari, aralıq qiymətləndirmə) müəllimin elektron jurnalında əks etdirilir. Hər bir tələbənin ATU-da təhsil aldığı bütün dövr ərzində təhsil fəaliyyəti haqqında məlumatı özündə əks etdirən şəxsi informasiya (portfolio) TMS-də (Tələbə Məlumat Sistemi) yerləşdirilir.

Azərbaycan Tibb Universitetinin İmtahan Mərkəzi (köhnə adı Virtual Test Mərkəzi) 2011-ci ildən fəaliyyət göstərir.

Müxtəlif proqram təminatları ilə işləyən İmtahan Mərkəzi tələbə, rezidentlər üçün imtahanlar təşkil edir. Eyni zamanda 200 tələbənin imtahan verə biləcəyi İmtahan Mərkəzi iki mərtəbəli böyük zallardan ibarətdir.

Dünyanın bir sıra aparıcı universitetlərində istifadə olunan "Moodle" proqram təminatı 2016-cı ildən Tibb universitetində istifadə olunur. Adı çəkilən proqram təminatı vasitəsi ilə tədris prosessi avtomatlaşdırılaraq elektron tədris sistemi formalaşmışdır. Boloniya sisteminə uyğun olaraq tələbə imtahana qədərkən qiymətləndirmə ballarını elektron sistemdə görür. Tədrisin məntiqi davamı olan imtahandan dərhal sonra, imtahan balı ilə imtahan öncəsi qiyməti toplanır və dərhal elektron sistemə yerləşir.

İmtahana hazırlaşmaq üçün tələbənin elektron səhifəsinə nümunəvi test tapşırıqları yerləşdirilir. Qeyri-ixtisas fənnləri istisna olmqla, digər fənnlərdə açıq tipli test tapşırıqlarından istifadə olunur. Bu tapşırıqlar da, yüksək qiymət almağa çalışan tələbələr üçün nəzərdə tutulub.

Ümumilikdə 50 bal olmaqla, imtahan vaxtı tələbəyə 25 test tağşırığı verilir. Hər bir tələbə cədvələ uyğun olaraq, imtahan saatında zala daxil olur, istifadəçi adı və parolunu daxil edərək imtahan səhifəsinə keçid edir. 40 dəqiqə ərzində 25 suala cavab verməklə imtahanı bitirmiş olur. İmtahan vaxtı hər hansı bir test tapşırığından narazıçılığı olan tələbə həmin test sualını işarələməklə appelyasiyaya müraciət edə bilir. Son illər ərzində İmtahan Mərkəzində Aralıq qiymətləndirmə imtahanları keçirilir.

Bundan əlavə Respublika üzrə Rezidentura təhsil pilləsində oxuyan rezidentlərin, həmçinin doktorantura təhsilində tədris alanların minimum imtahanları da, Azərbaycan Tibb Universitetinin İmtahan Mərkəzində təşkil olunur.

Bakalavr təhsil səviyyəsində semestrdə imtahanların sayı bir qayda olaraq 7-8-dən çox deyildir.

Rezident və magistrların cari qiymətləndirməsi təhsil aldığı müddətdə ATU-nun İmtahan Mərkəzində imtahanlar nəticəsi əsasında aparılır. Bu proses tədris hissəsindən Rezidentura və Magistratura şöbəsinə əvvəlcədən göndərilən əmrin əsasında həyata keçirilir.

Rezidentura pilləsində təhsil alanlar İmtahan Mərkəzində test vasitəsilə imtahan verirlər. Dövri attestasiya yazılı test formasında həyata keçirilir və rezident 2 (iki) saat ərzində 50 test sualına cavab verir. Test suallarına hər düzgün cavab 2 (iki) balla qiymətləndirilir. Səhv cavablar və ya sualın cavabsız qoyulması sıfır bala

bərabərdir. Testin yekununa görə 60 və ya daha çox bal toplayan rezidentlər dövri attestasiyadan keçmiş hesab olunurlar. Dövri attestasiyadan keçə bilməyən rezidentlər 1 (bir) aydan tez olmayaraq, növbəti 2 (iki) ay müddətində təkrar attestasiya edilirlər. Rezidentlər ixtisas üzrə müəyyən edilmiş müddətə uyğun olaraq ölkədaxili və ölkəxarici tibb müəssisələrində rotasiya keçirlər.

Magistratura pilləsində təhsil alanlar cari qiymətləndirmədə ixtisas fənləri üzrə şifahi, qeyri ixtisas fənləri üzrə test imtahanı verirlər. Təhsilin sonunda magistrlik dissertasiyasını müdafiə edirlər.

Kafedralar fənlər üzrə tədris prosesinin təşkilində fənlərin xüsusiyyətlərini nəzərə almaqla tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün geniş spektrli metodlardan istifadə edirlər.

ATU-da cari, aralıq və yekun qiymətləndirmə üçün tətbiq olunan bütün metodların (müsahibə sualları, peşəkar yönümlü situasiya tapşırıqları, testlər) etibarlılığının yoxlanılması prosedurundan istifadə edilir. Beləliklə, məzmunun əsaslılığının və qiymətləndirmə metodlarının uyğunluğunun əsaslılığının müəyyən edilməsi proseduru bir neçə mərhələdə həyata keçirilir: əvvəlcə kafedranın iclasında, sonra aparıcı müəllimlər tərəfindən yoxlanılması prosesində, sonra kafedrada müzakirə zamanı. Test tapşırıqlarının etibarlılığının yoxlanılması hər bir test tapşırığının mürəkkəbliyinə nəzarət və ədəbiyyata uyğunluq əsasında aparılır. Testlərin etibarlılığının qiymətləndirilməsi ilə bağlı bütün məlumatlar ATU-nun Test Mərkəzində toplanır və hər sessiyadan sonra kafedralar tərəfindən təhlil olunur. Tələbə imtahanların nəticələri ilə razılaşmadıqda, apellyasiya komissiyasına şikayət vermək hüququna malikdir. Müvafiq fənn üzrə ekspertlər tələbənin test/sualla bağlı şikayət ərizəsinə baxır və öz qərarını verir. Bu tədbirlər ümumiləşdirilir, təhlil edilir və Universitetin Elmi Şurasının müzakirəsinə verilir. Nöqsanların aradan qaldırılması üçün imtahanın qiymətləndirilməsi üsulları daim korreksiya edilir.

Qiymətləndirmənin metodları və nəticələri fənlərin təqvim və tematik planına uyğun olaraq həyata keçirildiyi üçün maraqların toqquşmasını aradan qaldırır; əvvəlcədən tələbələrə çatdırılır. Tələbələr öz qiymətlərini bilirlər: hər bir tələbə istənilən vaxt cari semestr nəticələrini şəxsi ETS hesabında, fərdi nailiyyətlərinin uçotunu (bütün təhsil aldığı dövrlər üçün) www.my.amu.edu.az səhifəsində şəxsi kabinetində baxa bilər.

Yekün Dövlət Qiymətləndirməsinin nəticələrinin şəffaflığını təmin etmək üçün kənardan mütəxəssislərin cəlb edilməsi ilə aparılır. Bu şəxslər əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin aparıcı elmi-tədqiqat institutlarından və tibb müəssisələrindən cəlb olunurlar. DİA-nın aparılması qaydası “Ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində, əsas baza ali (tibb təhsili) və Azərbaycan Milli Elmlər Akademiyası magistratura səviyyəsində kredit sistemi üzrə tədris prosesinin təşkili Qaydaları” ilə tənzimlənir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli, 348 nömrəli qərarı; Təhsil Nazirliyiinin 54 saylı 27.01.1997-ci il tarixli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Təhsil Müəssisələri tələbələrin bakalavr pilləsində Dövlət Attestasiyası haqqında Əsasnaməsi.

İxtisaslara müvafiq olaraq işçi-tədris planında göstərilən fənlərin hamısından müvəffəq qiymət alan və burada göstərilən bütün müddəaları yerinə yetirmiş tələbə təhsilini başa vurmuş hesab olunur. Tələbəyə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən vahid qaydada tərtib olunmuş, ATU tərəfindən təsdiq edilmiş (Azərbaycan dilində olmaqla) bakalavr diplomu və keçilən fənlərin adları, akademik saatlar, kredit miqdarı və qiymətlər göstərilən diploma əlavə verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2014 tarixli 144 saylı "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları" nı rəhbər tutaraq və Təhsil Nazirinin 17.06.2014-ci il tarixli məktubuna əsasən "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında əsasnamə"yə uyğun olaraq təhsil proqramının mənimsənilməsində xüsusi nailiyyətlər əldə etmiş, təhsil müddətində "yaxşı" (81-90 bal) aldığı imtahanların sayı ümumi imtahanların sayının 25 faizindən çox olmamaqla, bütün imtahanlardan yalnız "91-100" bal almış məzunlara fərqlənmə diplomu verilir.

Azərbaycan Tibb Universitetinin Buraxılış kurs tələbələri sonuncu Dövlət imtahanlarını müvəffəqiyyətlə verdikdən sonra hər fakültə məzunlara diplom verilmə haqqında əmr hazırlayıb təqdim edirlər. Bundan sonra həmin əmrlər və əmrlərdə adları qeyd olunan diplom alacaq məzunların adları fakültlər üzrə Elm və Təhsil Nazirliyinin Diplom təsdiqi sisteminə yerləşdirilir. Elm və Təhsil Nazirliyi məlumatları yoxladıqdan sonra boş diplomlar bizə verilir. Diplomlar yazıldıqdan imzalandıqdan sonra məzunlara təqdim olunur. Diplomların qeydiyyatı ayrıca jurnalda aparılır. Məzunlar diplomu alanda şəxsiyyət vəsiqəsi və haqq-hesab vərəqini mütləq təqdim edirlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.7. *Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

Akademik heyyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdırmaq üçün bir sıra tədbirlər görülür.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 185-ci maddəsini əsas tutaraq,

- Azərbaycan Tibb Universitetinin Elmi Şurasının 25.02.2021-ci il tarixli qərarına əsasən, ildə üç dəfə - Qurban, Ramazan və Novruz bayramlarında Azərbaycan Tibb Universitetinin Qəbul portalında əcnəbi və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı və onlayn müsahibələri prosesi tam şəffaflıq şəraitində icra edilməsini nəzərə alaraq, komissiyanın üzvlərinin hər birinin mükafatlandırılmalar.
- Universitetin ictimai həyatında uzun müddətli aparıcı rolunu, səmərəli elmi – pedaqoji fəaliyyətini nəzərə alaraq və anadan olmalarının yubileylərinin münasibətilə, "təşəkkür"lə, "Fəxri Fərman"la təltif və bir aylıq əmək haqqı məbləğində mükafatlandırılmalar.
- Tədris ilinin payız semestrinin qış imtahan sessiyasının, yaz aralıq qiymətləndirmənin , yaz semestrinin yay imtahan sessiyasının təşkilində və Dövlət Attestasiyası imtahanlarının mütəşəkkil və obyektiv keçirilməsində fəal iştirak etmiş universitetin əməkdaşlarının mükafatlandırılmaları.

ATU-da akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş mütəmadi sistemli təlimlər keçirilir.

Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yaranmasından öncə "Təlimçinin təlimi" proqramı 2021-ci ilin dekabrından 2022-ci ilin iyuluna qədər on bir (11) qrupda həyata keçirilmişdir. Təlimdə Azərbaycan Tibb Universitetində fəaliyyət göstərən dekanlar, dekanl müavinləri, müxtəlif kafedraların tədris işləri üzrə müdir müavinləri, professorlar, dosentlər, assistentlər və baş laborantlar olmaqla ümumilikdə 127 nəfər iştirak etmişdir.

Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yarandıqdan (07.09.2022) sonra isə 24 yanvar-10 fevral 2023 tarixlərində 3 qrup olmaqla ümumilikdə 45 nəfər müxtəlif kafedraların dosent və assistentlərinə "Pedaqoji peşəkarlığın inkişafı" kursu verilmişdir. Bununla yanaşı, 24 yanvar-10 fevral 2023 tarixlərində müalicə profilaktika, əczaçılıq və stomatologiya fakültələrinə bağlı olan kafedraların ekspertlərinə "Çoxseçimli testlərin hazırlanması, tətbiqi və analizi" kursu keçirilmişdir. Kursda ümumilikdə 100 ekspert iştirak etmişdir.

| Təlimin nömrəsi | Keçirilmə tarixi | İştirakçıların sayı | İştirakçıların vəzifələri |
|---|---|---|---|
| **Kafedra yaranmasından öncə** | | | |
| 1 | Dekabr 2021 | 11 nəfər | Assistent və baş laborantlar |
| 2 | Fevral 2022 | 35 nəfər | Assistent və baş laborantlar |
| 3 | Mart 2022 | 13 nəfər | Bakı Tibb Kolleci müəllimləri |
| 4 | Aprel 2022 | 21 nəfər | Dekanlar və dekan müavinləri |
| 5 | May 2022 | 13 nəfər | Kafedranın tədris işləri üzrə müdir müavinləri |
| 6 | İyun 2022 | 13 nəfər | Kafedranın tədris işləri üzrə müdir müavinləri |
| 7 | İyul 2022 | 21 nəfər | Kafedranın tədris işləri üzrə müdir müavinləri |
| **Kafedra yarandıqdan sonra** | | | |
| 8 | 24 yanvar- 1 fevral 2023 | 8 nəfər | Assistent və baş laborantlar |
| 9 | 2 – 10 fevral 2023 | 15 nəfər | Assistentlər |
| 10 | 2 – 10 fevral 2023 | 12 nəfər | Dosentlər |
| 11 | 24 – 25 yanvar 2023 | 21 nəfər | Əczaçılıq fakültəsi kafedralarının ekspertləri |

| | | | |
|---|---|---|---|
| **12** | **26-27 yanvar 2023** | **14 nəfər** | **Əczaçılıq fakültəsi kafedralarının ekspertləri** |
| **13** | **30-31 yanvar 2023** | **15 nəfər** | **Müalicə-profilaktika fakültəsi kafedralarının ekspertləri** |
| **14** | **2-3 fevral 2023** | **15 nəfər** | **Müalicə-profilaktika fakültəsi kafedralarının ekspertləri** |
| **15** | **6-7 fevral 2023** | **15 nəfər** | **Müalicə-profilaktika fakültəsi kafedralarının ekspertləri** |
| **16** | **8-9 fevral 2023** | **20 nəfər** | **Stomatologiya fakültəsi kafedralarının ekspertləri** |

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununun 48-ci maddəsinə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 179-cu maddəsinin “h” bəndinə uyğun olaraq, ATM-in professor-müəllim heyəti ixtisasartırma və peşakarlıq səviyyələrini artırılması üçün mütəmadi olaraq Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirilməsi İnstutuna və orta tibb heyəti “Tibb bacısının işi” üzrə ixtisasartıma kurs keçmələri üçün isə 2 saylı Bakı Baza Tibb Kollecinə göndərilirlər.

Akademik heyətin mübadilə proqramları çərçivəsində mobilliyi aşağıdakı kimi olmuşdur:

Orhun mübadilə proqramı:
2021-2022-ci il – gedən 2 nəfər, gələn 2 nəfər
2022-2023-cü il – geələn 1 nəfər
Erasmus+ proqramı:
2021-2022-ci il – gedən 1 nəfər, gələn 2 nəfər
2022-2023-cü il – gedən 1 nəfər
Visegrad mübadilə proqramı:
2020-2021-ci tədris ilinini payız semestrində ATU-nun 4 müəllimi Ukraynanın Xarkov Milli Tibb Universitetinin tələbələrinə onlayn dərslər keçiblər.
2022-2023-cü tədris ilində ATU-nun 2 müəllimi S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetində dəvətli professor statusunda akademik fəaliyyət göstərblər.

Universitetin apardığı kadr siyasəti müəllimlərin bütün fəaliyyət növlərinin tanınmasına təminat verir. Müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi tədris, metodik, elmi, klinik fəaliyyətin nəticələrinə görə həyata keçirilir. Universitet işçilərin peşəkar inkişafına birbaşa təsir edən maddi və qeyri-maddi həvəsləndirmə və peşə sahəsində nailiyyətlərə görə həvəsləndirmənin müxtəlif üsullarından istifadə edir.

Müəllimlərin əməyinin nəticələri pedaqoji heyətin reytinq qiymətləndirməsində öz əksini tapır ki, bu da işin güclü və zəif tərəflərini müəyyən etməyə imkan verir. Reytinq qiymətləndirməsi müəllimin fəaliyyətinin bütün sahələrində ən yüksək

nəticə göstərən müəllim heyətini müəyyən etməyə imkan verir. Peşəkar fəaliyyətindəki nailiyyətlərə görə işçilər dövlət, idarə, respublika mükafatları ilə təltif edilirlər.

Professor-müəllim heyyətinin (PMH) tələbə sayına nisbətində müəyyən uyğunsuzluğun səbəbi ATU-nun spesifikası ilə izah oluna bilər. Belə ki, müxtəlif fakültələrdə təhsil alan tələbələr digər fakültələrə aid olan kafedralarda tədris prosesinə cəlb olurlar. Məsələn, Anatomiya kafedrası I Müalicə-profilaktika fakültəsinə aiddir, lakin bu kafedrada bütün fəkultələrin 1-ci kurslarının tələbələri dərs keçir.

Tibb tələbələrinin ilk kurslardan başlayaraq təcrübi məşğələlərinin keçirilməsində məhdud sayda iştirakı nəzərdə tutulur. Məsələn, Anatomiya kafedrasında prozektoriyada tədris zamanı, klinik kafedralarda xəstələrin müayinə prosesində, cərrahi kafedralarda əməliyyat zamanı və s.

*Fakültələr üzrə məlumatlar:*

1) *I Müalicə-profilaktika fakültəsi* 19 kafedrada fəaliyyət göstərən professor-müəllim heyətinin ümumi sayı 375 nəfər, fakültədə təhsil alan tələbələrin ümumi sayı isə 2266 nəfərdir. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/6-dır.
2) *II Müalicə-profilaktika fakültəsi* - 16 kafedrada fəaliyyət göstərən professor-müəllim heyətinin sayı 353 nəfər, fakültədə təhsil alan tələbələrin sayı isə 2223 nəfərdir. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/6-dır.
3) *Stomatologiya fakültəsi - 6* kafedrada 183 nəfər professor-müəllim çalışır. 2022/2023 tədris ilində fakültədə 1235 tələbə təhsil alır. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/7-dir
4) *Əczaçılıq fakültəsi* - 7 kafedrada cəmi 114 nəfər professor-müəllim çalışır. 2022/2023 tədris ilində fakültədə 448 tələbə təhsil alır. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/4-dir
5) *Hərbi-tibb fakültəsi* - Tələbə kursant cəmi 415, müəllim 27. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/15-dir
6) İctimai Səhiyyə fakültəsi - 9 kafedrada cəmi 150 nəfər professor-müəllim çalışır. 2022/2023 tədris ilində fakültədə 554 tələbə təhsil alır. Professor-müəllim heyəti ilə tələbələrin nisbəti 1/4-dür.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

3.8. *Tələbəyönümlü tədris*

Tələbələrlə (hər tədris ilində 2 dəfə) və məzunlarla (ildə 1 dəfə nəzərdə tutulub) aparılan sorğu və görüşlər iştirakçılarının məlumatları təhlil olunur və çatışmayan məqamlar nəzərə alınır.

2017-ci ildən Respublika Prezidentinin imzaladığı “İctimai iştirakçılıq haqqında” qanuna əsasən Universitetdə İctimai Nəzarət və Məsləhət Şurası fəaliyyət göstərir. Şuranın Nizamnaməsi Universitetin Elmi Şurası tərəfindən təsdiq edilib (fevral 2017).

Şuranın əsas məqsədi ictimaiyyət nümayəndələri ilə universitet arasında əlaqələrin qurulması, onun fəaliyyətində aşkarlıq və şəffaflığın təmin edilməsi, əməkdaşların və tələbələrin hüquqlarının müdafiəsi və onların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər verməkdir. Təhsil binalarında əks əlaqə qutuları quraşdırılıb.

Bütün fakültələrdə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək və istiqamət verən müvafiq kvalifikasiyaya sahib olan dekan müavini və akademik məsləhətçi (tyutor) fəaliyyət göstərir.

Tələbələr və təhsilverənlər eləcədə tələbələr və dekan müavinləri/akademik məsləhətçilər arasında müxtəlif vasitələrlə kommunikasiya həyata keçirilir: üzbəüz, online ZOOM platforması ilə, telefon.

ATU-da sosial həssas qrupa aid tələbələrlə bağlı bir sıra dəstək xarakterli tədbirlər görülür.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə.

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan aşağıdakı həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri)*, eləcə də 2020/2021-ci tədris ilinin yaz semestri (yarımili)* üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin:

1.1. ünvanlı dövlət sosial yardımı alanlar;

1.2. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:

1.2.1. I və II dərəcə əlilliyi olan şəxslər;

1.2.2. işsiz kimi qeydiyyatda olanlar;

1.2.3. yaşa görə əmək pensiyaçıları;

1.2.4. yaşa görə sosial müavinət alanlar.

2. Bu Qərarın 1-ci hissəsində qeyd olunan tədris semestrləri (yarımillikləri) üçün dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulan təhsil haqqı xərci ali təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25

iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş ayrı-ayrı ixtisaslar üzrə hər bir təhsilalana düşən təhsil xərclərinin, orta ixtisas və peşə təhsili müəssisələrində isə illik təhsil haqqının 50 faizi miqdarında müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil müəssisələri (tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq) tərəfindən təqdim edilən məlumatlar əsasında normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" vasitəsilə müəyyən edərək, bu Qərarın icrasını təmin etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi və ali, orta ixtisas və peşə təhsili müəssisələri 20 gün müddətində bu Qərarın icrası üçün zəruri informasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalı üzərindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin sorğularının cavablandırılması qaydasında inteqrasiyası üçün müvafiq tədbirləri həyata keçirsinlər.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bir ay müddətində "Elektron hökumət" portalı vasitəsilə bu Qərarın 4-cü hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının və qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını təmin etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdim etdiyi sifarişlərə uyğun olaraq maliyyələşməni təmin etsin.

Şəhid ailəsinin üzvləri bakalavr və magistratura səviyyəsində,( "Şəhid adının əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu 03.09.1993 № 697);

Azərbaycanın ərazi bütövlüyü, Konstitusiya quruluşu və torpaqların müdafiəsi zamanı həlak olmuş və itkin düşmüş şəxslərin övladları ("Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18.03.2014-cü il tarixli 347 №-li Sərəncamı);

məcburi köçkünlər ("Dövlət Ali təhsil müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqını ödəməkdən azad olunması barədə" Azərbaycan Respublikasının Prezidentinin 04.08.2003-cü il tarixli 1308 №-li Sərəncamı);

Hər iki valideynini itirmiş, valideynlərindən biri vəfat edən, digər valideyni valideynlik hüququndan məhrum edilmiş və ya valideynlərindən biri vəfat edib, digər valideyni I və II qrup əlil şəxslər, habelə bu kateqoriyadan olan digər şəxslər ("Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum edilmiş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu 22.06.1999 № 693-İQ);

| |
|---|
| I və II qrup əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud olan uşaqlar (“I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 03.05.2019-cu il tarixli Sərəncamı).<br>Valideyn Himayəsindən Məhrum (VHM) qrupuna aid olunan tələbələrə hər tədris ilində qanuna müvafiq olaraq (("Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum edilmiş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu 22.06.1999 № 693-İQ), ATU üzrə müyyən olunmuş təqaüdü 2 mislindən az olmayaraq təqaüd verilir (tələbənin akademik borcu olduqda belə). Buraxılış kurslarında təhsili bitirdikdə sosial həssas qruplardan olan tələbələrə əmək haqqının minimum 2 misli həcmində müavinət verilir.<br>Sosial həssas qrupa aid tələbələrə təhsil almaq haqqı ümumi qaydalar çərçivəsində verilir, Tədris terapevtik klinikanın, Tədris cərrahiyyə klinikasının və 5N-li tədris binasının girişləri pandusla təmin olunmuşdur, lakin özünə təhlil komissiyası tövsiyyə edir ki, müvafiq şəraitin yaradılması üçün əlavə avadanlıq, bütün tədris korpuslarında panduslar və s. təşkil olunmalıdır. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 3.9. *Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

| |
|---|
| Tədris planındakı dərslərin işçi tədris proqramları kafedralar tərəfindən mütəmadi olaraq yeniləşdirilir, kafedra iclaslarında və fakültə Elmi Şuralarında müzakirə olunub, tövsiyə edildikdən sonra Universitetin Elmi Şurasında təsdiq olunur.<br>Tədris proqramının və onun işlənib hazırlanmasının nəticələrinin monitorinqi innovasiya və keyfiyyətin idarə olunması şöbəsi, o cümlədən dekanlıq tərəfindən kafedraların fəal iştirakı, qarşıya qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsi və qiymətləndirilməsi ilə həyata keçirilir. Nəticələr kafedraların iclasında, fakültənin elmi şurasında, innovasiya və keyfiyyətin idarə olunması şöbəsi, tədris departemeni, tədris proqramları üzrə komissiyada müzakirə edilərək kafedra və müəllim heyətinin diqqətinə çatdırılır.<br>Təhsil proqramının monitorinqi dövlət standartlarının tələblərinə uyğunluğunu müəyyən etmək məqsədilə həyata keçirilir. Proqramın monitorinq edilən komponentləri bunlardır: 1) proqramın strukturu; 2) əsas və dəyişən hissələrin nisbəti; 3) seçmə fənlərin olması; 4) təcrübələrin növləri; 5) tədris-metodiki təminat; 6) elektron informasiya və təhsil mühitinin mövcudluğu; 7) kadr təminatı; 8) maddi-texniki təchizat.<br>Tələbələr hər bir fənni öyrəndikdən sonra tədris olunan fənnin strukturu, həcmi və məzmunu, o cümlədən metod və vasitələrlə bağlı təkliflərini formalaşdırmaq və kafedra müdirinin, dekanların, prorektorun və rektorun nəzərinə çatdırmaq imkanı əldə edirlər. Sorğularda yolu ilə nəzarətdə həyata keçirilir. Bundan əlavə, tələbələr ATU-nun Elmi Şurasında təmsil olunurlar. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

ATU-nu 2017-2022-ci illər üzrə məzunların buraxılışı:

| Fakultə | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| I Müalicə-profilaktika | 318 | 302 | 293 | 317 | 304 | 334 |
| II Müalicə-profilaktika | 318 | 307 | 348 | 317 | 343 | 332 |
| Tibbi-profilaktika | 77 | 74 | 69 | 74 | 72 | 70 |
| Stomatologiya | 126 | 133 | 139 | 139 | 174 | 280 |
| Hərbi həkim işi | 83 | 75 | 58 | 80 | 71 | 76 |
| Əczaçılıq | 106 | 71 | 74 | 86 | 128 | 125 |
| **Cəmi** | **1028** | **962** | **981** | **1013** | **1092** | **1217** |

25.05.2023-cü il Azərbaycan Respublikası Səhiyyə Nazirliyindən və 14.06.2023-cü il tarixlərində Azərbaycan Respublikası “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” PHŞ Azərbaycan Tibb Universitetinə daxil olan məktub əsasında




“Respublika Diaqnostika Mərkəzi” ASC-də son 5 ildə məzun olan rezidentlərdən Endokrinologiya, Mama-ginekologiya və Kardiologiya ixtisasları üzrə üç həkim çalışır, çalışdıqları sahə üzrə bilik və bacarıqları çox yüksək qiymətləndirilmişdir.

“Respublika QİÇS-lə Mübarizə Mərkəzi”-də son 5 ilin məzunlarından 4 həkim və 1 əczaçı fəaliyyət göstərirlər, onlardan 3 nəfəri rezident, iki nəfəri isə bakalavrdır. İki rezident – infeksionist, bir rezident və bir bakalavr – epidemioloqlardır. Onların fəaliyyəti 5 ballıq şkala üzrə 5 balla qiymətləndirilmişdir.

Tədris Departamenti son 5 ildə Məzunlarla iş şöbəsi yaradılmamışdan öncə və hal hazırda, çox mötəbər beynəlxalq təşkilatlar ilə, Azərbaycan Tibb Universiteti məzunlarının diplomlarının tanınması və xarici ölkələrdə iş fəaliyyətinə başlamasına köməklik məqsədi ilə keyfiyyətli və məhsuldar şəkildə əməkdaşlıq edir:

**DATA FLOW – İxtisas, lisenziya və təcrübənin yoxlanışı**

**Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ)**

Dubay Səhiyyə İdarəsi

Abu Dabi Səhiyyə Departamenti

Səhiyyə və Profilaktika Nazirliyi (MONAP)

Sharjah Səhiyyə İdarəsi

**Səudiyyə Ərəbistanı**

Səhiyyə Mütəxəssisləri Komissiyası (SCFHS)

**Qətər**

Səhiyyə Nazirliyi

**Oman**

Tibb İxtisas Şurası

**Böyük Britaniya**

Ümumi Tibb Şurası

**WES – Dünya Təhsil Təşkilatı**

Amerika Birləşmiş Ştatları və Kanada

**EFMC – Avropa Tibb Təşkilatı**

Məzunlarla iş şöbəsi yeni yaradılmasına baxmayaraq, ilk günlərdən Azərbaycan Tibb Universitetinin Məzunlarının ölkə ərazisində və dünya miqyasında layiqli yer tutmağı üçün fəaliyyətə başlamışdır. Tədris Departamentinin Məzunlarla iş şöbəsi 2023-cü ildə Məzun olacaq 6-cı kurs tələbələri arasında (bütün fakültələr) gələcəkdə hansı ixtisas üzrə təhsillərini davam etdirməyi və ya hansı sahədə fəaliyyət göstərəcəyi barəsində sorğu keçirtdi. Sorğu əsasında Məzunların Tibbin hansı sahələrinə üstünlük vermələrinin statistikası aparıldı. Mama Ginekologiya və Endokrinologiya sahələri ən populyar istiqamət, az faizlə Kardiologiya və Cərrahiyyə oldu.

Hərbi Tibb Fakültəsinin məzunları güc strukturlarının hərbi tibbi hissə və müəssisələrində işlə təmin olunur və həmin müəssisələrlər fakültənin əlaqəsi olduğu üçün məzunlar barədə məmnuniyyət və təkliflər həmin müəssisəlrə tərəfindən fakültəyə bildirilir. Bu da növbəti illərdə hazırlanan həkimlərin daha yaxşı hazırlanmasında əsas rol oynayır.

Tədris Departamentinin Məzunlarla iş şöbəsi özünü təhlil məqsədi ilə (Azərbaycan Tibb Universitetinin Məzunlarının bilik və bacarıqlarını qiymətləndirmək, kollektivdə işləmək bacarığı, xəstələrə münasibət) Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən qabaqcıl xəstəxanalara, müəssisələrə (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi publik hüquqi şəxs (TƏBİB), Respublika QIÇS-lə Mübarizə Mərkəzi, Respublika Diaqnostika Mərkəzi, Bona Dea) məktub tərtib edilmiş və göndərilmişdir.

18.05.2023-cü il tarixində Azərbaycan Tibb Universitetinin rektorunun rəhbərliyi ilə (Məzunların işlə təmin olunması və gələcək karyerası) Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Qida Təhlükəsizliyi Aqentliyi, TƏBİB nümayəndələri, ölkə ərazisində fəaliyyət göstərən tibb müəssisələrinin baş həkimləri ilə görüş keçirilmiş, məzunlarla əlaqəli çox vacib məqamlara toxunulmuşdur. Görüşdə səslənən fikirlər gələcəkdə görülməli işləri planlaşdırılmasına öz töhfəsini verdi.

Məzunlarla iş şöbəsinin 6-cı kurs tələbələri arasında apardığı sorğuya və görüş iştirakçılarının məlumatlarına görə Mama Ginekologiya və Kardiologiya sahələri üzrə həddindən artıq tibb işçisi var. Anestezioloq – reanimatoloq, psixiatr, nefroloq, epidemioloq ixtisasları üzrə kəskin kadr catışmamazlığı var. Respublika ərazisində məzun - həkimlər arasında işsizliyin aradan qaldırılması məqsədi ilə 1-ci kursdan başlayaraq həmin sahələr təbliğ edilməlidir.

Məzunlarla iş şöbəsi gələcəkdə ölkəmizə bilikli, bacarıqlı, yeni tendensiyaları, texnologiyaları bilən, etika çərcivəsində təhsil alan məzunları görmək üçün artıq 1-ci kursdan başlayaraq, karyera üçün ən vacib məsələlərdən olan CV hazırlanması, işəgötürənlərlə ünsüyyət qurulması, gələcəkdə kollektivdə və xəstələrlə düzgün münasibət yaradılması bacarıqları kimi işləri Tədris Departamentinin Məzunlarla iş şöbəsi dekanatlıqlarla bir yerdə məlumatlandırmağı planlaşdırır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

## 4. ELMİ TƏDQİQAT

### *4.1. Elmi-tədqiqat strategiyası*

**Missiya**

Azərbaycanın qabaqçıl tibb təhsili və elmi araşdırma sahəsində milli, regional ehtiyacları qarşılamaq, cəmiyyətin xeyrinə tədqiqatlar təklif etmək, cəmiyyətin həyat keyfiyyətini yüksəltmək.

**Gələcəyə Baxış**

Elmi araşdırmalarda qabaqçıl, milli və beynəlxalq arenada tərəfdaşları ilə güclü əməkdaşlıq şəbəkəsi olan, ən yaxşı yerli və xarici ali təhsil səviyyəsinə uyğun tədris, elmi və klinik fəaliyyətin yüksək keyfiyyətinin təmin edildiyi və universitetlərimiz arasında əhalinin sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş elmi-tədqiqat universiteti olmaqdır.

**Strategiya**

Azərbyacan tibb elminin beynəlxalq aləmə inteqrasiyası ATU-nın elmi fəaliyyətini səmərəli idarəetmə modelinin yaradılması istiqamətində müvafiq addımların atılmasına ehtiyac duyulur.

Dövlətin elmi-tədqiqat sahəsində aydın hədəflərinin və qiymətləndirmə siyasətinin müəyyən edilməsi məqsədiilə universitetin elmi-tədqiqat sahəsində fəaliyyətinin strateji planlaşdırılması ilə bağlı işlər aparılır. ATU-nın elmi-tədqiqat strategiyası (ETS) mövcuddur, universitetin missiyasına və hədəflərinə uyğundur. Universitetin elmi inkişafının dəstəkləyən SWOT təhlili və SMART üsulu ilə aparılmış strateji hədəf və məqsədlərini müəyyən edilmişdir. Elmin inkişaf strategiyasından irəli gələn mühüm vəzifələrdən biri əməyin stimullaşdırılmasında fərdi yanaşmanın metodunu istifadə edilməsini və gənclərin elmi fəaliyyətə daha geniş cəlb olunmasıdır. Statistik araşdırmalara görə dünya miqyasında aparılan elmi-tədqiqat işlərinin əksəriyyəti ali məktəblərin, o cümlədən universitetlərin payına düşür. Bu uğur universitetdə çalışan pedaqoji kollektivin üzvlərinin bilik və bacarığıdan istifadə etmək üçün onları elmi-tədqiqat işlərinə cəlb edilməsi ilə əldə edilir. Belə yanaşma elmi-tədqiqat işlərində göstərdiyi fəaliyyətdən, əldə edilən nəticələrin əhəmiyyətindən asılı olaraq həmin əməkdaşaların daha keyfiyyətli çalışmaları, öz potensialını elmi axtarışlara istiqamətləndirmələri üçün onların müxtəlif yollarla motivasiya olunmaları ilə həyata keçirilir. Əməkdaşların əldə etdikləri müsbət nəticələr ümumilikdə çalışdıqları ali məktəbin reytinqinin yüksəlməsinə

təsir göstərir. Belə müsbət nəticələrə aşağıdakıları misal göstərmək olar: yüksək impakt faktorlu jurnallarda məqalələr çap etdirmək, patentlər (ixtira) əldə etmək, beynəlxalq ixtisas yönümlü konfranslarda çıxışlar etmək, beynəlxalq qrant müsabiqəsində və ya digər elmi müsabiqələrdə qalib gəlmək və s.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq ATU-nın əməkdaşlarının 2030-cu ilə qədər elmi fəaliyyətlərinin inkişaf etdirilməsi üçün aşağıdakı təklifləri diqqətinizə çatdırır:

- ✓ Elmi məqalələri impakt faktorun dərəcəsindən asılı olaraq jurnallarda çap olunan müəlliflərin mükafatlandırılması
- ✓ Əməkdaşlarının tədqiqatlarının nəticələrinin Web of Science və Scopus bazasına daxil olan jurnallarda dərc olunması üçün tələb edilən ödənişlərin Universitet tərəfindən maliyyələşdirilməsi
- ✓ Patent (ixtira) üzrə təqdim edilmiş sənədlərə baxılması üçün ödənişlərin universitet tərəfindən qarşılanması
- ✓ Nüfuzlu jurnallarda mütəmadi məqalələr çap etdirən və H-indeksi yüksək olan əməkdaşların ildə bir dəfə xarici beynəlxalq konfranslarda iştirakı üçün tələb olunan zəruri xərclərin universitet tərəfindən qarşılanması
- ✓ Universitet klinikalarının təlabatının ödənilməsi və eləcə də açıq satış məqsədi ilə təbii vasitələrdən bioloji fəallığa malik qida əlavələri və tibbi sərfiyyat materiallarının istehsalı üçün kiçik istehsalatın təşkil edilməsi
- ✓ Həm universitetdaxili istehsal mallarının satışını həyata keçirmək və həm də əczaçılıq tələbələrinin təcrübə keçmələri üçün ATU-nın aptekinin açılmasını təşkil etmək

ATU zəngin maddi texniki bazası, tədris korpusları və dörd klinikaları ilə Azərbaycanın ən iri elm və tibbi ocaqlarından biridir. ATU-nın əsas elmi-eksperimental bazası olan Elmi Tədqiqat Mərkəzi və elmi laboratoriyaları,müasir cihazlar və avadanlıqlarla təchiz edilib ki, bu da elmi axtrışların əhəmiyyətini artırmağa, tibb sahəsində kifayət qədər kadr potensialı yaratmağa imkan verir. ETM-də böyük əhəmiyyət kəsb edən fundamental və eləcə də tətbiqi elmi-tədqiqat işləri aparılması nəzərdə tutulur. Aparılan tədqiqatların səriştələrinin və mədəniyyətinin təkmilləşdirilməsi məqsədi ilə ATU-nın nəzdində Lokal Etik Komitə fəaliyyət göstərir. Universitetin təsisçi olduğu dörd elmi jurnalları mövcuddur.

Elmi inkişaf strategiyasından irəli gələn mühüm vəzifələr:

- ✓ Dünyada və Azərbaycanda tibb elminin ölkə iqtisadiyyatının və elmin aktual problemlərinə aid prioritet istiqamətləri müəyyənləşdirmək.
- ✓ Tibb elminin yeni istiqamətləri üzrə tədqiqat mərkəzinin qurulması
- ✓ Elmi tədqiqatçı heyətinin sayının artırılması və peşəkarlığının yüksəldilməsi
- ✓ Azərbaycan elminin dünya elminə inteqrasiyası
- ✓ Elmi fəaliyyət sahəsində struktur islahatları və idarəetmənin təkmilləşdirilməsi
- ✓ Elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması məqsədi ilə elmi mərkəz və laboratoriyaların maddi-texniki bazanın yüksəldilməsi, müasir avadanlıqların alınması, avadanlıqların yardımçı sərfiyyat materialları ilə təchiz edilməsi
- ✓ Elmin maliyyələşdirilməsi
- ✓ Elm və təhsil arasında daha sıx inteqrasiyaya nail olunması
- ✓ Əməyin diferensial qiymətləndirilməsi yolu ilə alimlərin lazımı səviyyədə stimullaşdırılması

**STRATEJİ MƏQSƏD. Tədqiqat Universitetinə çevrilmək**

**Strateji hədəf 1.** 2030-cu ilə qədər milli səviyyədə yüksək reytinq qazanmış "beyin mərkəzi" yaratmaq.
**Strateji hədəf 2.** 2030-cu ilə qədər doktorantura, dissertantura və magistratura təhsilini mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırmaq.
**Strateji hədəf 3.** 2030-cu ilə qədər qrantlar əsasında yerinə yetirilən layihələrin sayını artırmaq.
**Strateji hədəf 4.** 2030-cu ilə qədər "Web of Science və Scopus" elmi bazaya daxil olan nəşrlərdə çap edilən məqalələrin sayını artırmaq.
**Strateji hədəf 5.** 2030-cu ilə qədər "Web of Science və Scopus" bazalarına daxil edilən nüfuzlu beynəlxalq elmi tədbiri təşkil etmək.
**Strateji hədəf 6.** 2030-cu ilə qədər "Web of Science və Scopus" bazalarına daxil olan elmi jurnala sahib olmaq.
**Strateji hədəf 7.** 2030-cu ilə qədər hər il bir dəfə tibb tələbələri və gənc alimləri beynəlxalq elmi konfransını təşkil etmək.
**Strateji hədəf 8.** 2030-cu ilə qədər universitetin kommersiyalaşan patentlərin sayının artırılması və tətbiqinin reallaşdırılması.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*4.2. Tədqiqat resursları*

**İnsan resursları:** Azərbaycanda tibb elmləri üzrə alimlərin əsas heyəti ATU-da fəaliyyət göstərir. ATU-nun tədqiqatçıları nüfuzlu xarici universitetlərdə və klinikalarda elmi təcrübələrini aparılar.

**2017-2022 –ci illərdə Azərbaycan Tibb Universitetinin dissertasiya işlərini müdafiə edən əməkdaşlarının sayı haqqında məlumat**

| I müalicə-profilaktika fakültəsi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | |
| I mamalıq və ginekologiya | 1f | 1f | - | - | 5f | 2d | |
| Tibbi biologiya və genetika | - | 1f | - | 1d | - | - | |
| Oftalmologiya | - | 1f | - | - | 3f | 2f | |
| Dermatovenerologiya | - | - | - | - | - | 1f | |
| Nevrologiya | 1f | 1f | - | - | 1f | 1f | |
| Anesteziologiya və reanimatologiya | - | - | - | - | - | 1f | |
| I daxili xəstəliklər | 2f | 1f | - | - | 1d<br>1f | - | |
| I cərrahi xəstəliklər | 1f | 1f | - | - | 1d | 1d<br>1f | |
| III cərrahi xəstəliklər | - | 1f | - | - | 1d | 3f | |
| İnsan anatomiyası və tibbi terminologiya | - | 1f | - | - | 1d<br>4f | - | |
| Onkologiya | 1f | 2f | - | - | - | 5f | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Klinik farmakologiya | - | - | - | - | - | - | |
| Məhkəmə təbabəti | - | - | - | - | - | - | |
| Neyrocərrahlıq | - | 1f | - | - | 1f | - | |
| I uşaq xəstəlikləri | 1d | 1f | - | - | - | 2f | |
| Uşaq cərrahlığı | - | 1d<br>1f | - | - | 1d<br>1f | - | |
| Sitologiya, embriologiya və histologiya | 1f | 1f | - | - | - | - | |
| Allerqologiya və immunologiya | - | - | - | - | - | - | |
| **CƏMİ** | | | | | | | |
| **II müalicə-profilaktika fakültəsi** | | | | | | | |
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | |
| Normal fiziologiya | - | - | - | - | 2f | 1f | |
| Tibbi və bioloji fizika | - | - | - | - | - | - | |
| II mamalıq və ginekologiya | 1d<br>2f | 1f | - | - | 1f | 1d<br>1f | |
| Urologiya | 1d | - | - | - | 1d | 1d | |
| Travmatologiya və ortopediya | - | 2f | - | - | - | - | |
| II Daxili xəstəliklər | - | - | - | - | 1d | - | |
| Ümumi cərrahlıq | - | 1d | - | - | 1d<br>1f | 2f | |
| II cərrahi xəstəliklər | 1f | - | - | - | 1f | 1d | |
| II Uşaq xəstəlikləri | - | 1f | - | - | 2d | 1d<br>1f | |
| Şüa diaqnostika və terapiyası | - | 1d<br>2f | - | - | - | - | |
| Psixiatriya | 1f | 2f | - | - | 1d | - | |
| Ailə təbabəti | - | 2f | - | - | 1d<br>3f | 1f | |
| Fizioterapiya və tibbi reabilitasiya | - | - | - | - | - | - | |
| Patoloji fiziologiya | - | - | - | | - | 2f | |
| Patoloji anatomiya | - | - | - | - | - | 1d | |
| III daxili xəstəliklər | - | 1f | - | - | - | 2f | |
| Tibb və sağlamlıq elmlərinin tədrisi | - | - | - | - | - | - | |
| **CƏMİ** | | | | | | | |

**İctimai sağlamlıq və səhiyyənin təşkili fakültəsi**

| | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | |
|---|---|---|---|---|---|---|---|
| Uşaq-yeniyet. Sağlamlığı və əmək sağlamlığı | - | 1d | - | - | - | - | |
| Qidalanma və tibbi ekologiya | - | - | - | - | 1f | - | |
| İctimai sağlamlıq və səhiyyə təşkili | - | - | - | - | 4f | 1f | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Tibbi mikrobiologiya və immunologiya | - | 2f | - | - | - | - |
| Epidemiologiya | - | - | - | - | 1f | - |
| Bioloji kimya | - | 1d<br>1f | - | - | 1f | 3f |
| Azərbaycan dili | 1f | - | - | - | - | - |
| Ağciyər xəstəlikləri | - | - | - | - | - | - |
| Yoluxucu xəstəliklər | - | - | - | - | - | 1d |
| **CƏMİ** | | | | | | |
| **Stomatologiya fakültəsi** | | | | | | |
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
| Ortopedik stomatologiya | - | 3f | - | - | 2f | 1f |
| Ağız və üz-çənə cərrahiyyəsi | 1d | - | - | - | 1f | 1d<br>1f |
| Uşaq stomatologiya | 1f | - | - | - | 2d<br>1f | - |
| Terapevtik stomatologiya | 2f | 1d<br>1f | - | - | 1d<br>1f | 1f |
| Qulaq, burun, boğaz xəstəlikləri | 1f | - | - | - | - | - |
| Xarici dillər | 1f | 2f | - | - | - | 1d<br>1f |
| (Təbib) idman klubu | 1f | | | | | |
| **CƏMİ** | | | | | | |
| **Əczaçılıq fakültəsi** | | | | | | |
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
| Əczaç. texn. və idarəçiliyi | - | - | - | - | - | - |
| Farmakoqnoziya | 2f | - | - | - | 2f | - |
| Farmakologiya | 2f | - | - | - | 1f | - |
| Əczaçılıq toksikologiyası və kimya | - | 2f | - | - | 1f | - |
| İctimai fənlər | 1f | - | - | - | - | 1f |
| **CƏMİ** | | | | | | |
| **Hərbi Tibb Fakültəsi** | | | | | | |
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
| Hərbi terapiyası | - | - | - | -- | | 1f |
| Tibbi profilaktika | - | - | - | - | - | |
| Hərbi cərrahiyyəsi | 1f | - | - | - | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Tibb xidmət. təşkili və taktikası | - | - | - | - | - | - |
| **CƏMİ** | **4d,24f** | **6d,36f** | **-** | **1d,-** | **15d,40f** | **11d,36f** |

**Qeyd:** f- fəlsəfə doktoru
d – elmlər doktoru

ATU-da Histologiya kafedrasının nəzdindəki laboratoriyada elektron mikroskop mövcuddur.
Əczaçılıq texnologiyası və təşkili kafedrasında laboratoriya.
Əczaçılıq toksikologiyası və kimya kafedrasında laboratoriya.

**Maliyyə resursları:** ATU-nın maliyyə resursları üç əsas mənbədən formalaşır:
1) Dövlət sifarişi tələbələr üçün, Dövlətin ödədiyi təhsil haqqları
2) Ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqqları
3) ATU-nun ştatında fəaliyyət göstərməyən alimlər və tədqiqatçıların ETM-də tədqiqat aparmaq üçün etdikləri ödənişlər
4) ATU-nun ştatında fəaliyyət göstərməyən iddaçıların ATU şuralarında aprobasiya, müdafiə etmələri üçün etdikləri ödənişlər
5) Qanunla nəzərdə tutulmuş digər gəlirlər

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

4.3. *Elmi-tədqiqat fəaliyyəti*

**Strateji fəaliyyətlər:**

**1.**
- ✓ Elmin yeni istiqamətlər üzrə tədqiqat mərkəzinin qurulması
- ✓ Tədqiqat mərkəzi və laboratoriyaların işinin təkmilləşdirilməsi, maddi-texniki bazasının və kadr potensialın gücləndirilməsi
- ✓ Elmi tədqiqatçı heyətinin sayının artırılması və peşəkarlığının yüksəldilməsi

**2.**
- ✓ Tədris plan və proqramlarının mütərəqqi təcrübə əsasında müasirləşdirilməsi
- ✓ Dissertasiya mövzularının ölkə iqtisadiyyatının və elmin aktual problemlərinə adekvatlığının təmin edilməsi
- ✓ Doktorant və magistr ATU-da elmi-tədqiqatlara cəlb edilməsi
- ✓ Doktorant və magistr arasında müəllif hüquqlarına hörmət vərdişi formalaşdırılması.

**3.**
- ✓ Elmi maliyyələşdirən yerli və xarici fondlarla universitet tədqiqatçıları arasında əlaqə yaradılması
- ✓ Beynəlxalq tədqiqat proqramlarında iştirakı dəstəklənməsi
- ✓ Beynəlxalq tədqiqat proqramlarına müraciətlərin dəstəklənməsi

**4.**

- ✓ Birgə yüksək keyfiyyətli tədqiqatlar apara biləcək qruplarının yaradılması
- ✓ Aparılan tədqiqatların bu nüfuzlu nəşrlərdə çapı üçün onların xarici dillərə çevrilməsinə dəstək mexaniziminin yaradılması
- ✓ Nüfuzlu jurnallarda məqalənin çapı üçün stimullaşdırıcı mexanizmlərinin təkmilləşdirilməsi

**5.**

- ✓ Tədbirin təsisi məqsədilə tərəfdaş universitetlərlə razılığın alınması
- ✓ Tədbirin keçirilməsinə maliyyə dəstəyi verəcək sponsorların təyin edilməsi

**6.**

- ✓ Jurnalın müstəqil internet səhifəsi ilə birlikdə nəşrin təşkil edilməsi
- ✓ Təsisi məqsədilə beynəlxalq tərəfdaş elm adamları ilə razılıq
- ✓ Müvafiq nüfuzlu beynəlxalq indekslərin əsasında fəaliyyəti

**7.**

- ✓ Tədbirin təşkili məqsədiilə beynəlxalq tərəfdaş universitetlərlə razılıq
- ✓ Maliyyə dəstəyi verəcək sponsorlarla razılığın əldə edilməsi

**8.**

- ✓ Professor-müəllim (PMH) heyəti milli və beynəlxalq patent müraciətlərinə dəstək vermək
- ✓ Əldə edilmiş patentlərin praktikada tətbiqinə nail olmaq

Ali təhsil qarşısında duran ən mühüm vəzifələrdən biri müasir tələblərə cavab verən yüksək ixtisaslı kadrlar hazırlamaq, onlara nəzəri və təcrübi vərdişlər aşılamaqdır. İxtisaslı mütəxəsislərin hazırlanmasında tələbə elmi işlərinin cox mühüm əhəmiyyəti vardır.

TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN 2017-Cİ ildə Mart-aprel ayında bütün fakültələr də elmi konfranslar keçirilmiş, ən yaxşı göstəricilərə malik tələbələr IV Beynəlxalq Tibb Konqresində iştirak etmək hüququ qazanmışdır. Tədris ilinin birinci yarısında fakültə konfranslarında iştirak etmək üçün ayrı-ayrı kafedralarda elmi konfranslar kecirilmişdir.

2-3 noyabr 2017-ci il tarixində ATU-nun təşkilatçılığı ilə tələbə, rezident və gənc həkimlərin IV Beynəlxalq TİBB Konqresi keçirildi. Konqresə 450-dən cox elmi məqalə və tezislər daxil olmuşdur. Bunlardan 54 nəfəri xarici ölkə universitetlərində təhsil alan tələbələr, həkimlər və professorlar idi. Konqres işində həm aktiv, həm passiv olaraq Türkiyə, Rusiya, İran, Almaniya, Özbəkistan, Meksika, Pakistandan professorlar, həkimlər ve tələbələr öz iştiraklarını təsdiq etmişlər. Eyni zamanda ölkəmizin müxtəlif mərkəzi xəstəxanalarında çalışan, Naxçıvan MR Dövlət Universiteti Tibb fakültəsinin əməkdaşları, Şirvan diaqnostik mərkəzinin əməkdaşları, Qusar, Quba, Ağdam, Bərdə rayon mərkəzi xəstəxanalarında çalışan həkimlərdə konqresə qatılmışdırlar.

IV Beynəlxalq TİBB Konqresi dunyanın bir çox ölkələrindən olan professor, həkim və tibb tələbələrini bir araya gətirdi. Konqres iş planına uyğun olaraq

cərrahiyyə, pediatriya, stomatologiya, onkologiya, mikrobiologiya, histologiya, əczaçılıq, genetika, tibbi statistika və poster bölməsi üzrə işini davam etdirdi.

Konqresdə iştirak etmək üçün dünyanın 20-dən çox universitetlərinə rəsmi dəvət göndərilmişdir. IV Beynəlxalq Tİbb Konqresində qardaş respublika olan Türkiyə Dövlət İstanbul Universiteti Tibb fakültəsi, Qazi Universiteti, İzmir Dokuz Eylül Universitetlərindən 2 elmi məqalə ilə, Rusiyadan Dağıstan Dövlət Tibb Universiteti, Kirov Dövlət Tiib Universiteti, Tümen Dövlət Tibb Universitetindən 14 elmi məqalə ilə, İrandan Məşhəd Tibb Elimləri Universiteti, İslam Azad Universiteti, Tehran Tibb Elimləri Universitetlərindən 2 məqalə ilə, Almaniya Xərcəng Konsorsiumu, Erlangen-Nürnbergin Fridrix-Aleksander Universiteti 1 məqalə ilə, Pakistan Karaçı Universitetindən 1 elmi məqalə ilə, Özbəkistandan Daşkənd Pediatrik Tibb İnistitu-tundan 3 elmi məqalə ilə, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialından 3 məqalə ilə professor, həkim və tibb tələbəsi qatılmışdır. Ümumilikdə 59 həkim və tibb tələbəsi təbabət aktual problemlərinə həsr olunmuş məruzələri ilə konqresdə çıxış etmişdir. Konqresdə prof. Dr. Cavit Avcı, T.e.d.Müşviq Həsənov, Prof. Dr.Rasim Gençosmanoğlu, Prof. Dr. Aydın Alper, Prof. Dr. Levent Avtanın rəhbərliyi ilə Laparoskopik xolesistektomiya üçün ehtiyatlı prinsiplər, öd yolu zədələnmələrində və ağırlaşmalarda strategiyalara aid kurs kecirildi. Kursda 43 nəfər həkim, rezident və tələbə iştirak etmişdir.

Belə tədbirlər dünyanın müxtəlif universitetlərində təhsil alan tibb tələbələrin və dünyanın aparıcı klinikalarında çalışan həkimlərin bir-birləri ilə fikir mübadiləsi aparmaq, öz biliklərini bölüşmək eyni zamanda universitetimizin və ölkəmizin gənc həkim və tələbələri ilə tanışmaq üçün çox gözəl fürsətdir.

**TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ tərəfindən 2018-Cİ İLdə** Tədris ilinin birinci yarısında fakültə konfranslarında iştirak etmək üçün müxtəlif kafedralarda elmi konfranslar keçirilmişdir. Belə ki, I müalicə-profilaktika fakültəsi 23,24,25 aprel 2018, II müalicə-profilaktika fakültəsi 7,8 may 2018, stomatologiya fakültəsi 1,2 may 2018, əczaçılıq fakültəsi 2,3 may 2018, ictimai səhiyyə fakültəsi 7,8,10 may 2018, hərbi tibb fakülstəsi 10 aprel 2018 tarixlərində elmi konfranslarını keçirmişdilər.

1-2 noyabr 2018-ci il tarixində Azərbaycan Tibb Universitetində gənc alimlərin, rezidentlərin və tibb tələbələrinin "V Beynəlxalq Tİbb Konqresi" keçirildi.

Beşinci dəfədir keçirilən konqresdə Türkiyə, Rusiya, Almaniya, İran, Özbəkistan, Pakistandan olan həkimlər, gənc alim və tələblər iştirak etmişdirlər. Konqresə 200-ə qədər elmi məqalə və tezislər daxil olmuşdur. Ümumilikdə, 749 iştirakçı "V Beynəlxalq Tibb Konqresi" üçün rəsmi qeydiyyatdan keçmişdir. Konqresdə 602 nəfər iştirak etmiş, bunlardan 295 nəfər həkim və rezident, 270 nəfər tələbə, 37 nəfəri xarici ölkə universitetlərində təhsil alan professorlar, tələbələr və həkimlər idi. Eyni zamanda ölkəmizin müxtəlif mərkəzi xəstəxanalarında çalışan, Naxçıvan MR Dövlət Universiteti Tibb fakültəsinin əməkdaşları, Şirvan Diaqnostik Mərkəzinin əməkdaşları, Şəki, Qusar, Quba, Ağdam, Ağdaş, Bərdə rayon mərkəzi xəstəxanalarında çalışan həkimlər də konqresə qatılmışdırlar.

V Beynəlxalq Tİbb Konqresi dünyanın bir çox ölkələrindən olan professor, həkim və tibb tələbələrini bir araya gətirdi. Konqres iş planına uyğun olaraq cərrahiyyə, pediatriya, stomatologiya, onkologiya, psixiatriya, ginikologiya,

oftolmologiya, endokrinologiya, nevrologiya, epidemiologiya, hematologiya, kardiologiya, mikrobiologiya, histologiya, biokimya, əczaçılıq, genetika, tibbi statistika və poster bölməsi üzrə işini davam etdirdi.

Konqresdə iştirak etmək üçün dünyanın 20-dən çox universitetinə rəsmi dəvət göndərilmişdir. V Beynəlxalq Tİbb Konqresində qardaş respublika olan Türkiyə İstanbul Universiteti Tibb fakültəsi, Qazi Universiteti 2 elmi məqalə ilə, Rusiyadan Dağıstan Dövlət Tibb Universiteti, Tümen Dövlət Tibb Universiteti 29 elmi məqalə ilə, İrandan Məşhəd Tibb Elimləri Universiteti, İslam Azad Universiteti, Tehran Tibb Elimləri Universitetləri 7 məqalə ilə, Erlangen-Nürnbergin Fridrix-Aleksander Universiteti 1 məqalə ilə, Pakistan Karaçı Universiteti 1, Özbəkistandan Daşkənd Pediatrik Tibb İnstitutundan 5, Daşkənd Tıbb Akedemiyası 7, Buxara Tibb Universiteti 1 elmi məqalə ilə, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialından 19 məqalə ilə professor, həkim və tibb tələbəsi qatılmışdır. Ümumilikdə 44 həkim və tibb tələbəsi təbabətin aktual problemlərinə həsr olunmuş məruzələri ilə konqresdə çıxış etmişdir. İlk dəfədir ki, Beynəlxalq konqres Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən akkreditasiya olundu. Aktiv iştirakçılara 21, passiv iştirakçılara 16 bal verildi.

Konqresdə prof. Dr.Cavit Avcı, t.e.d., dos. Müşviq Həsənov, prof. Dr.Rasim Gençosmanoğlu, prof. Dr.Aydın Alper, prof. Dr.Levent Avtanın rəhbərliyi ilə laparoskopik kolorektal cərrahiyəyə aid kurs keçirildi. Kursda 30 nəfər həkim, rezident və tələbə iştirak etmişdir.V Beynəlxalq Tİbb Konqresi dövlət mətbuatında və televiziya kanalları vasitəsilə işıqlandırılmışdır.

**TEC 2019-cu** il mart-aprel ayında fakültələr üzrə TEC-in konfransı keçirildi. 30 aprel, 1-3 may 2019-cu il tarixində I Müalicə-profilaktika fakültəsinin TEC-nin konfransı keçirildi. Konfransda 19 kafedra üzrə 78 tələbə çıxış etmişdir. Konfrans 3 bölmə üzrə, terapiya, nəzəri və cərrahiyə üzrə aparılmışdır. Terapiya bölməsi üzrə 38 çıxış, nəzəri bölmə üzrə 25 çıxış, cərrahiyə bölməsi üzrə isə 15 çıxış olmuşdur. Hər elmi iş dinlənildikdən sonra münsiflər tərəfindən qiymətləndirildi. Ən yaxşı nəticə göstərən 3 tələbə ilk 3 yerə layiq görüldü. Digər tələbələr isə diplom və kitab hədiyyələr ilə mükafatlandırıldı.

7-8 may 2019-cu il tarixində II Müalicə-profilaktika fakültəsinin TEC-nin konfransı ırildi. Konfransda 14 kafedra üzrə 44 tələbə çıxış etmişdir. Bunlardan 4-ü Psixatriya, 2-ışaq xəstəlıkləri, 2-si Fizika və İnformatika, 8-i Şüa dioqnostika, 7-si Patoloji fiziologiya, Normal fiziologiya, 2-si Daxili xəstəliklər,3-ü Ailə təbabəti, 2-si Mama və ginekologiya, Patoloji anatomiya, 3-ü Cərrahi xəstəliklər, Uralogiya, Ümumi cərrahiyyə dralarindan hər biri 1 tələbə təqdim etmişdir. Münsiflər heyyətinin qiymətləndirilməsinə ıən, təqdim olunan elmi işlərdən ilk yeri tutan 26 tələbə mükafatlandırıldı.

3-10 may 2019-cu il tarixində Stomatologiya fakültəsinin TEC-nin konfransı keçirildi. fransda 5 kafedra üzrə 32 tələbə çıxış etmişdir. Terapevtik stomatologiya kafedrası 2 tələbə, Ortopedik stomotologiya kafedrası üzrə 5 tələbə, Uşaq stomatologiya drası üzrə 5 tələbə, Ağız və üz çənə cərrahyiyə kafedrası üzrə 3 tələbə, Xarici dilər drası ingilis dili və rus dili üzrə 17 tələbə çıxış etmişdir. Çıxış edən tələbələr diplom və ikatlarla mükafatlandırıldı.

6-7 may 2019- cu il tarixində Əczaçılıq fakültəsinin TEC-nin konfransı keçirildi. fransda 7 kafedra üzrə 45 iş təqdim edilmişdir. Bunlardan 30 tələbə posterlə, 15 tələbə

əlmi işlə çıxış etmişdir. Qaliblərin hər biri diplom, hədiyyə və pul mükafatı ilə təltif muşdur. Digər iştirakçilar isə "AvroMed"şirkəti tərəfindən hədiyyələr və sertfikatlarla afatlandırılmışdır.

1-3-6 may 2019-cu il tarixində İctimai Səhiyyə fakültəsinin TEC-nin konfransı keçirildi. fransda 6 kafedra üzrə 60 tələbə çıxış etmişdir. Konfrans 3 bölmə üzrə aparıldı. obiologiya və İmmunologiya, Epidemiologiya,Yoluxucu xəstəliklər və Ftiziatriya ıəsi üzrə 37, Biokimya bölməsi üzrə 7, Gigiyena bölməsi üzrə isə 16 tələbə öz elmi i ilə cıxış etmişdir. Konfransın sonunda tədqiqat işini müvəffəqiyyətlə məruzə edib yer ı tələbələrə diplomlar, digər tələbələrə isə sertfikatlar təqdim edilmişdir.

18-19 aprel 2019-cu il tarixində Hərbi Tibb fakültəsinin TEC-nin konfransı keçirildi. fransda 18 tələbə çıxış etmişdir. Yaxşı cıxış edən tələbələrə diplom və sertfikatlar im olunmuşdur.

19 dekabr 2019- cu il tarixində ATU-nin Tədris-Terapevtik Klinikasının Akt zalında " Ən Yaxşı Tələdə Elmi Tədqiqatçısı" adı uğrunda Beynəlxalq müsabiqə kerçirildi. abiqədə 29 tələbə öz elmi işləri ilə çıxış etdilər. Onlardan 19-u ATU-nin tələbələri , 10 r isə xarici ölkə univrsitetlərində təhsil alan tələbələr idi. Fakültə konfransında qalib olan ɔələr bu müsabiqəyə qatıldılar. Beləliklə, I Müalicə-profilaktika fakültəsindən 7, II licə-profilaktika fakültəsindən 3, Stomatalogiya fakültəsindən 2, İctimai Səhiyyə ltəsindən 2, Əczaçılıq fakültəsindən 2, Hərbi Tibb fakültəsindən 3, Rusiya dövlətinin en Tibb Universitetindən 1, Özbəkistan respublikasının Daşkənd Pediatrik Tibb utundan 7, Daşkənd Tibb Akademiyasından isə 2 nəfər öz elmi işləri ilə çıxış etmişdilər. ımilikdə 13 tələbə elmi işlə, 16 tələbə isə posterlə çıxış etdi. Qalib tələbələr münsiflər yəti tərəfindən qiymətləndirildi. Məruzə və poster üzrə yüksək bal toplayan 5 tələbəyə et və sertfikat, qalan tələbələrə isə sertfikat təqdim edildi. TEC-in işlərində fəal iştirak ı müəllimlərədə diplomla təltif olunmuşdurlar.

**2022- Cİ İLdə TEC h**ər ilin mart-aprel aylarında olduğu kimi fakültə konfransları təşkil etdi, may ayında isə universitetin TEC-nin yekun konfransı keçirildi. Fakültələr üzrə:

***I Müalicə-Profilaktika Fakültəsi***

11-13 may 2022-ci il tarixində I Müalicə-Profilaktika fakültəsi Tələbə Elmi Cəmiyyətinin konfransı ATU-nin Tədris Cərrahiyyə Klinikasında keçirilmişdir.
Üç gün davam edən konfransda Təməl, Terapevtik və Cərrahi elmlər olmaqla ümumilikdə 42 elmi məruzə dinlənildi.

***Təməl elmlər bölməsi – 9 elmi iş***

1. Tibbi biologiya və genetika kafedrası - 3 elmi iş
2. İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 4 elmi iş
3. Histologiya, embriologiya və sitologiya kafedrası - 2 elmi iş

***Cərrahi bölmə -18 elmi iş***

1. I mamalıq-ginekologiya kafedrası - 4 elmi iş
2. I cərrahi xəstəliklər kafedrası - 6 elmi iş
3. III cərrahi xəstəliklər kafedrası - 1 elmi iş
4. Onkologiya kafedrası - 4 elmi iş

5. Uşaq cərrahlığı kafedrası - 3 elmi iş

***Terapiya bölməsi - 15 elmi iş***

1. Dermatovenerologiya kafedrası – 1 elmi iş
2. Nevrologiya kafedrası - 2 elmi iş
3. Anesteziologiya ve reanimatologiya kafedrası -2 elmi iş
4. I daxili xəstəliklər kafedrası - 2 elmi iş
5. Terapevtik və pediatrik propedevtika - 6 elmi iş
6. I Uşaq xəstəlikləri kafedrası - 1 elmi iş
7. Kliniki allerqologiya və immunologiya kafedrası – 1 elmi iş

Çıxış edən tələbələrə sertifikat təqdim edilmişdir.

***II Müalicə-Profilaktika Fakültəsi***

12-13 may 2022-ci il tarixində ATU-nun 4 saylı tədris binasında II Müalicə-Profilaktika fakültəsinin TEC-nin konfransı keçirilib.
Konfrans I hissədə 17, II hissədə 15, III hissədə isə 18 elmi işlə öz işinə başladı.
Konfransda İştirak edən kafedralar və onların payına düşən elmi işlərin sayı:

1. Patoloji fiziologiya kafedrası - 8 elmi iş
2. Patoloji anatomiya kafedrası - 5 elmi iş
3. Şüa diaqnostika və terapiyası kafedrası - 2 elmi iş
4. Ümumi cərrahiyyə kafedrası - 2 elmi iş
5. Normal fiziologiya kafedrası - 10 elmi iş
6. Tibbi və bioloji fizika kafedrası - 5 elmi iş
7. III Daxili xəstəliklər kafedrası - 1elmi iş
8. II Daxili xəstəliklər kafedrası - 1 elmi iş
9. II Uşaq xəstəlikləri kafedrası - 6 elmi iş
10. II Mama-ginekologiya kafedrası - 5 elmi iş
11. Travmatologiya və ortopediya kafedrası - 2 elmi iş
12. Fizioterapiya və realibitasiya kafedrası - 1 elmi iş
13. Urologiya kafedrası - 1 elmi iş
14. Psixatriya kafedrası - 1 elmi iş

Çıxış edən tələbələrə sertifikat təqdim edilmişdir.

***Əczaçılıq fakültəsi***

13 may 2022-ci il tarixində Əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin yekun elmi konfransı Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının konfrans zalında keçirilmişdir. Poster məruzələrə baxış 12 may 2022-ci il tarixində ATU-nun 2 saylı tədris binasında baş tutmuşdur.

Konfransa 47 tələbə qatıldı və onlar ümumilikdə 24 elmi iş təqdim etdilər.

Tələbələr 11 poster məruzə, 13 oral məruzə ilə çıxış etdilər. Tələbələr diqqətlə dinlənildi və onların hər birinə mövzu ətrafında suallar verildi. Ümumilikdə 21 tələbə (11 iş) isə müxtəlif nominasiyalar üzrə yerlər uğrunda mübarizədə qalib oldular.

1. Farmakoqnoziya kafedrası-3 elmi iş
2. Farmakologiya kafedrası-3 elmi iş
3. Əczaçılıq kimyası kafedrası-9 elmi iş
4. Əczaçılıq texnologiyası kafedrası-3 elmi iş
5. Umumi və Toksikoloji kimya kafedrası-4 elmi iş
6. Azərbaycan dili kafedrası-1 elmi iş
7. İctimai fənlər kafedrası-1 elmi iş

Qaliblərin hər biri sertifikat, hədiyyə və pul mükafatı ilə təltif olundular. Digər iştirakçılar isə "Zeytun Pharmaceuticals" QSC şirkəti tərəfindən hədiyyələr və sertifikatlarla mükafatlandırımışdir.

***İctimai Səhiyyə Fakültəsi***

28-29 aprel 2022-ci il tarixində ATU-nun İctimai səhiyyə fakültəsinin tibbi-profilaktika ixtisası üzrə TEC-in konfransı keçirildi. Konfrans 3 bölmə üzrə aparılmışdır. Qeyd etmək lazımdır ki, ümumilikdə konfransın təşkilat komitəsinə 35 TETİ təqdim edilmişdir.

1. Tibbi Mikrobiologiya və İmmunologiya, Epidemiologiya, Yoluxucu xəstəliklər və Ağciyər xəstəlkləri bölməsində - 20
2. Gigiyena bölməsində - 10 elmi iş
3. Biokimya bölməsində - 5 elmi iş

Bölmə üzrə məruzələr dinlənildikdən sonra tədqiqat işini yerinə yetirən tələbələrə sertfikat təqdim olunmuşdur.

***Stomatologiya Fakültəsi***

28-29 aprel 2022-ci il tarixində Stomatologiya fakültəsinin Xarici dillər kafedrasında konfransı keçirilmişdir. 2 gün keçirilən konfransda 38 məruzəçi iştirak etmişdir.

1. Terapevtik stomatologiya kafedrsı-2 elmi iş
2. Ortopedik stomatologuya kafedrası-5 elmi iş
3. Ağız və üz çənə cərrahiyyəsi kafedrası-6 elmi iş
4. Uşaq stomatologiyası kafedrası- 3 elmi iş
5. Xarici dillər kafedrası-22 elmi iş

| 14 | Puppet qurutməsı və digər infrastruktur tətbiqləri ilə inteqrasiyası |
| 15 | SonarQube qurulması və SonarQube Enterprise Edition lisenziyası (12 aylıq) |
| 16 | Elasticsearch, Kibana qurulməsı və digər infrastruktur tətbiqləri ilə inteqrasiya |
| 17 | Redis serverin qurulması və digər infrastruktur tətbiqiəri ilə ınteqrasıyast |
| 18 | Service Mesh qurulması və digər infrastruktur tətbiqləri ilə inteqrasıyası |
| 19 | Ansible qurulməsı və digər infrastruktur tətbiqləri ilə inteqrasiyası |
| 20 | Vault qurulması və digər infrastruktur tətbiqləri ilə inteqrasiyası |
| 21 | PagerDuty qufulması və PagerDuty Business lisenziyası (12 aylıq) |
| 22 | İnfrastuktura texniki dəstək |
| 23 | Veb tətbiq fayrvolu (WAF) qurulması |
| 24 | Təklif ediləcək Veb tətbiq fayrvolu (WAF) üçün müvafiq lisenziyanın alınması |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

5.5. *İctimaiyyətlə əlaqələr*

**Azərbaycan Tibb Universitetinin mətbuat orqanı olan “Təbib” qəzetinin son 6 il ərzindəki fəaliyyəti haqda ümumiləşdirilmiş hesabat**

Azərbaycan Tibb Universitetinin mətbu orqanı olan “Təbib” qəzetinin ilk sayı 1932-1938-ci illərdə Tibb İnstitutuna rəhbərlik etmiş böyük ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin şəxsi təşəbbüsü, böyük qayğısı ilə 16 dekabr 1933-cü ildə işıq üzü görüb. 90 illik tarixə malik olan qəzet 2018-2023-cü illər ərzində də ayda iki dəfə olmaqla A3 formatda və rəngli çap olunmaqda davam edib. Qəzet universitetin vəsaiti hesabına çap edilir və universitet daxilində pulsuz yayılır.

“Təbib” qəzeti 5 nəfər redaksiya heyətindən ibarətdir: Məğrur Əliyev (baş redaktor), Mənsur Ələkbərov (məsul katib), Arif Məmmədov (müxbir), Qabil Abdullayev (korrektor) və Mirağa Cavadov (proqramçı-mühəndis).

Qəzet universitetin ictimai həyatı, elmi yeniliklər, ən müxtəlif tədbirlər, aktual mövzular, tədris prosesi, tələbə dünyası, ölkəmizdə və dünyada səhiyyə sahəsi ilə bağlı məlumatları mütəmadi olaraq öz oxucularına çatdırır. Qəzetin səhifələrində yer alan həkim məsləhətləri, tanınmış alimlərin çıxışları təkcə tibb ictimaiyyəti, tələbələr arasında deyil, həmçinin geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanır. "Təbib" qəzeti təkcə universitet həyatı ilə kifayətlənmir, Azərbaycan səhiyyəsi ilə bağlı və cəmiyyətin maraq dairəsində olan aktual məsələlərə daim diqqət ayırır. Müasir dövrün texnoloji imkanlarından istifadə edilərək, qəzetin materialları universitetin amu.edu.az saytı və ölkəmizin digər elektron informasiya resursları vasitəsilə mütəmadi olaraq daha geniş auditoriyaya çatdırılır.

Universitetin rektorunun əmri ilə 2021-ci ilin may ayında qəzetin redaktoru vəzifəsinə 28 ildir ki, mətbuat sahəsində fəaliyyət göstərən, bir sıra tanınmış qəzet və saytlarda, o cümlədən İctimai Televiziya və Radio Yayımları Şirkətində rəhbər vəzifələrdə çalışmış, 44 günlük Vətən müharibəsində zabit kimi iştirak etmiş Məğrur Əliyev təyin olunub.

Son dövrlərdə qəzetin həm məzmun, həm də dizaynında mühüm dəyişikliklər edilib. Universitet həyatı, o cümlədən tədrisin təşkili, həkimlərimizin fəaliyyəti daha dolğun və operativ şəkildə işıqlandırılır. Eləcə də ATU-nun şəhid məzunları haqda silsilə məqalələr, müxtəlif rubrikalar altında maraqlı yazılar oxucuların ixtiyarına verilir. Qəzetdə tələbələrə yer verilməsinə xüsusi diqqət yetirilir. Onlar “Tələbə tribunası”, “Tələbə-dekan”, “İstedadlı tələbə”, xarici ölkə vətəndaşı olan tələbələrimiz üçün “Dünyadan bizimkilər” və digər rubrikalar altında daim qəzetin səhifələrində görünürlər. Hər il universitetdə bayrama çevrilən Buraxılış (Məzun) günü qəzetin səhifələrində öz əksini tapır. Dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlərlə tanışlıq, beynəlxalq konfrans və konqreslərə, təlimlərə, Tələbə Elmi Cəmiyyətinin və Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə keçirilən tədbirlərə dair çeşidli yazılar həm maarifləndirmə, həm də məlumatlandırma xarakteri daşıyır.

Qəzet həmişə həmkarlar ittifaqı təşkilatlarında, fakültə və kafedralarda olan yeniliklərlə maraqlanır, təlim-tərbiyə və təhsil, imtahanların gedişi və nəticəsi vaxtlı-vaxtında işıqlandırılır. Bundan başqa, qəzet öz səhifələrində oxucuların yaradıcılığına yer ayırır, universitetin idman sahəsini, tələbələrin yataqxana həyatını, yeməkxanaların fəaliyyətini diqqət mərkəzində saxlayır.

Kafedra rəhbərləri və professor-müəllim heyəti, həmçinin tələbələrlə sıx əməkdaşlıq edən qəzetin yaradıcı heyəti vaxtaşırı sorğular apararaq, oxucuların maraq dairəsini nəzərə alır, yeni ideyalar həyata keçirir.

Onu da qeyd edək ki, qəzetdə universitetin müsabiqə elanları, əməkdaşların yubileyləri, yeni nəşrlər, eləcə də başsağlıqları, itmişdir elanları öz əksini tapır.

Hazırda "Təbib" qəzeti respublika səviyyəli nəşrlərdən geri qalmır. Məzmunla yanaşı, vizual tərtibatın da önəmini nəzərə alan redaksiya heyəti Yeni il, Novruz bayramı, Zəfər Günü və digər əlamətdar tarixlərlə bağlı fərqləndirici və gözoxşayan elementlərdən istifadə edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 6. İNFRASTRUKTUR

### *6.1. Tədris infrastrukturu*

Tələbələr üçün rasional yeməklər təşkil olunur-5 saylı tədris binasında isti sexi ilə tam təchiz olunmuş, yeməkxana, digər tədris binalarında və iki yataqxanada bufetlər fəaliyyət göstərir.

Universitetin ümumi sahəsi 18606m2 və yaşayış sahəsi 16851m2 olan 6 tələbə yataqxanası var, yataqxanalardakı çarpayıların sayı 1251-dir. Bunlardan 2-si hal-hazırda təmirdədir

| № | Yataqxanalar | Tələbə sayı |
|---|---|---|
| **1** | 1 saylı yataqxana | 138 |
| **2** | 2 saylı yataqxana | 131 |
| **3** | 5 saylı yataqxana | 260 |
| **4** | 6 saylı yataqxana | 217 |
| | **Cəmi** | 746 |

Yataqxanalarda iş ATU-nun tələbə yataqxanası haqqında Əsasnamə və tələbə yataqxanasında Daxili Nizamnamə ilə tənzimlənir. Otaqlarda yaşayan tələbələrin sayı sanitar normalara uyğundur. Bütün yataqxanalar normalara uyğun təmizlik, yuyucu və dezinfeksiyaedici vasitələrlə tam təmin olunur, yataq dəstləri və mebellərlə təchiz olunub. Bütün yataqxanalarda turniketlərdə, elektron keçidlərdən istifadə etməklə girişə nəzarət rejimi təşkil olunub, mühafizə təşkilatlarının əməkdaşları tərəfindən nəzarət olunur. Yataqxanalarda tələbə özünü idarə orqanları (tələbə-dekanları) yaradılmış, universitet və yataqxanaların rəhbərliyi ilə sıx əlaqədə fəaliyyət göstərir ki, onların bütün arzu və təklifləri universitet rəhbərliyi tərəfindən daim nəzərə alınır. Yataqxanalar yaşayış üçün yanğın təhlükəsizliyi tələbələrinə və sanitar-gigiyenik normalara uyğundur. Yataqxanaların birinci mərtəbələrində tələbələr üçün oxu zalları təşkil olunmuşdur internetə qoşulmuşdur.

Hərbi-Tibb Fakültəsinin Kursantları Fakültə ərazisində yerləşən kazarmalarda məskunlaşmışdır. Tibbi xidmət kursantlara Müdafiə Nazirliyinin Mərkəzi Hərbi poliklinikasında və Baş Klinik Hospitalda təşkil olunub. Kursantlar Fakültənin

internet şəbəkəsinə qoşulmuş komputerlərlə təchiz olunmuş elektron kitabxanasından istifadə imkanına malikdirlər.

Təhsil müəssisəsinin təhlükəsizliyinə, müəllim və işçilərin əməyinin mühafizəsinə böyük diqqət yetirilir. Təhlükəsizlik məqsədilə universitetin ərazisi və hasarlanmış binaları videomüsahidə kameraları ilə təchiz olunmuşdur. Bütün yataqxanalar və tədris binalar klinikalar müasir yanğınsöndürmə sistəmləri ilə təchiz edilmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

*6.2. Elmi-tədqiqat infrastrukturu*

Azərbaycan Tibb Universitetinin Elmi-Tədqiqat Mərkəzi və Elmi Tədqiqat laboratoriyaları mövcudur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 6 noyabr tarixli 242 saylı qərarı ilə təsdiq edilmiş 6 №-li əlavəyə əsasən Azərbaycan Tibb Universitetinin nəzdində olan Elmi-Tədqiqat Mərkəzi (ETM) müstəqil balansa və hüquqi şəxs statusuna malikdir və Universitetin əsas elmi-eksperimental bazasıdır. Universitetin Elmi İşləri üzrə Prorektoruna tabedir. Onun yaradılmasında əsas məqsəd tibb elminin mühüm problemlərinin həllində Tibb Universitetinin kafedralarına və eləcə də Respublika Səhiyyə Nazirliyinin tabeliyində olan digər idarə və təşkilatlara elmi, metodik və texniki kömək göstərməkdir.

Elmi-Tədqiqat Mərkəzinin əsas vəzifələri:

- Planlaşdırılmış və Respublika Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş sərbəst elmi-tədqiqat işləri aparmaq.
- Azərbaycan Tibb Universitetinin kafedralarından və eləcə də Respublika Səhiyyə Nazirliyinin tabeliyində olan idarə və təşkilatlardan ezam olunmuş fəlsəfə və elmlər doktorluğu və dissertantura üzrə tədqiqat aparan əməkdaşlara elmi-tədqiqat işlərinin aparılmasında elmi, metodik və texniki kömək göstərmək.
- Azərbaycan Tibb Universitetinin Rektorunun razılığı əsasında ETM-i Azərbaycan Milli Elmlər Akademiyasının ET İnstitutları ilə də müqavilə əsasında elmi-tədqiqat işləri apara bilər. Bu zaman müqavilənin şərtləri Universitetinin rektoru tərəfindən təsdiqlənməlidir. Hərbi –Tibb fakültəsinin elmi tədqiqatların aparılması üçün professor-müəllim heyəti, həmçinin rezident və kursantlar Fakültənin klinik bazası olan Müdafiə Nazirliyinin balansında olan hospital, poliklinika və tibb müəssisələrinin imkanlarından istifadə edə bilirlər.
- Tibb Universitetinin əməkdaşları tədqiqat aparmaq məqsədilə ETM-ə elmi işlər üzrə prorektorun göndərişi əsasında, digər təşkilat və müəssisələrdən isə yalnız rektoru tərəfindən imzalanmış göndəriş əsasında ezam olunurlar

**Elmi Tədqiqat laboratoriyalar**

| **s/n** | **Lokasiyanın adı** | **Yerləşdiyi kafedra/bina** | **Otaqların sayı** | **Ümumi sahəsi** |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| | | | | $m^2$ |
| 1 | Elmi-Tədqiqat laboratoriyası | Pataloji anatomiya | 5 | 158$m^2$ |
| 2 | Elmi-Tədqiqat laboratoriyası | Pataloji fiziologiya | 1 | 25 $m^2$ |
| 3 | Elmi-Tədqiqat laboratoriyası | İnsan anatomiyası və tibbi teminlar | 16 | 509.73 $m^2$ |
| 4 | Elmi-Tədqiqat laboratoriyası | Normal fiziologiya | 1 | 15 $m^2$ |
| 5 | Elmi-Tədqiqat immunologiya laboratoriyası | Əsas tədris binası | 1 | 24 $m^2$ |
| 6 | Elmi-Tədqiqat laboratoriyası | Mikrobiologiya və immunologiya | 4 | 64 $m^2$ |
| 7 | Elmi-Tədqiqat laboratoriyası | Bioloji kimya | 2 | 28 $m^2$ |
| 8 | Elmi-Tədqiqat laboratoriyası | Farmakologiya | 1 | 21 $m^2$ |
| 9 | Elmi-Tədqiqat laboratoriyası | Farmakoqnoziya | 1 | 22 $m^2$ |
| 10 | Elmi-Tədqiqat laboratoriyası | Əczaçılıq kimyası | 1 | 32 $m^2$ |
| 11 | Elmi-Tədqiqat laboratoriyası | Əczaşılıq texnologiyası və idaretməsı | 1 | 32 $m^2$ |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqəsədəuyğundur)

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1. Beynəlmiləlləşmə siyasəti*

Azərbaycan Tibb Universiteti müasir qloballaşan dünyada beynəlmiləlləşmənin vacibliyini qəbul edir. Bu siyasət universitet daxilində beynəlmiləlləşmə səylərini istiqamətləndirmək və təşviq etmək məqsədi daşıyır. O, beynəlxalq əməkdaşlığı, müxtəlifliyi və mədəniyyətlərarası anlaşmanı gücləndirmək üçün zəruri olan prinsipləri, strategiyaları və tədbirləri təsvir edir.

Beynəlmiləlləşmə siyasəti Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün inkişaf strategiyasIna uyğun olaraq tərtib olunmuşdur.

**Beynəlmiləlləşmə siyasətinin məqsədləri:**

1. Qlobal perspektivin təşviqi: ATU beynəlxalq təcrübənin, mədəniyyətlərarası anlaşmanın və qlobal şüurun təşviq edilməsi yolu ilə təhsilalanlar, professor-müəllim və inzibati heyyət arasında qlobal perspektivi inkişaf etdirmək.

2. Təhsilalan və professor-müəllim heyətinin mobilliyini genişləndirmək: ATU bilik mübadiləsini, elm və əməkdaşlığı təşviq etmək üçün akademik mübadilə proqramlarını, birgə tədqiqatları və beynəlxalq müəssisələrlə tərəfdaşlığı həyata keçirir.
3. Əcnəbi təhsilalanları cəlb etmək: Onlara keyfiyyətli təhsil, dəstək xidmətləri və qonaqpərvər kampus mühiti təqdim etməklə istedadlı əcnəbi təhsilalanları cəlb etmək.
4. Akademik və inzibati heyətin beynəlxalq inteqrasiya çərçivəsində inkişafı: ATU tolerant iş mühiti yaratmaqla ixtisaslı beynəlxalq akademik və inzibati heyəti işə qəbul prosessini həyata keçirir.
5. Tədqiqat əməkdaşlığını təşviq etmək: ATU elmi biliyi və elmi-tədqiqat innovasiyalarını təşviq etmək üçün beynəlxalq tədqiqatçılar və müəsissələr ilə elmi əməkdaşlığı dəstəkləyir.

**Fəaliyyətlər**

ATU təhsilalan və professor-müəllim heyətinin mobillik siyasəti mübadilə proqramları, xaricdə təhsil imkanları, təcrübə proqramları, təhsil və peşəkar mobilliyin digər formalarını əhatə edən mobillik proqramlarında iştirak edən təhsilalan və professor-müəllim heyəti üçün təlimat və prosedurları müəyyən edir və yerinə yetirir.

**Mobillik imkanları**

Tələbə mobilliyi: ATU tələbələri dəyərli öyrənmə və mədəni təcrübələr təqdim edən mobillik proqramlarında iştirak etməyə təşviq edir. Bu cür proqramlara tələbə mübadiləsi proqramları, beynəlxalq təcrübə proqramları, xaricdə klinik rotasiyalar və ya akademik tədqiqat əməkdaşlıqları daxil ola bilər.
Professor-müəllim və inzibari heyətinin mobilliyi: ATU professor-müəllim və inzibati heyətinin peşəkar inkişafını, bilik mübadiləsini və əməkdaşlığını təşviq edən mobillik proqramlarını dəstəkləyir. Professor-müəllim heyəti akademik işçilərin mübadiləsi proqramları, təlim seminarları, konfranslar və ya tərəfdaş qurumlarla birgə layihələrin təşkilatında iştirak edir.

**Uyğunluq və müraciət prosesi**

Tələbə uyğunluğu: Tələbələr mobillik proqramlarında iştirak etmək üçün ATU və tərəfdaş qurumlar tərəfindən müəyyən edilmiş xüsusi meyarlara cavab verməlidirlər. Buraya akademik nailiyyət, dil biliyi və qəbul edən təşkilat tərəfindən qoyulan hər hansı əlavə tələblər daxil ola bilər.
Professor-müəllim heyətinin uyğunluğu: Professor-müəllim heyətinin üzvləri öz ixtisaslarından, peşəkar təcrübələrindən və xüsusi mobillik tələblərindən asılı olaraq mobillik proqramlarında iştirak etmək hüququna malikdirlər. Onlar uyğunluq və müraciət prosedurlarını müəyyən etmək üçün öz kafedraları və ya müvafiq qurumlarla məsləhətləşməlidirlər.
Müraciət prosesi: Təhsilanlar və professor-müəllim heyəti ATU-nun müəyyən etdiyi müraciət prosedurlarına və son tarixlərə riayət etməlidirlər. Buraya ərizə

formalarının, akademik transkriptlərin, tövsiyə məktublarının, dil bilikləri sertifikatlarının və hər hansı digər tələb olunan sənədlərin təqdim edilməsi daxil ola bilər.

**Proqram seçimi və yerləşdirmə**

**Proqram seçimləri:** ATU təhsilalanlar və professor-müəllim heyətini mövcud mobillik proqramları, o cümlədən mübadilə imkanları, təcrübə proqramları, tədqiqat əməkdaşlığı və ya digər müvafiq fəaliyyətlər haqqında məlumatla təmin edəcəkdir.
**Seçim prosesi:** Mobillik proqramları üçün iştirakçıların seçilməsi müraciətlərin nəzərdən keçirilməsi, müsahibələr və ya rəqabətli qiymətləndirmə prosesi ilə həyata keçirilə bilər. Yekun qərar uyğunluq, ixtisaslar, proqramın mövcudluğu və qəbul edən təşkilat və ya proqram tərəfindən müəyyən edilmiş hər hansı xüsusi meyarlara əsaslanacaqdır.
**Yerləşdirmə:** ATU seçilmiş iştirakçıların üstünlüklərini, akademik/peşəkar məqsədlərini və iştirakçılar ilə ev sahibi qurumlar/proqramlar arasındakı uyğunluğu nəzərə alaraq müvafiq qəbuledici təşkilatlarda və ya proqramlarda yerləşdirilməsinə kömək edəcək.

**Akademik tanınma və kredit transferi**
**Tələbə kreditlərinin transferi:** ATU mobillik proqramları zamanı əldə edilmiş akademik kreditlərin tanınmasını və transferini müvafiq qaydalara və təlimatlara uyğun olaraq həyata keçirir. Məsul akademik kafedralar kredit ekvivalentini və iştirakçıların akademik proqramına inteqrasiyanı müəyyən etmək üçün mobillik dövründə həyata keçirilən fəaliyyətləri nəzərdən keçirirlər. Tələbələr mobillik təcrübəsinin onların akademik kurrikulumlarına rahat keçidini və inteqrasiyasını təmin etmək üçün müəyyən edilmiş kredit transferi prosedurlarına və təlimatlarına əməl etməlidirlər.
**Professor-müəllim heyətinin peşəkar inkişafı:** ATU professor-müəllim heyətinin mobillik proqramları vasitəsilə əldə etdikləri peşəkar inkişafını qəbul edir və dəstəkləyir. ATU mobillik dövründə əldə edilmiş bilik, bacarıq və səriştələri qiymətləndirəcək və tanıyacaq.

**Maliyyə tənzimləmələri**
**Xərclər:** Mobillik proqramlarının iştirakçıları xüsusi təqaüdlər və ya maliyyə imkanları ilə başqa hal nəzərdə tutulmayıbsa, səyahət xərclərini, yaşayış yeri, sığorta, viza haqları və hər hansı digər əlaqədar xərclərini ödəməyə cavabdehdirlər.
**Təqaüdlər və maliyyə dəstəyi:** ATU uyğun iştirakçılar üçün mövcud təqaüdlər, qrantlar və ya maliyyələşdirmə variantları ilə bağlı məlumat və dəstək təmin edə bilər. Təhsilalanlar və professor-müəllim və inzibati heyət həmçinin xarici təqaüdləri və maliyyə mənbələrini də araşdırmağa təşviq olunurlar.

**Sağlamlıq və təhlükəsizlik**

**Tibbi sığorta:** İştirakçılar mobillik proqramı müddətində etibarlı və adekvat tibbi sığorta təminatına malik olmalıdırlar. Onlar müraciət formalarının bir hissəsi kimi sığorta şəhadətnaməsini təqdim etməli və bunun mobillik dövründə tibbi xərcləri və fövqəladə halları əhatə etməsini təmin edir.
**Təhlükəsizlik təlimatları:** ATU iştirakçılara səyahət tövsiyələri, ehtiyat tədbirləri, sağlamlıq riskləri və tələb olunan peyvəndlər və ya seçilmiş istiqamət üzrə tibbi tələblər haqqında məlumat verir.

**Hesabat və qiymətləndirmə**

**Hesabat tələbləri:** İştirakçılardan mobillik proqramı zamanı təcrübələrini, nailiyyətlərini və qarşılaşdıqları çətinlikləri sənədləşdirən dövri hesabatlar və ya qiymətləndirmələr təqdim etmələri tələb olunur. Bu hesabatlar proqramın qiymətləndirilməsinə, təkmilləşdirilməsinə və gələcək iştirakçılarla dəyərli fikirlərin paylaşılmasına kömək edir.
**Mobillik proqramlarının qiymətləndirilməsi:** ATU mobillik proqramlarının effektivliyini, iştirakçıların məmnunluğunu və ümumi nəticələrini qiymətləndirmək üçün onların qiymətləndirilməsini həyata keçirəcək. Gələcək mobillik imkanlarının davamlı təkmilləşdirilməsi üçün iştirakçılar, qəbul edən qurumlar və müvafiq maraqlı tərəflərin rəyləri nəzərə alınacaq.

**Təhsilalanlara uyğunluq və cəza tədbirləri**
**Davranış qaydaları:** İştirakçılar mobillik proqramı boyunca ATU-nun Daxili Nizam-İntizam Qaydalarına riayət etməli, peşəkarlığı, etik davranışı qorumalı və yerli qanunlara, adətlərə və qəbul edən təşkilatın qaydalarına hörmətlə yanaşmalıdırlar.
**Uyğunsuzluq:** Mobillik qaydalarına, Daxili Nizam-İntizam Qaydalarına və ya qəbul edən təşkilat tərəfindən müəyyən edilmiş hər hansı xüsusi tələblərə əməl edilməməsi intizam tədbirləri, o cümlədən məsləhətləşmə, mobillik proqramından imtina və ya ATU tərəfindən müəyyən edilmiş digər müvafiq tədbirlərlə nəticələnə bilər.

**Yenidən baxılma və dəyişikliklər**
Bu Mobillik Qaydaları ATU-nun və mobillik proqramlarının dəyişən ehtiyaclarına, siyasətlərinə və qaydalarına uyğunluğunu təmin etmək üçün vaxtaşırı nəzərdən keçiriləcək və zəruri hallarda yenilənəcək.

**Tədris proqramlarının (kurrikulumun) beynəlmiləlləşdirilməsi**
- Tələbələrin beynəlxalq problemlər və mədəni müxtəliflik haqqında anlayışını təkmilləşdirmək üçün qlobal perspektivləri və mədəniyyətlərarası məzmunu kurrikuluma inteqrasiya etmək.
- Tələbələrə qlobal səhiyyə problemlərini və səhiyyə sistemlərini araşdırmaq imkanı vermək üçün beynəlxalq əhəmiyyətli fənlərin və proqramların hazırlanması.

**Dil bacarıqları**

Effektiv ünsiyyət və əməkdaşlığı təşviq etmək üçün tələbələrin, müəllimlərin və inzibati işçilərin ingilis dili biliklərini artırmaq üçün dil kursları və dəstək xidmətlərinin təklif edilməsi.

**İcra və Qiymətləndirmə**

Universitet rəhbərliyi müvafiq struktur bölmələri və maraqlı tərəflərlə əməkdaşlıq edərək bu siyasətin həyata keçirilməsinə cavabdehdir.

Beynəlmiləlləşdirmə səylərinin səmərəliliyini qiymətləndirmək və təkmilləşdirilməli sahələri müəyyən etmək üçün müntəzəm monitorinq və qiymətləndirmə aparılmalıdır.

Siyasət universitetin inkişaf edən ehtiyac və məqsədlərinə uyğunluğunu təmin etmək üçün vaxtaşırı nəzərdən keçirilməlidir.

Beynəlmiləlləşmə siyasəti 2023-2026-cı illər üçün tərtib olunub və 2027-ci il üçün yenilənəcəkdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

7.2. *Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

ATU-da beynəlmiləlləşmə proseslərini Beynəlxalq əlaqələr üzrə prorektorluq həyata keçirir. Beynəlxalq  əlaqələr üzrə prorektor Beynəlxalq əlaqələr şöbəsinin və Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq işini koordinasiya edir.

**Beynəlxalq əlaqələr şöbəsinin** strukturu 4 nəfərdən ibarətdir: şöbə müdiri, şöbə müdirin müavini, mübadilə proqramları koordinatoru və operator. Xarici tələbələrlə iş üzrə dekanlığın strukturu: dekan, 4 dekan müavini, 2 tyutor, 1 miqrasiya mütəxəssisi, 3 operator.

Təşkilatı struktur fəaliyyətini beynəlmiləlləşmə siyasətinə uyğun olaraq qurur.

ATU Elmi Şurasının qərarı ilə mübadilə proqramlarında iştirak etmiş tələbələrin kreditlərinin tanınmasında diferensiallıq nəzərdə tutulmuşdur.

ATU Elmi Şurasının qərarı ilə "Qonaq professor" akademik vəzifəsi təsis olunmuşdur. Hal-hazırda ATU-nun 7 qonaq professoru və 1 dəvətli mühazirəçi vardır. Həmçinin, ATU-nun ikitərəfli müqavilələr əsasında əməkdaşlıq etdiyi universitetlərin akademik heyəti tələbələrimizə mühazirə, ustad dərsləri və praktik məşğələlər keçmək üçün dəvət olunurlar.

ATU-nun Elmi Şurasının qərarı ilə bütün kafedralarda və struktur bölmələrdə ictimai əsaslarla beynəlxalq əlaqələr üzrə koordinator vəzifəsi təsis olunmuşdur. Beynəlxalq əməkdaşlığa aid olan bütün məlumatlar koordinatorlara email və WhatsApp qrup vasitəsilə çatdırılır. Hər təqvim ilinin sonunda kafedralardan və struktur bölmələrdən beynəlxalq fəaliyyətləri haqqında hesabat tələb olunur.

**XARİCİ TƏLƏBƏLƏRLƏ İŞ ÜZRƏ DEKANLIĞIN FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ:**

-Dinləyici və tələbələrin qəbulu və universitetdən xaric olması;

-Xarici tələbələrin universitet daxili nizam-intizam qaydalarına əməl etmələrinə nəzarət və bu tələbələrlə təlim-tərbiyə işinin aparılması;
-Xarici tələbələrə viza köməkliyinin göstərilməsi;
-Xarici dinləyicilərin,tələbələrin, magistr,rezident və doktorantların Azərbaycan Respublikasına gəlməsinə müvəqqəti icazə alınmasının təmin etmək;
-Digər dekanlıqlarla dərs prosesinin təşkilində və keyfiyyətinin yüksəlməsində birlikdə iştirak etmək;
-Müvafiq dekanlıqlarla xarici tələbələr arasında əlaqə yaratmaq;
-Ümumxalq təhsil sferasında müxtəlif konfrans,simpozium və tədbirlərdə iştirak etmək;
-Hazırlıq kursunun tədris prosesinə nəzarət etmək;
-Universitet rektoru tərəfindən xarici tələbələrin təqdimatını Səhiyyə Nazirliyinə,Təhsil Nazirliyinə, Dövlət Miqrasiya xidmətinə və digər dövlət müəssisələrinə çatdırmaq;
-Milli bayramların,mədəni kütləvi tədbirlərin keçirilməsinin təşkili.

Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq eilməsi aşağıdakı qaydaya müvafiq həyata keçirilir. Beynəlxalq əlaqələr üzrə prorektor ildə 2 dəfə ATU-nun Elmi Şurasında fəaliyyət barədə hesabat ilə çıxış edir. Hesabat müzakirə və təhlil edilir, nöqsanların aradan götürülməsi üçün həll yolları təklif olunur.
ATU əməkdaşlıq etdiyi nüfuzlu beynəlxalq universitetlər ilə ikili diplom proqramlarının təşkil olunmasında maraqlıdır. Bu istiqamətdə ATU-da yeni açılmış "Tibb bacısı işi" və "Fizioterapiya və tibbi reabilitasiya" ixtisasları üzrə Türkiyənin Gazi Universiteti ilə intensiv müzakirələr aparılır.
Mübadilə proqramlarında iştirak etmək üçün qeydiyyat elanları universitetin rəsmi saytında verilir, həmçinin bütün kafedraların və struktur bölmələrin koordinatorlarına əməkdaşlara çatdırmaq tələbi ilə korporativ email şəbəkəsi və WhatsApp qrupu vasitəsilə göndərilir.
ATU-nun beynəlxalq reytinq şkalalarındakı mövqeyini yüksəltmək üçün Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentlik (IAAR) ilə rəsmi müqavilə imzalanmışdır.
Avrasiya Universitetləri arasında keçirilən "IAAR EUR -2022" Reytinqinə yekun vurulub. Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (Independent Agency For Accreditation and Rating - IAAR) keçirdiyi ekspert qiymətləndirməsinin nəticələrinə əsasən Azərbaycan Tibb Universiteti qaliblərdən biri olub, İAAR-ın Avrasiya tibb universitetləri arasında ilk üçlükdə yer alıb. ATU rəsmi olaraq Beynəlxalq Akkreditasiya və Reytinq Agentliyi yüksək akademik nailiyyətləri və IAAR reytinq araşdırmalarının aparılmasına qatılaraq, qətiyyətli dəstək nümayiş etdirdiyinə görə Azərbaycan Tibb Universiteti "İAAR Avrasiya Tibb Universiteti" mükafatına layiq görülüb.
IAAR tərəfindən Avrasiya universiteləri arasında aparılan araşdırmaya əsasən, ATU tibb universieləri sırasında III yer, ümumi (müxtəlif profilli) universitetlər arasında isə ilk onluğa daxil edilmişdir.

| |
|---|
| ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesi AKTS-in tələblərinə uyğun təşkil olunur. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

| |
|---|
| İnsan resursları: 17 nəfər (Beynəlxalq prorektorluq, Beynəlxalq əlaqələr üzrə şöbə, Əcnəbi təhsilalanlarla iş üzrə dekanlıq)<br><br>Maliyyə resursları:<br>- İnzibati heyətin beynəlxalq səfərləri<br>- Universitetin rəsmi dəvəti ilə gələn əcnəbi qonaqların nəqliyyat, yaşayış və yemək xərcləri<br>- Orhun mübadilə proqramı ilə gələn və gedən akademik heyətin xərcləri (gələn müəllimlərin yaşayış və yemək xərcləri, gedən müəllimlərin yol xərcləri)<br>- Beynəlxalq elmi tədbirlərdə (konfrans, seminar, təlim, olimpiada və s.) iştirak edən akademik heyət və tələbələrin səfər, yaşayış və yemək xərcləri<br>- Beynəlxalq elmi tədbirlərin keçirilməsinə ayrılan xərclər<br>Maddi-texniki təchizat resursları:<br>- kompyuterlər<br>- printerlər |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*7.4. Beynəlmiləlləşmə performansı*

| |
|---|
| Azərbaycan Tibb Universitetinin Beynəlmiləlləşmə siyasətinə əsasən ATU beynəlxalq təşkilatlarla və universitetlərlə müqavilələr və memorandumların imzalanmasını təmin edir. ATU-nun illər üzrə müxtəlif ölkələrin ali təhsil müəssisələri, tibb və elmi-tədqiqat mərkəzləri ilə imzaladığı memorandum və digər uyğun sənədlərin dinamikası aşağıdakı kimi olmuşdur:<br>2017-ci il - 4 ölkə - 7 memorandum;<br>2018-ci il - 4 ölkə - 7 memorandum;<br>2019-cu il - 9 ölkə - 26 memorandum, həmçinin Mevlana mübadilə proqramı çərçivəsində - 2, Erasmus+ proqramı üzrə 1 müqavilə.<br>2020-ci il - 8 ölkə - 15 memorandum, 1 Mevlana mübadilə proqramı müqaviləsi;<br>2021-ci il - 9 ölkə - 20 memorandum, 5 Mevlana mübadilə proqramı müqaviləsi, 1 Erasmus+ müqaviləsi;<br>2022-ci il - 11 ölkə - 23 memorandum, 1 – Mevlana mübadilə proqramı müqaviləsi, 3 ölkə ilə 4 Erasmus+ müqaviləsi, 2 – Orhun mübadilə proqramı müqaviləsi;<br>2023-cü il - 5 ölkə - 10 memorandum (2 ölkə ATM ilə 4 Erasmus+ müqaviləsi imzalanma prosesindədir). |

Bu memorandumlar çərçivəsində ATU tələbələri xarici ölkələrdə əsasən Türkiyə və Almadiyada yay təcrübəsi keçiblər. Həmçinin, ATU-ya təcrübə keçmək üçün Qazaxıstan və BƏƏ-dən tələbələr qəbul olunub:
2017-2018-ci tədris ili – təcrübə üçün gedən tələbələr – 35, gələnlər – 18 nəfər;
2018-2019-cu tədris ili – gedən tələbələr – 129, gələnlər – 17 nəfər;
2019-2020-ci tədris ili – gələn tələbələr – 11 nəfər;
2021-2022-ci tədris ili – təcrübə üçün gedən tələbələr – 264, gələn tələbələr – 30 nəfər; Orhun mübadilə proqramında 1 tələbə iştirak edib.
2022-2023-cü tədris ili – təcrübə üçün gələn tələbə sayı – 25 nəfər; Erasmus+ ilə gedən tələbə - 1 nəfər.
İkitərəfli əməkdaşlıq protokolları əsasında universitetimizin rezidentləri xarici ölkələrin (əsasən Türkiyə və Almaniya) universitet kafedralarında və digər xəstəxanaların müvafiq şöbələrində müxtəlif müddətlərdə klinik rotasiya keçirlər:
2019-2020-ci ildə - 51 rezident;
2021-2022-ci ildə - 72 rezident;
2021-2022-ci ildə -81 rezident.
2017-2018-ci illər ərzində Erasmus+ proqramı çərçivəsində 1 kafedra əməkdaşı İspaniyada, 2018-2019-cu və 2019-2020-ci illərdə müvafiq olaraq 2 kafedra əməkdaşı Fulbright Qonaq Təqaüdçü Proqramı çərçivəsində ABŞ-da elmi-tədqiqatla məşğul olmuşdur. 2018-2019-cu tədris ilində ABŞ Çikaqo Dövlət Universitetinin 1 professoru Fulbright Qonaq Təqaüdçü Proqramı çərçivəsində ATU-da elmi tədqiqatla məşğul olmuş, həmçinin mühazirələr və praktik dərslər keçmişdir.
Akademik heyətin mübadilə proqramları çərçivəsində mobilliyi aşağıdakı kimi olmuşdur:
Orhun mübadilə proqramı:
2021-2022-ci il – gedən 2 nəfər, gələn 2 nəfər
2022-2023-cü il – geələn 1 nəfər
Erasmus+ proqramı:
2021-2022-ci il – gedən 1 nəfər, gələn 2 nəfər
2022-2023-cü il – gedən 1 nəfər
Visegrad mübadilə proqramı:
2020-2021-ci il – gedən doktorant – 1 nəfər.
2020-2021-ci tədris ilinini payız semestrində ATU-nun 4 müəllimi Ukraynanın Xarkov Milli Tibb Universitetinin tələbələrinə onlayn dərslər keçiblər.
2022-2023-cü tədris ilində ATU-nun 2 müəllimi S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetində dəvətli professor statusunda akademik fəaliyyət göstərblər.
ATU-nun tələbələri müxtəlif ölkələrdə keçirilən beynəlxalq tələbə konfransları, olimpiadalar və digər tədbirlərdə uğurla iştirak edirlər. ATU-nun tələbələrdən ibarət “ATU alovları” komandası 2017, 2018 və 2019-cu illərin may aylarında Rusiya Federasiyasının Stavropol Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə ilkin tibbi yardımın göstərilməsi üzrə tibb tələbələrinin Beynəlxalq “Asklepiy" olimpiadasında uğurla iştirak etmişlər. 03-06.07.2018-ci il ildə ATU-nun əczaçılıq fakültəsinin tələbələri Rusiya Federasiyasının Krasnodar vilayətinin Soçi

| |
|---|
| şəhərində “Yaxşıların seçimi. İrəli getmək zamanıdır” adlı II Beynəlxalq ali məktəblərarası GxP-sammitində iştirak ediblər. 20-21.02.2020-ci ildə ATU-nun tələbələrdən ibarət komandası Rusiya Federasiyasının Mahaçqala şəhərində Dağıstan Dövlət Tibb Universitetinin təşkil etdiyi ilk yardımın göstərilməsi üzrə “Xilas et və qoru” adlı IV Beynəlxalq olimpiadada iştirak etmişlər.<br>2014-cü ildən başlayaraq ATU-nun Tələbə Elmi Cəmiyyəti hər il tələbələr və gənc həkimlər üçün Beynəlxalq Tibb Konqresləri keçirir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 38 | | | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 5 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **43** | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 19 | | | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 10 | | | | |
| **İstiqamət üzrə yekun bal** | 41 | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 10 | | | | |
| 3.2 Təhsil proqramları | 25 | | | | |
| 3.3 Tədrisin təşkili | 62 | | | | |
| 3.4 Tədris metodları və üsulları | 22 | | | | |
| 3.5 Təlim və tədris resursları | 47 | | | | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 32 | | | | |
| 3.7 Professor-müəllim heyəti | 36 | | | | |
| 3.8 Tələbəyönümlü tədris | 22 | | | | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 10 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 10 | | | | |
| **İstiqamət üzrə yekun bal** | 276 | | | | |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 16 | | | | |
| 4.2 Tədqiqat resursları | 18 | | | | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 43 | | | | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 7 | | | | |
| **İstiqamət üzrə yekun bal** | 82 | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 26 | | | | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 25 | | | | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 39 | | | | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 20 | | | | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 17 | | | | |
| **İstiqamət üzrə yekun bal** | 127 | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 36 | | | | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | |
| **İstiqamət üzrə yekun bal** | 42 | | | | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 21 | | | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 26 | | | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 12 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **İstiqamət üzrə yekun bal** | 65 | | | | |
| **Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | 678 | | | | |

6. **Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər**

Təşkilat komissiyasının özünütəhlilin gəldiyi nəticə ondan ibarətdir ki 813 baldan 678 bal toplanılıb, bu da TKTA-nın təlimatına uyğun olaraq 83% təşkil edir və müvafiq Akkreditasiya Meyarlarına əsasən uyğun olduğunu müəyyən edib. Təşkilatı komissiya ATU-ya aşağıdakı tövsiyyələri verir:

1. ATU-nun nəzdində olan kliniklar GZİT təhlili aparsın
2. ATU-nun nəzdində olan kliniklar Forcefield diaqram qursun
3. ATU-nun nəzdində olan kliniklar GZİT təhlili və Forcefield diagram əsasında İnkişaf Strategiyasını və fəaliyyət planları tərtib olunsun
4. 2023-cü ilin sentyabr ayından universitetdə təhsil, klinik və sosial mühiti yaxşılaşdıran yeni keyfiyyət meyarlarının fəal şəkildə praktikaya tətbiq etmək.
5. Əvvəlki illərdə işə götürənlər yalnız ATU-nun professor-müəllim heyyəti ilə təmsil olunurdu. Özünətəhlil apardıqda müəyyən olunmuşdur ki, ATU-ilə əlaqəli olmayan işəgötürənlər az əhatə olunur və bu göstəricini yüksəltmək üçün ATU-dan kənar işəgötürənlərlə görüşlər təşkil edilməyə başlanıb. Həmin iclaslarda potensial iş yerlərinin rəhbərlərinin fikir və təklifləri də nəzərə alınmaqla əmək bazarının ehtiyacları təhlil olunur və tələbə qəbulu ilə bağlı sifarişlərin daha məqsədyönümlü olması istiqamətində işlər aparılır.
6. ATU-da kredit sistemində nəzərdə tutulan bəzi (tələbənin müstəgil müəllim seçimində iştirakı) xüsusiyyətlərinin həyata keçirilməsində müəyyən çatışmamazlıqlar var. Təşkilat komiisiyası Özünütəhlilin əsasında təklif edir ki, ETS-də hər müəllimin tədris yükünə müvafiq qruplar sayı və seçim üçün məhdud müddət qeyd olunsun. Buna əsasən tələbələr qrup şəklində müəyyən vaxt çərçivəsində istənilən müəllimi müstəqil seçə bilərlər.
7. Özünütəhlil komissiyası tədris prosesinin daha dolğun təminatı üçün kitabxananın komplektləşdirilməsi üzrə işləri davam etdirməyi, tədris-metodiki və elmi ədəbiyyatın alınmasına ayrılan vəsaitlərin həcmini artırmağı tövsiyə edir. Tədris prosesinin informasiya texnologiyaları, proqram vəsaitləri, laboratoriya və xüsusiləşdirilmiş avadanlıqla təminatının kifayət olmasına baxmayaraq, xarici təhsilalanların sayının ilbəil artmasını nəzərə alaraq tövsiyyə olunur ki, kitabxana fondu xarici ədəbiyyatlarla zənginləşdirilsin və texniki avadanlığın sayı çoxaldılsın.
8. Özünətəhlil komissiyası tövsiyyə edir ki, akademik dürüstlüyün təmin edilməsində tədris prosesində də köçürmə hallarının qarşısının alınması məqsədi ilə antiplagiat sistemləri fəal istifadə olunsun.

**Qeyd:** Təşkilat komissiyasının özünütəhlilin nəticəsi olaraq gəldiyi nəticələr və təhsil müəssisəsinə tövsiyyələri əks olunur.

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərs dənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.